Xalqın qəzeti!
# Xalq qəzeti
№ 256 (30950) 4 dekabr 2025-ci il, cümə axşamı
Gündəlik ictimai-siyasi qəzet
1919-cu ildən çıxır
Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Xalqa xidmət dövlət məmurunun başlıca vəzifə borcudur



İnsanlara diqqət göstərmək, onların qayğıları ilə yaşamaq, daim onların arasında olmaq lazımdır. Xalqa yaxın olmaq, xalqla bir yerdə olmaq idarəçiliyin başlıca qayəsidir. Xalqa xidmət etmək, xalqın rəğbətini qazanmaq hər bir rəhbərin borcudur.

Məmur özünü xalqdan üstün tutmamalıdır. Hər bir bölgədə insanlar görməlidirlər ki, ədalət hər zaman üstünlük təşkil edir. Korrupsiya və rüşvətxorluğa qarşı mübarizə qətiyyətlə davam etdiriləcək və heç bir qanunsuz hərəkət nəticəsiz qalmayacaq.

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

## Aİ–ABŞ münasibətlərinə əsən soyuq küləklər



**Transatlantik münasibətləri izləyən hər kəs son illərdə qəribə bir paradoksla üzləşir: Avropa İttifaqı ilə ABŞ həm bir-birinə heç vaxt olmadığı qədər yaxın görünür, həm də heç vaxt olmadığı qədər gərginlik yaşayır. Son illərə baxanda görürük ki, NATO xətti, Ukrayna müharibəsi, Rusiyaya qarşı koordinasiya, Çinlə bağlı risklərin dəyərləndirilməsi – bütün bu sahələrdə Vaşinqton və Brüssel hələ də eyni geosiyasi mövqedə dayanırlar. Yəni təhlükəsizlik məsələlərində Transatlantik birlik möhkəmdir.**

Bəs niyə son aylarda Avropa paytaxtlarında “strateji avtonomiya”, “sənaye suverenliyi”, “iqtisadi təhlükəsizlik” kimi terminlər bu qədər gur səslənməyə başlayıb? Cavab sadədir: ticarət və sənaye siyasətində illərdir toplanan ziddiyyətlər artıq pik hədəfə çatır. Transatlantik münasibətlərin bu yeni mərhələsi sanki bir balans oyunu kimidir – siyasi yaxınlıqla iqtisadi rəqabət eyni vaxtda baş verir. Belə bir dinamikanın özəyi isə cəmi bir cümlədə gizlidir: ABŞ daxili sənayesini qorumaq üçün sərt proteksionizmə qayıdır, Aİ isə özünün itirdiyini yeni tərəfdaşlarla kompensasiya etməyə çalışır.

*(ardı 6-cı səhifədə)*

## Mogerini–Borel tandeminin ifşası

*Avropa diplomatiyası korrupsiya burulğanında*



**Avropa İttifaqının illər ərzində formalaşdırdığı siyasi nizam, özünü dünyada normativ güc kimi təqdim edən model və etik üstünlük iddiası indi ciddi sınaq qarşısındadır. Son dövrlərdə ard-arda üzə çıxan korrupsiya faktları, ifşa olunan gizli sxemlər və keçmiş–indiki yüksək vəzifəlilərin adlarının hallandığı qalmaqallar illərlə cidd-cəhdlə qorunan bu imicə çox ciddi kölgə salır.**

Aİ-nin Xarici Siyasət və Təhlükəsizlik məsələləri üzrə sabiq Ali Nümayəndəsi Federika Mogerini və Avropa Xarici Fəaliyyət Xidmətinin (EEAS) keçmiş baş katibi Stefano Sannino kimi fiqurların korrupsiya işi üzrə istintaqa cəlb olunmaları bu reallığı bir daha ortaya qoyur və Aİ-də korrupsiya probleminin artıq kənardan gizlədilməsi mümkün olmayacaq qədər dərinləşdiyini bir daha göstərir. Bir daha aydın olur ki, Aİ korrupsiya girdabında çabalayan bürokratiyaya çevrilib.

*(ardı 6-cı səhifədə)*

## İlham Əliyev: liderin tarixi-siyasi missiyası



Səhifə ⇨ 5

## Avropa İttifaqı Cənubi Qafqazda nə yaratmaq istəyir?




Səhifə ⇨ 3

## COP31-in geosiyasi şifrələri




Səhifə ⇨ 4

## Delimitasiya hüdudları ayırır, münasibətləri yaxınlaşdırır

*Sərhədin müəyyənləşdirilməsi isə sülhə aparan yolda əməli addımdır*



**Son günlər regionda sülh prosesinə təsir edən bir sıra diplomatik görüşlər keçirilib. Ermənistan və Azərbaycan, eləcə də Ermənistan və Türkiyə nümayəndə heyətləri arasında gerçəkləşən təmaslar Cənubi Qafqazda davamlı sülhün və sabitliyin möhkəmləndirilməsinə xidmət edir.**

*(ardı 3-cü səhifədə)*

## Erməni liderlərin nağılları ölkəyə fəlakət gətirib



Səhifə ⇨ 7

## Qlobal inflyasiya və ərzaq təhlükəsizliyi



Səhifə ⇨ 11

# Beynəlxalq yanğınsöndürmə və xilasetmə idmanı konfransı





**Bakıda Yanğınsöndürənlərin və Xilasedicilərin Beynəlxalq İdman Federasiyasına üzv ölkələrin yanğın-xilasetmə xidmətləri rəhbərlərinin XXVI Beynəlxalq Konfransı keçirilib.**

Əvvəlcə konfrans çərçivəsində fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərov və Yanğınsöndürənlərin və Xilasedicilərin Beynəlxalq İdman Federasiyasının prezidenti, daxili xidmət general-polkovniki Aleksandr Çupriyan arasında ikitərəfli görüş olub. Görüşdə Nazirliklə Federasiyası arasında əməkdaşlıq məsələləri və Bakıda keçirilən konfrans barədə fikir mübadiləsi aparılıb, qarşılıqlı maraq doğuran məsələlər müzakirə olunub.

Sonra konfransın açılış mərasimi keçirilib.

Tədbirdə federasiyaya üzv ölkələrdən – Almaniya, Avstriya, Belarus, Bolqarıstan, Çin, Çex Respublikası, Hindistan, İran, Qazaxıstan, Özbəkistan, Tacikistan, Kamerun, Latviya, Monqolustan, Qətər, Səudiyyə Ərəbistanı, Bəhreyn, Rusiya, Serbiya, Slovakiya və Vyetnamdan, eləcə də federasiyanın tərəfdaş şirkətlərindən ümumilikdə 100 nəfərdən artıq nümayəndə, habelə videokonfrans formatında Türkiyə və Qırğızıstan təmsilçiləri iştirak ediblər.

Konfransın açılışında K.Heydərov beynəlxalq tədbirin ölkəmizdə keçirilməsinin əhəmiyyətindən danışıb, bu mötəbər konfransı yanğınsöndürmə və xilasetmə sahəsində beynəlxalq əməkdaşlığın möhkəmlənməsi, yeni təcrübələrin və qabaqcıl yanaşmaların öyrənilməsi baxımından vacib platforma kimi qiymətləndirib. Nazir bu il Ər-Riyad şəhərində keçirilmiş yanğınsöndürmə-xilasetmə idmanı üzrə kişilər arasında XX və qadınlar arasında XI Dünya Çempionatının yüksək səviyyədə təşkilinə və göstərilən qonaqpərvərliyə görə Səudiyyə Ərəbistanı Krallığının Daxili İşlər Nazirliyinə təşəkkürünü bildirib.

Aleksandr Çupriyan konfransın təşkilində göstərilən dəstəyə görə Azərbaycana təşəkkür edib. O, təbii və texnogen fövqəladə hadisələrin artdığı müasir dünyada yanğınsöndürən və xilasedici peşəsinin əhəmiyyətinə toxunub, onların peşəkar hazırlıq səviyyəsinin daim artırılmasının vacibliyini bildirib.

Konfransda Aleksandr Çupriyan tərəfindən nazir Kəmaləddin Heydərova federasiyanın "Beynəlxalq əməkdaşlığa verdiyi töhfəyə görə" medalı təqdim olunub.

Sonra konfrans işini digər natiqlərin çıxışı ilə davam etdirib.

*XQ*

# Baş prokuror Nyu-Yorkda antikorrupsiya konfransında




**Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti dekabrın 2-də BMT-nin Baş Qərargahında keçirilən "Korrupsiyanın ölçülməsinin təkmilləşdirilməsi məqsədilə məlumatların səmərəli istifadə olunması" mövzusunda İkinci Qlobal Konfransda iştirak etmək məqsədilə Nyu-Yorkda rəsmi səfərdə olub.**

30-a yaxın ölkənin nümayəndə heyətlərinin, həmçinin müxtəlif beynəlxalq və regional təşkilatların çox sayda təmsilçiləri və ekspertlərinin iştirak etdiyi tədbirin yüksəksəviyyəli seqmentində çıxış edən Baş prokuror qeyd edib ki, müasir dövrün əsas bəlalarından olan korrupsiyaya qarşı mübarizənin təsirliliyini təmin etmək üçün onun miqyasının müəyyən edilməsi, başqa sözlə, ölçülməsi ilkin şərtdir: "Lakin bu fəaliyyət sabit, qərəzsiz və obyektiv meyarlara söykənməlidir. Ölkəmizin ekspertlərinin də yaxından iştirakı ilə hazırlanan yeni metodologiyanın bu boşluğu dolduracağına inanırıq".

Tədbir çərçivəsində Baş prokuror və BMT-nin Qanunun Aliliyi və Təhlükəsizlik İnstitutları ofisinin rəhbəri Faisal Shahkar arasında ikitərəfli görüş keçirilib.

Görüş zamanı qurumlar arasında əməkdaşlığın perspektivləri müzakirə edilib, həmçinin Azərbaycan tərəfindən irəli sürülən konkret layihələrin dəstəkləndiyi bildirilib.

Bundan əlavə, konfrans çərçivəsində Baş prokurorla Beynəlxalq Antikorrupsiya Akademiyasının cari dekanı Drago Kos arasında ikitərəfli görüş keçirilib.

Drago Kos Azərbaycan Prokurorluğuna Akademiyaya göstərdiyi hərtərəfli dəstəyə görə təşəkkürünü ifadə edib. Kamran Əliyev Akademiyanın fəaliyyəti dövründə 20-yə yaxın prokurorluq əməkdaşının qurumun magistr proqramlarının məzunu olduğunu qeyd edib.

Tədbir çərçivəsində Baş prokurorla Səudiyyə Ərəbistanı, Mərakeş və digər ölkələrdən olan tərəfdaşlar arasında görüşlər keçirilərək qarşılıqlı maraq kəsb edən mövzular ətrafında fikir mübadiləsi aparılıb.

*XQ*

# TDT-nin "Xəritəçilik İşçi Qrupu"nun II iclası




**Bakı şəhəri dekabrın 2-3-də Türk Dövlətləri Təşkilatına üzv ölkələrin "Xəritəçilik İşçi Qrupu"nun ikinci iclasına ev sahibliyi edib.**

Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkiyə, həmçinin müşahidəçi qismində Macarıstan və Şimali Kipr Türk Respublikasının geodeziya və kartoqrafiya sahəsinə cavabdeh qurumlarının nümayəndələrinin iştirak etdiyi iclasın əvvəlində tədbir iştirakçıları ölkəmizdə geodeziya və kartoqrafiya sahəsində görülən işləri əks etdirən videoçarxı izləyiblər.

Daha sonra ekologiya və təbii sərvətlər nazirinin birinci müavini Rəşad İsmayılov, Türk Dövlətləri Təşkilatının Baş katibinin müavini Merey Mukajanın, eləcə də TDT-yə üzv ölkələrin nümayəndələrinin çıxışları dinlənilib.

Görüş zamanı, həmçinin işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında tarixi Zəfərdən sonra həyata keçirilən genişmiqyaslı bərpa və quruculuq işləri barədə ətraflı məlumat verilib. Eyni zamanda, 2026-cı ildə Bakıda keçiriləcək Dünya Şəhərsalma Forumu – WUF13 üzrə hazırlıq prosesi, gündəlik istiqamətlər və regional əməkdaşlıq imkanları barədə qonaqlar məlumatlandırılıb.

Tədbir panel sessiyalarla davam edib.

Sonda növbəti 3-cü toplantıya Qazaxıstan Respublikasının ev sahibliyi edəcəyi qərara alınıb.

*XQ*

# Azərbaycan–Türkiyə ailə, qadın və uşaq məsələləri əməkdaşlığı



**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova dekabrın 3-də Türkiyənin ölkəmizdəki səfiri Birol Akgün ilə görüşüb.**

B.Muradova Azərbaycan ilə qardaş Türkiyə arasında əsrlərə söykənən əlaqələrdən danışıb və strateji tərəfdaşlıq, dostluq münasibətlərinin digər dövlətlər üçün örnək olduğunu söyləyib. Səfir B.Akgün iki ölkə arasında mehriban dostluq və qardaşlıq prinsiplərinə əsaslanan münasibətlərin, eləcə də strateji əməkdaşlığın bu gün ən yüksək səviyyədə inkişaf etdiyini bildirib.

Tərəflər ailə, qadın və uşaq məsələləri üzrə əməkdaşlığın genişləndirilməsi istiqamətində fikir mübadiləsi aparıb, bu sahədə həyata keçirilən birgə layihə və təşəbbüslərin əhəmiyyətinə toxunublar.

Görüşdə, həmçinin iki qurum arasında imzalanmış "Ailə, qadın və uşaq məsələləri üzrə siyasət sahəsində Əməkdaşlıq Protokolu"nun 2023–2025-ci illər üzrə Fəaliyyət Planı çərçivəsində görülən işlərdən danışılıb.

*XQ*

# Ali Məhkəmənin sədri Vyetnamda




**Azərbaycan Respublikası Ali Məhkəməsinin və Məhkəmə-Hüquq Şurasının sədri İnam Kərimovun rəhbərlik etdiyi nümayəndə heyəti Vyetnam Sosialist Respublikasında rəsmi səfərdə olub.**

Səfər çərçivəsində İnam Kərimov Vyetnam Ali Xalq Məhkəməsinin sədri Nguyen Van Quang ilə görüşüb.

Vyetnam ilə Azərbaycan arasında mövcud olan ənənəvi dostluq münasibətlərinin gələcək əməkdaşlıqlar üçün möhkəm bir baza olduğunu qeyd edən Nguyen Van Quang Vyetnam məhkəmə sistemində son dövrlərdə aparılan islahatlar, məhkəmələrin strukturlaşdırılması, elektron məhkəmə və insan resurslarının inkişafı barədə məlumat verib. İ.Kərimov öz növbəsində dəvətə görə təşəkkürünü bildirərək, ölkəmizdə aparılan məhkəmə-hüquq islahatları, rəqəmsallaşma və ədalət mühakiməsinin səmərəliliyinin artırılması istiqamətində görülən işlər barədə ətraflı məlumat verib.

Səfər çərçivəsində Azərbaycan nümayəndə heyəti, həmçinin Hanoi Şəhər Xalq Məhkəməsini və Quang Ninh Vilayətinin Xalq Məhkəməsində olub.

*XQ*

# NATO-nun mobil təlim qrupunun seminar-məşğələsi



**2025-ci ilin NATO ilə "Fərdi Tərəfdaşlıq üzrə Əməkdaşlıq Proqramı"na əsasən, NATO-nun Brunssum Birgə Qüvvələr Komandanlığının mobil təlim qrupu tərəfindən "Əldə düzəldilmiş partlayıcı qurğulara qarşı mübarizə" mövzusunda seminar-məşğələ keçirilir.**

Təlimdə Müdafiə Nazirliyinin Mühəndis Qoşunları Baş İdarəsinin və onun tabeliyindəki hərbi hissələrdə xidmət edən hərbi qulluqçuların, həmçinin xüsusi təyinatlı təhsil müəssisələrinin mühəndis ixtisaslı zabitləri iştirak edirlər.

Müdafiə Nazirliyindən verilən məlumata görə, keçirilən məşğələ zamanı iştirakçılara müxtəlif mövzularda brifinqlər təqdim edilir.

Seminar-məşğələ dekabrın 5-dək davam edəcək.

*XQ*

# Azərbaycan, ABŞ və Pakistan hərbçilərinin Türkiyə təlimi



**Türkiyənin İzmir şəhərində "Doğu Akdeniz - 2025" (Şərqi Aralıq dənizi - 2025) dəvət təlimi keçirilib. Bu barədə Müdafiə Nazirliyindən məlumat verilib.**

Bildirilib ki, təlimdə qardaş ölkənin hərbi qulluqçuları ilə yanaşı Azərbaycan Ordusunun Hərbi Dəniz Qüvvələrinin bir qrup heyəti, ABŞ-ın terrorizmə qarşı təhlükəsizlik qrupu və Pakistan Ordusunun dəniz patrul təyyarəsi iştirak ediblər.

Təlimdə qarşıya qoyulan tapşırıqların icrası zamanı iştirakçı ölkələrin hərbi qulluqçuları yüksək peşəkarlıq nümayiş etdiriblər.

Qeyd edək ki, dəvət təliminə 19 ölkədən hərbi qulluqçular müşahidəçi qismində qatılıblar.

*XQ*

# Delimitasiya hüdudları ayırır, münasibətləri yaxınlaşdırır

**(əvvəli 1-ci səhifədə)**

Azərbaycanın Qəbələ şəhərində Azərbaycan və Ermənistan arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının və sərhəd təhlükəsizliyi məsələlərinə dair Komissiyanın 12-ci görüşü olub. Görüşdə 2025-ci ilin yanvarında keçirilmiş 11-ci görüşdə əldə olunan razılaşmaya əsasən, delimitasiya işlərinə sərhədin şimal hissəsindən başlanılması və cənuba, İran sərhədinə qədər davam etdirilməsi təsdiqlənib. Bununla əlaqədar növbəti təmasın Ermənistanın şəhərlərindən birində təşkili barədə razılıq əldə olunub.



Bildirilib ki, delimitasiya prosesi Ermənistan və Azərbaycan arasında uzun illər yaşanmış gərginliklərin azaldılması, sərhəddə qarşıdurma risklərinin minimuma endirilməsi və hüquqi dəqiqliyin təmin edilməsi baxımından həlledici mərhələ hesab olunur. Bu proses həm də tərəflər arasında etimadın formalaşması üçün vacib psixoloji amildir. Sərhədin kağız üzərində dəqiq müəyyənləşdirilməsi yalnız inzibati addım deyil, eyni zamanda uzun illər gərginlik ocağı olmuş siyasi problemin həllidir.

Problemin kökündə isə sovet dövründən qalan xəritələrin fərqli interpretasiyası dayanır. Buna görə tərəflər öz mövqelərini əsaslandırmaq üçün müxtəlif tarixi mənbələrə üz tutublar. Məsələn, Ermənistan SSRİ xəritələrini və 1984-cü il yanvarın 1-də Azərbaycan və Ermənistan SSR arasında müəyyənləşən sərhəd xəttini əsas götürmək istəyir. Rusiya isə sərhəd delimitasiyasına dair ən son təklifini 1974-cü il SSRİ xəritələrinə əsaslanaraq irəli sürüb, lakin bu təklif Ermənistan tərəfindən məqbul sayılmayıb. Çünki həmin dövrdən sonra Azərbaycan və Ermənistan arasında de-fakto sərhəd dəyişiklikləri baş verib.



1991-ci il Almatı sammitində qəbul edilən sərhəd xətti də suallar doğurur. Məsələn, 1982-ci ildə Qazax rayonunun bəzi sahələri və kəndlərin bir hissəsi Ermənistana verilib, 1984–1986-cı illərdə isə İcdarın 2 min 500 hektar otlaq sahəsi Ermənistana keçib. Bu qərarların heç biri Azərbaycan SSR-in ovaxtkı rəhbərliyi tərəfindən tam təsdiqlənməyib və SSRİ dağıldıqdan sonra Prezident Heydər Əliyev bu ərazilərin Ermənistana verilməsini qanunsuz elan edib.

Hazırkı mərhələdə delimitasiya və demarkasiya prosesi hər iki tərəfdən o qədər də mübahisə yaratmayan ərazilər üzrə davam etdiriləcək. Sonrakı danışıqlarda isə mübahisəli ərazilərin kimə məxsusluğu müəyyənləşdiriləcək. Ona görə də Azərbaycan torpaqlarının 1920-ci ildən başlayaraq, birtərəfli şəkildə Ermənistana verilməsi və sonrakı sərhəd dəyişiklikləri hazırda danışıqlarda yol xəritəsi kimi istifadə olunmur.

Onu da deyək ki, hazırda sərhədin rəsmiləşdirilməsi əvvəlki qeyri-müəyyənliklərdən doğan insidentlərin, hərbi toqquşmaların və yerli əhali arasında narahatlığın qarşısını almağa yönəlmiş fundamental addımdır və siyasi baxımdan daimi təsirə malikdir. Etibarlı sərhəd iki dövlət üçün həm təhlükəsizlik, həm də etibarlı gələcək deməkdir.

**Bununla bağlı politoloq Yeganə Hacıyeva bildirdi ki,** delimitasiya prosesi zahirən siyasi qərar kimi görünə bilər. Amma əslində, son dərəcə mürəkkəb, texniki və uzunmüddətli əmək tələb edir: "Sərhədlərin müəyyənləşdirilməsi, bu, xəritələr, koordinatlar, arxiv materialları, geodeziya ölçmələri və sahə tədqiqatları əsasında aparılan genişmiqyaslı texniki işdir. Prosesə start verilməsi o deməkdir ki, Bakı və İrəvan artıq yalnız prinsipləri deyil, praktiki mexanizmləri də işə salıblar. Bu isə ümumilikdə sülh prosesini abstrakt müzakirələrdən çıxarıb real, konkret addımlar mərhələsinə gətirib".

Y.Hacıyeva vurğuladı ki, delimitasiya işləri regionda uzunmüddətli sabitliyin yaradılması baxımından da həlledicidir: "Bu proses həm təhlükəsizlik, həm siyasi sabitlik, həm iqtisadi əməkdaşlıq, həm də uzunmüddətli sülh baxımından mühüm əhəmiyyət daşıyır. Kommunikasiyaların açılması və irimiqyaslı regional layihələrin işə düşməsi deməkdir. Əks halda, bu, mümkün deyil. Çünki sərhədlərin açılması və iki ölkə arasında keçid məntəqələrinin yaradılması üçün dəqiq və qarşılıqlı tanınmış xəttin müəyyənləşdirilməsi vacibdir. İkincisi, iqtisadi və nəqliyyat layihələrinin, o cümlədən regionu şimaldan cənuba, qərbdən şərqə bağlayan dəhlizlərin işə düşməsi, infrastrukturun qurulması və tranzit potensialının artırılması delimitasiya prosesindən birbaşa asılıdır. Dəmiryolu və avtomobil yollarının marşrutları, logistika mərkəzlərinin yerləşməsi və təhlükəsizlik zonalarının yaradılması yalnız sərhədin hüquqi olaraq dəqiqləşdirilməsindən sonra mümkündür. Bu amil təkcə Azərbaycan və Ermənistan üçün deyil, həm də Gürcüstan, İran və Türkiyə kimi regional oyunçular üçün mühüm strateji imkanlar yaradır.

Üçüncüsü, TRIPP kimi regional təşəbbüslərin uğurla reallaşması məhz sabitlikdən asılıdır. Belə layihələr regionun siyasi xəritəsini dəyişmək, Cənubi Qafqazı beynəlxalq nəqliyyat və enerji şəbəkələrinə daha sıx inteqrasiya etmək potensialına malikdir. Bu cür təşəbbüslərin həyata keçirilməsi nəticədə həm iqtisadi artımı stimullaşdırır, həm də region ölkələri arasında qarşılıqlı asılılığı artıraraq sülh prosesini daha davamlı edir".

Beləliklə, Azərbaycan Ermənistanla sərhədin delimitasiya və demarkasiyasında həm maraqlı, həm də qərarlıdır. Ermənistanla bütün diplomatik təmaslarda Azərbaycan bu mövqeyini qəti surətdə bəyan edib. Göründüyü kimi, sülhün təmin olunması üçün indiki məqamda yeganə şərt sərhədlərin müəyyənləşdirilməsi və daha sonra kommunikasiya xətlərinin açılmasıdır. Mövcud xüsusda Azərbaycan müharibə dövründə Ermənistan tərəfindən bilərəkdən məhv edilmiş avtomobil və dəmir yollarını, o cümlədən digər zəruri infrastrukturu bərpa edir və yenidən qurur. Bu, bir daha sübut edir ki, Azərbaycan sərhədlərin müəyyənləşdirilməsi və kommunikasiyaların bərpası üçün maraqlıdır. Mərhələnin uğurla başa çatdırılması sülh sazişinin imzalanması üçün ən möhkəm siyasi və hüquqi zəmin yaradır.

Y.Hacıyeva Ermənistan–Türkiyə münasibətlərinə də toxundu: "2020-ci ildən sonra Cənubi Qafqazda yaranmış yeni geosiyasi reallıqlar regiondakı bütün proseslərin məzmununu əhəmiyyətli dərəcədə dəyişmiş, Azərbaycan–Ermənistan münasibətlərini isə regional gündəliyin əsas mərkəzinə çevirmişdir.



Postmünaqişə dövründə formalaşan güc balansının əsas istiqamətləri məhz Azərbaycan tərəfindən müəyyənləşdirilir. Ərazi bütövlüyünün tam bərpası, sərhədlərin təhlükəsizliyinin təmin edilməsi və yeni regional təhlükəsizlik mexanizmlərinin qurulması nəticəsində Bakı təkcə Azərbaycan–Ermənistan münasibətlərinin gələcəyində deyil, həm də Türkiyə–Ermənistan dialoqunun konturlarının müəyyən edilməsində başlıca aktor statusunu əldə etmişdir.

Ermənistan–Türkiyə normallaşması, nəqliyyat-kommunikasiya xətlərinin açılması və regionun təhlükəsizlik arxitekturasının yenidən qurulması birbaşa şəkildə Azərbaycan–Ermənistan münasibətlərinin nizamlanması ilə bağlıdır. Bu mənada bölgədə gedən üçtərəfli normallaşma prosesində Azərbaycanın həm təşəbbüskar, həm də müəyyənedici rolu xüsusi qeyd olunmalıdır.

Azərbaycan, Ermənistan və Türkiyə arasında münasibətlərin normallaşması bir-birini tamamlayan, qarşılıqlı asılılıq yaradan proseslərdir. Zəncirin əsas halqası isə Azərbaycan–Ermənistan münaqişəsinin tam başa çatması və münasibətlərin siyasi əsaslarda qurulmasıdır. Azərbaycan regional transformasiyanı öz strateji maraqlarına uyğun şəkildə formalaşdırır və regionun gələcək inkişaf trayektoriyasını müəyyənləşdirən aparıcı aktor qismində çıxış edir.

44 günlük Vətən müharibəsi regionda yeni təhlükəsizlik balansı yaratdı. İşğal faktorunun aradan qaldırılması Azərbaycan–Ermənistan münasibətlərində yeni mərhələnin əsasını qoymaqla yanaşı, uzun illər boyu Türkiyə–Ermənistan dialoqunun qarşısını alan əsas baryeri də aradan qaldırdı. Qardaş Türkiyə hələ münaqişə davam etdiyi dövrlərdə Ermənistanla münasibətlərin normallaşdırılması üçün Qarabağ məsələsinin həllini prinsipial şərt kimi irəli sürmüşdü. Buna görə də Bakı ilə sülh prosesində irəliləyiş olmadan Ankara–İrəvan münasibətlərinin siyasi müstəviyə keçməsi mümkün deyildi.

Azərbaycanın ortaya qoyduğu yeni regional təhlükəsizlik modeli bölgənin siyasi-iqtisadi arxitekturasının məhz region dövlətləri tərəfindən müəyyən edilməsini hədəfləyir. Bu yanaşma Cənubi Qafqazda xarici təsirlərin məhdudlaşdırılması, regional müstəqilliyin və kollektiv təhlükəsizliyin gücləndirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Mövcud kontekstdə Azərbaycanın təşəbbüsü olan "3+3" platforması – Azərbaycan, Ermənistan, Gürcüstan və üç qonşu ölkə – Türkiyə, Rusiya, İran arasında əməkdaşlığın dərinləşdirilməsi baxımından mühüm regional format kimi çıxış edir. Platforma bölgənin siyasi və iqtisadi gələcəyinin xarici müdaxilələrdən kənar şəkildə formalaşdırılmasına xidmət edən əsas təşəbbüslərdən biridir.

Azərbaycanın təklif etdiyi sülh müqaviləsi prinsipləri həm Azərbaycan–Ermənistan münasibətlərinin dayanıqlı əsasını təşkil edir, həm də Ermənistan–Türkiyə normallaşmasına siyasi və iqtisadi zəmin yaradır. Nəqliyyat-kommunikasiya xətlərinin açılması Azərbaycanın regional logistik mərkəzə çevrilməsini təmin etməklə yanaşı, Ermənistan–Türkiyə münasibətlərinin iqtisadi dayaqlarını da gücləndirəcək mühüm amildir.

Siyasi müstəvidə isə Azərbaycan və Türkiyə arasında "bir millət – iki dövlət" prinsipinə əsaslanan strateji əməkdaşlıq daha da dərinləşir. Ankara Ermənistanla normallaşma prosesində Azərbaycanın milli maraqlarını əsas götürür və bütün təşəbbüslər Bakı ilə tam sinxron şəkildə həyata keçirilir. Beləliklə, hər iki ölkə region üzrə tam strateji sinxronizasiya ilə irəliləyir və bu sinxronizasiyanın mərkəzində Azərbaycanın müəyyənedici rolu dayanır.

Azərbaycanın sülh təşəbbüsləri, kommunikasiya layihələri, regional əməkdaşlıq platformaları və Türkiyə ilə strateji koordinasiya Cənubi Qafqazda yeni regional arxitekturanın əsasını təşkil edir. Bu fakt ölkəmizin regionun gələcək inkişaf modelinin formalaşdırılmasında aparıcı güc olduğunu açıq şəkildə nümayiş etdirir.

Yekunda qeyd etmək lazımdır ki, Azərbaycanın irəli sürdüyü sülh gündəliyi bölgədə yeni müharibə risklərini minimuma endirir, davamlı sabitlik, əməkdaşlıq və iqtisadi inteqrasiya üçün möhkəm baza yaradır. Enerji, nəqliyyat və rəqəmsal infrastruktura dair genişmiqyaslı layihələr Azərbaycanın regional iqtisadi mərkəz kimi rolunu daha da möhkəmləndirir və Ermənistan–Türkiyə münasibətlərinin normallaşmasına da əlavə stimul verir".

***Ə.PÜNHAN***
***XQ***

**Avropa İttifaqının Genişlənmə Siyasəti üzrə Ali Komissarı Marta Kos bir neçə gün əvvəl bildirib ki, təmsil olunduğu qurum TRIPP layihəsində mümkün iştirakla bağlı ABŞ, Azərbaycan və Türkiyə ilə danışıqlar aparır. "Aİ-nin öz təklifləri var və blok Türkiyə və Azərbaycanla məsləhətləşmələrini davam etdirir. ABŞ-ın iştirakı xüsusilə önəmlidir, çünki layihə yalnız bir dəmir yolu seqmentini əhatə edir".**

# Avropa İttifaqı Cənubi Qafqazda nə yaratmaq istəyir?

## *Ermənistan üçün avantüra vədinə sözardı*

Əlbəttə, Aİ-nin TRIPP layihəsinə hansısa formada dəstək göstərmək istəməsi ümumi işə faydalıdır. Ümumi iş dedikdə isə söhbət regional kommunikasiyaların blokdan çıxarılmasından gedir. Amma fayda necə olmalıdır və ya xanım Kosun açıqlamasında belə bir niyyət varmı, başlıca sual budur.

Qeyd edək ki, istər Kosun, istərsə də Aİ-nin xarici siyasət və təhlükəsizlik üzrə ali nümayəndəsi Kaya Kallasın son günlər dilə gətirdikləri fikirlərdən gəlinən qənaət Ermənistanı anti-Rusiya cəbhəsinin Cənubi Qafqaz səngərinə çevirmək niyyətinin mövcudluğundan xəbər verir. Sanki onlar İrəvanı bunun üçün şirnikləndirirlər. Şirnikləndirmədə Ermənistana maliyyə yardımının göstərilməsi motivi ön plandadır. Yəni maliyyə yardımı göstərilməlidir ki, baş nazir Nikol Paşinyan administrasiyası 2026-cı ildə keçiriləcək parlament seçkilərindən qalib ayrılsın. Axı Ermənistanda ruspərəstlərin mövqeyi güclüdür və erməni hakim komandası durumun fərqindədir. Ona nəyin bahasına olursa-olsun, iqtidar kürsüsünü qorumaq lazımdır. Aİ rəsmiləri bəyanatları ilə, faktiki olaraq, bildirir və subliminal mesaj verirlər ki, hakimiyyətdə qalmağın yolu Ermənistanın Rusiyaya qarşı sanksiyalara qoşulmasıdır. Təxminən belə: sizə pulu biz deyəni etməyiniz üçün veririk.




Əlbəttə, Aİ-dəkilər Ermənistanın, obrazlı desək, sancısının nədən ibarət olduğunu anlayırlar. Axı xanım Kos TRIPP-dən söz açarkən, "çünki layihə yalnız bir dəmir yolu seqmentini əhatə edir" bəyanatını əbəs yerə vermir. Avropalılara yaxşı məlumdur ki, layihə özündə Zəngəzur dəhlizi məntiqini birləşdirir. Bu il avqustun 8-də Prezident İlham Əliyevin ABŞ Prezidenti Donald Trampın şahidliyi ilə baş nazir Nikol Paşinyanla imzaladığı Birgə Bəyannamənin 3-cü bəndində də bildirilir ki, "Biz regionda və onun qonşuluğunda dövlətlərin suverenliyi, ərazi bütövlüyü və yurisdiksiyasına hörmət əsasında sülhün, sabitliyin və rifahın təşviqi üçün iki ölkə arasında ölkədaxili, ikitərəfli və beynəlxalq nəqliyyatın təmini məqsədilə kommunikasiyaların açılmasının əhəmiyyətini bir daha təsdiq etdik. Bu səylər Azərbaycan Respublikasının əsas hissəsi və onun Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantını və Ermənistan Respublikası üçün beynəlxalq və ölkədaxili bağlantılar üzrə qarşılıqlı faydaları ehtiva edir".

Göründüyü kimi, Ermənistan üçün fayda Naxçıvana maneəsiz yoldan asılıdır. Birgə Bəyannamədəki ölkənin ərazi bütövlüyünə və suverenliyinə hörmət kazusuna gəlincə, bu, müəyyən mənada, İrəvan üçün mənəvi bonus və təminatdır. O anlamda ki, erməni iqtidarı 2020-ci ildən ötən müddətdə sözügedən kazusu əsas götürməklə, həmçinin, guya Ermənistanın suverenliyinə təhdidin olduğunu vurğulamaqla, Naxçıvana maneəsiz yol verməkdən boyun qaçırıb. Baxmayaraq ki, məsələ 44 günlük müharibənin nəticələrini təsdiqləyən 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatda əksini tapmışdı. Yəni həmin sənəddə də Naxçıvana yolun maneəsizliyi üzərində dayanılmış, daha doğrusu, Paşinyan administrasiyası bununla bağlı öhdəlik götürmüşdü.

Bəs Kosun vurğuladığı və əvvəldə diqqətə çatdırdığımız dəmir yolu söhbəti nədir? Çox da düşünməyə ehtiyac yoxdur. Çünki bu söhbət Ermənistan rəhbərliyinin ortaya atdığı "Dünyanın kəsişməsi" təşəbbüsündən qaynaqlanır. Paşinyanın vaxtilə bu təşəbbüs çərçivəsində söylədiklərindən gəlinən qənaət onu deməyə əsas verirdi ki, hay iqtidarı regional kommunikasiyaların açılması dedikdə Naxçıvana yolun maneəsizliyini nəzərdə tutmur.

Yada salaq ki, Nikol Laçın-Kornidzor-Marqara avtomobil yolu marşrutunu irəli sürmüşdü. Yəni beynəlxalq daşımalar Azərbaycanın Laçınından Ermənistanın Kornidzoruna daxil olmalı, oradan Türkiyə ilə sərhəddəki Marqaraya çatdırılmalıdır. Bilavasitə Naxçıvana yola gəlincə, rəsmi İrəvanın "Dünyanın kəsişməsi" təşəbbüsü bu məsələdə yalnız dəmir yolu əlaqəsini əsas götürürdü ki, onu da şərt daxilində. Şərt belə idi: Naxçıvana dəmir yolu Ermənistanın Mehrisindən ölkənin digər bölgəsi olan Yerasxa Azərbaycanın Naxçıvanından keçməklə dəmir yolu xəttinin təmin ediləcəyi təqdirdə mümkündür.

Aydındır ki, diqqətə çatdırdığımız məqamlar dolayısı ilə Naxçıvana avtomobil yolu məntiqini heçə endirir, dəmir yolu məsələsini isə şübhələndirirdi. Lakin Birgə Bəyannamə Ermənistan rəhbərliyinin avantürasını heçə endirdi. Deməli, qalır sənədə əməl etmək. Görünür, elə buna görə də Prezident İlham Əliyev bəyannamə imzalandıqdan sonra bildirmişdi: "Əgər bizlərdən kimsə, Baş nazir Paşinyan və ya mənim özüm geriyə çəkilmək istəsəydik, buraya gəlməzdik. Beləliklə, Siz, eləcə də Azərbaycan ictimaiyyəti tam əmin ola bilər ki, bu gün baş verən hadisə Qafqaza sülh, uzunmüddətli sülh, əbədi sülh gətirəcək".

Bəli, Avropa İttifaqının Genişlənmə Siyasəti üzrə Ali Komissarı Marta Kosun yazının başlanğıcında diqqətə çatdırdığımız sitatdakı fikirləri onu deməyə əsas verir ki, Aİ, faktiki olaraq, Ermənistanı sülhə prioritet baxışdan yayındırmaq niyyəti güdür. Bəlkə qurumdakılar ölkəni əvvəlki ampluasına qaytarmaq fikrindədirlər? O ampluaya ki, orada həm Ermənistanı aktiv anti-Rusiya cəbhəsinə çevirmək məqsədi, həm də Azərbaycanla barışmazlıq xətti var idi.

Əlbəttə, Aİ-nin sırf 2026-cı il parlament seçkilərində erməni iqtidarını qalibə çevirmək niyyətinə, o cümlədən dünyada gördüyü işin müqəddəsliyinə dair təəssürat formalaşdırmasına sözümüz yoxdur. Qurumun dekabrın 2-də qəbul etdiyi ikitərəfli əməkdaşlıqla bağlı strateji gündəlikdə yer alan Ermənistanın iqtisadiyyatının gücləndirilməsi və diversifikasiyası, ölkədə qanunun aliliyinin təmin olunması, viza liberallaşdırılması və təhlükəsizliklə bağlı əməkdaşlığı gücləndirmək kimi müddəalara da etirazımız ola bilməz. Ancaq xanım M.Kosun fikrinin əksinə olaraq deyək ki, Aİ-nin regional kommunikasiyaların açılması xüsusunda öz təklifləri olmamalıdır. Nə də qurum Türkiyə və Azərbaycanla məsləhətləşmələr aparmaq barədə düşünməlidir. ABŞ-ı məsələyə qatmaq isə tam yolverilməzdir. Həm də ona görə yolverilməzdir ki, Cənubi Qafqaz platformasının regional gündəliyi artıq formalaşıb. O gündəlik ki, kompleks şəkildə sülh gündəliyi mahiyyəti daşımaqdadır və beynəlxalq birlik tərəfindən də belə qiymətləndirilir.

Sonda bildirək ki, Aİ-Ermənistan gündəliyi heç bir halda sülh gündəliyinin qarşısında dayanmağa cəhd göstərməməlidir. Onu da deyək ki, kosların, kallasların nə deməsindən asılı olmayaraq, başlıca söz Ermənistan rəhbərliyinindir. Hazırda Aİ rəsmi İrəvana, obrazlı şəkildə ifadə etsək, yeməyə balıq vəd edir. TRIPP layihəsi, o cümlədən onun tərkib hissəsi olan Zəngəzur dəhlizi ideyası isə Ermənistana özü balıq tutmağı öyrədir. Bu, elə bir düzəndir ki, orada erməni iqtidarının heç kəsə, eyni zamanda, Rusiyaya qarşı çıxmasına ehtiyac yoxdur. Paşinyan və komandası bunu əsas götürməli və onu da düşünməlidirlər ki, Aİ-nin timsalında bütövlükdə Avropanın anti-Rusiya dirənişinin Ukrayna cəbhəsi heç bir fayda vermədisə, Cənubi Qafqazda bununla bağlı hansısa avantüraya qoşulmaq tam mənasızdır. Həm də ona görə mənasızdır ki, indiki məqamda Moskvanın regiondakı reallıqlarla barışmaqdan başqa çarəsi yoxdur. Ona hansısa əsas qazandırmaq təhlükəlidir. Paşinyan iqtidarı 2026-cı il seçkilərində qalib gəlmək istəyirsə, bunu Aİ-nin qeyri-müəyyən yardımlarının hesabına reallaşdırmaq haqqında düşünməməli, tez bir zamanda TRIPP təşəbbüsü çərçivəsində üzərinə götürdüyü öhdəliyi yerinə yetirib real gəlirlərə ümid bəsləməlidir. Ümid bəsləməlidir ki, erməni elektoratında onu dəstəkləmək üçün təpər olsun.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Parlamentdə qanun dəyişiklikləri

**Ötən gün Milli Məclisin Regional məsələlər və Aqrar siyasət komitələrində geniş müzakirələr aparıldı. İclaslarda Əmək Məcəlləsinə, Şəhərsalma və Tikinti Məcəlləsinə, “Yaşayış minimumu haqqında” qanuna, həmçinin bir sıra əlaqəli normativ aktlara dəyişiklikləri əhatə edən geniş qanunvericilik paketi nəzərdən keçirildi.**




## Məsafədən iş rəsmi status alır

Regional məsələlər komitəsində keçirilən müzakirələrin əsas məqsədi əmək və sosial sahədə qanunvericiliyin beynəlxalq standartlara, xüsusilə də Beynəlxalq Əmək Təşkilatının tələblərinə uyğunlaşdırılması, sosial dialoq mexanizmlərinin institusional gücləndirilməsi, habelə yeni əmək reallıqlarının – məsafədən (distant) iş, ailə vəzifələri və əlavə məzuniyyətlərin – hüquqi çərçivəyə daxil edilməsi olub. Müzakirə edilən yeniliklərdən biri Əmək Məcəlləsinə “məsafədən (distant) iş” anlayışının əlavə olunmasıdır.

Təklifə əsasən, işçinin əmək funksiyasını işəgötürənin xammal və istehsal vasitələrindən istifadə etməklə öz evində və ya digər uyğun məkanda məsafədən yerinə yetirməsi xüsusi hüquqi status kimi Məcəllənin 3-cü maddəsinə daxil edilir. Bununla da Əmək Məcəlləsinin qüvvəsi evdən və distant qaydada çalışan əmək müqaviləsi olan işçilərə də tam şəkildə şamil olunur.

## Yaşayış minimumu ilə bağlı yeni metodologiya

Komitənin iclasında “Yaşayış minimumu haqqında” qanuna təklif olunan dəyişikliklər də geniş şəkildə müzakirə edildi. Yeni redaksiyada minimum əməkhaqqının məzmunu daha geniş sosial-iqtisadi meyarlarla əlaqələndirilir. Təklifə görə, minimum əməkhaqqının müəyyənləşdirilməsi ölkənin iqtisadi inkişaf səviyyəsi, əmək məhsuldarlığı, aylıq orta əməkhaqqı, milli valyutanın alıcılıq qabiliyyəti, sosial müavinətlərin həcmi, əsas sosial-demoqrafik qruplar üzrə yaşayış minimumu göstəriciləri və məşğulluğun qorunması kimi göstəricilər nəzərə alınmaqla “ixtisassız əməyə görə aylıq əməkhaqqının ən aşağı səviyyəsi” kimi müəyyən edilir.

## 14 günlük atalıq məzuniyyəti

Əhəmiyyətli sosial yeniliklərdən biri kimi uşağın doğulması ilə əlaqədar kişilərə 14 təqvim günü müddətində ödənişli məzuniyyət verilməsi təklifi də gündəmdə oldu. Layihəyə görə, bu məzuniyyət tibb müəssisəsinin arayışı əsasında, doğuşdan əvvəl və sonra olan dövrü əhatə etməklə qanunvericiliyə salınacaq.

## İşdən azad olunma ilə bağlı yeni qaydalar

Komitənin iclasında işçilərin işdən azad olunması hallarına dair yeni mexanizmlər də müzakirəyə çıxarıldı. Təklif olunan dəyişikliklərə əsasən, icbari tibbi müayinə nəticəsində verilən tibbi rəydə işçinin əmək funksiyalarını yerinə yetirməsinə əks göstərişlər müəyyən edilərsə, həmin işçi işdən azad oluna bilər. Bununla yanaşı, işçinin əməyin mühafizəsi üzrə təlimdə iştirakdan və biliyinin yoxlanılmasından imtina etməsi, eləcə də əmək vəzifələrinin pozulması faktının araşdırılmasına maneçilik göstərməsi də işdən azad olunma üçün əsas kimi nəzərdə tutulur.

Dəyişiklik paketi həmçinin işçinin işdən kənarlaşdırılması müddətinin müəyyən edilməsi qaydasını dəqiqləşdirir. Belə ki, bu müddət hər bir konkret halın xarakterinə, həmin halın işdən kənarlaşdırma dövründə aradan qalxmasına və ya davam etməsinə, habelə bu prosesin işçidən asılı olub-olmamasına uyğun olaraq işəgötürən tərəfindən müəyyən ediləcək. İşəgötürən, zəruri hesab etdikdə, işçinin işdən kənarlaşdırılması barədə əmri (sərəncamı və ya qərarı) müddətindən əvvəl ləğv etmək səlahiyyətinə malik olacaq.

## Məzuniyyət zamanı maaş azalmayacaq

Digər tərəfdən, aparılan müzakirələrdə bildirildi ki, işçilərin məzuniyyətdə olduğu müddətdə əməkhaqqı azaldıla bilməyəcək. Digər tərəfdən, komitədə aparılan müzakirələr zamanı qeyd olundu ki, işçilərin məzuniyyətdə olduğu dövrdə onların əməkhaqqı azaldıla bilməz. Layihəyə əsasən, məzuniyyət müddətində işçinin iş yeri və vəzifəsi (peşəsi) saxlanılır, habelə bu Məcəllədə nəzərdə tutulan hallarda son aldığı əməkhaqqından az olmamaqla, orta əməkhaqqı təmin edilir. Bu dövrdə işəgötürənin təşəbbüsü ilə əmək müqaviləsinin ləğvi və işçiyə intizam tənbehinin tətbiqi də yolverilməz sayılır. Məzuniyyətdə olduğu müddət əmək stajına, həmçinin ixtisas stajına daxil edilir.

Əmək məzuniyyətinə təsadüf edən iş günü hesab olunmayan bayram günləri, ümumxalq hüzn günü və səsvermə günü məzuniyyət günləri kimi nəzərə alınmır və ödənilmir. Lakin məzuniyyətin ümumi müddəti bu günlərin sayı qədər artırılır. Qurban və Ramazan bayramları digər iş günü hesab olunmayan bayramlarla üst-üstə düşdükdə və bu tarix əmək məzuniyyəti dövrünə təsadüf etdikdə, həmin üst-üstə düşən günlər bir gün kimi hesablanır.

## 46 gün məzuniyyət hüququ

Eyni zamanda layihə xüsusi xidmətləri ilə seçilən digər kateqoriyalar üzrə də 46 təqvim günlük minimum məzuniyyət hüququ müəyyənləşdirir. Bu sıraya Azərbaycanın ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi olan şəxslər; 20 Yanvar hadisələri ilə bağlı əlilliyi müəyyən edilmiş işçilər; hərbi xidmət vəzifələrinin yerinə yetirilməsi zamanı xəsarət alanlar; Çernobıl AES-də xidmətlə bağlı əlilliyi olan şəxslər; Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda aparılan döyüş əməliyyatlarında iştirak etdiyinə görə müharibə veteranı adı almış şəxslər; döyüş əməliyyatları aparılan ölkələrdə hərbi xidmət borcunu yerinə yetirmiş işçilər; habelə adıçəkilən dövlət təltiflərinin daşıyıcıları daxildir. Bu bütün kateqoriyalar üzrə əmək məzuniyyəti minimum 46 təqvim günündən az olmayacaq.

İclasda həmçinin 20 sentyabr – Dövlət Suverenliyi Gününün iş günü hesab edilən bayramlar siyahısına daxil edilməsi barədə dəyişiklik müzakirə olunub. Təklif olunan düzəlişlə həmin gün iş günü hesab edilən bayram kimi rəsmiləşdirilir və mövcud bayram günləri paketinə əlavə olunur.

Regional məsələlər komitəsinin iclasında müzakirə edilən digər yeniliklərdən biri təcrübəçilər və əcnəbi işçilərlə müddətli əmək müqaviləsi bağlanması qaydalarının genişləndirilməsi oldu. Təklif edilən dəyişikliklərə əsasən, müddətli əmək müqaviləsi imzalanmasına icazə verilən hallar artırılır. Belə ki, artıq təhsilalanların istehsalat təlimi və təcrübə keçməsi zamanı, eləcə də əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin iş icazəsi əsasında ölkədə haqqı ödənilən əmək fəaliyyətinə cəlb olunduğu hallarda tərəflər arasında müddətli əmək müqaviləsi bağlana biləcək. Bununla yanaşı, qanunvericilikdə müəyyən edilən digər xüsusi hallarda da bu mexanizmdən istifadə olunması mümkün olacaq.

## İstixana, quyu, müvəqqəti tikililər üçün də icazə

Milli Məclisin Aqrar siyasət komitəsinin iclasında “Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında” qanunun icrasından irəli gələn tələblərlə bağlı Şəhərsalma və Tikinti Məcəlləsinə dəyişikliklər müzakirə olundu.

Təklif olunan dəyişikliklərə əsasən, Azərbaycanda kənd təsərrüfatı fəaliyyəti ilə məşğul olan obyektlərin tikintisi üçün icazə verilməsi mexanizmi yenidən nəzərdən keçirilir. Layihə tikintisinə icazə tələb olunmayan obyektlərin siyahısından kənd təsərrüfatı təyinatlı tikililərin çıxarılmasını nəzərdə tutur. Bununla yanaşı, sənəddə kənd təsərrüfatı təyinatlı torpaqlarda quyuların, istixanaların, eləcə də tutumu 100 nəfərə qədər olan müvəqqəti tikililərin inşası zamanı da tikinti icazəsinin alınmasının vacibliyi xüsusi olaraq qeyd edilir.

Beləliklə, həm Regional məsələlər, həm də Aqrar siyasət komitələrində təqdim olunan dəyişikliklər paketi əmək münasibətlərindən tutmuş sosial təminat mexanizmlərinə, minimum əməkhaqqının hesablanma metodologiyasından kənd təsərrüfatı təyinatlı torpaqlarda tikinti qaydalarına qədər geniş spektri əhatə edir. Təklif olunmuş yeniliklər əmək bazarında şəffaflığı artırmağı, işçilərin sosial müdafiəsini gücləndirməyi, institusional əmək münasibətlərini beynəlxalq standartlara uyğunlaşdırmağı və həm şəhərsalma, həm kənd təsərrüfatı sektorlarında nizam-intizamı möhkəmləndirməyi hədəfləyir. Bu dəyişikliklərin qəbulu ümumi qanunvericilik sistemində daha müasir, daha sosialyönümlü və daha funksional normativ çərçivənin formalaşmasına xidmət edəcək.

***Tacir SADIQOV***
***XQ***

# Xəzərdə yeni qazma texnologiyası

**"Enersol Energy Solutions" şirkətinin portfel qurumu olan "Gordon Technologies" MMC ilk dəfə Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) üçün BƏƏ-də istehsal olunan "MudLink" texnologiyasını - qazma zamanı ölçmə (MWD) sistemlərini tədarük edib.**

Qeyd edək ki, "Gordon" Azərbaycan Dövlət Neft Şirkəti ilə birlikdə Azərbaycanda sahə sınaqlarını uğurla keçirib, texniki məsələləri həll edib. Konfiqurasiyalar optimallaşdırılıb və real istismar şəraitində MWD sistemlərinin etibarlılığı və səmərəliliyi nümayiş etdirilib.

"MudLink" platforması qazmanın səmərəliliyini artırmaq, əməliyyat xərclərini azaltmaq və mürəkkəb quyularla iş zamanı məlumatlar əsasında qərarların qəbulunu dəstəkləmək üçün nəzərdə tutulub. Bu hadisə "Enersol"un Azərbaycan bazarına çıxışıdır və BƏƏ-nin qabaqcıl enerji texnologiyalarını bütün dünyaya ixrac imkanlarının artdığını göstərir", - məlumatda deyilir.

Xəzər regionunda yeni MWD texnologiyalarının tətbiqi daha səmərəli qazma əməliyyatları üçün imkanlar açır, həmçinin regional milli neft şirkətləri ilə qlobal texnologiya innovatorları arasında əməkdaşlığın genişlənməsinə kömək edir.

"Enersol" "ADNOC Drilling Company" və "Alpha Dhabi Holding"in birgə müəssisəsidir. 2024-cü ildə "Enersol" "Gordon"dakı payını 67,2 faizə qədər artıraraq şirkətin majoritar səhmdarına



çevrilib. Qalan pay özəl investisiya şirkəti olan "Pelican Energy Partners"ə və təsisçi də daxil olmaqla "Gordon Technologies"in rəhbərliyinə məxsusdur.

***XQ***

**Qlobal iqlim dəyişmələri ilə mübarizənin müasir mərhələsində beynəlxalq münasibətlər sisteminin ən dinamik və həlledici platformasına çevrilən Tərəflər Konfransı (COP) prosesi dövlətlərin diplomatik gücünü, nüfuzunu və vasitəçilik qabiliyyətlərini nümayiş etdirdiyi qlobal arenaya çevrilmişdir. Bəşəriyyətin gələcəyini təhdid edən mövcud çağırışlar fonunda iqlim diplomatiyası ənənəvi beynəlxalq siyasətin sərhədlərini aşmaqda, Şimal və Cənub, Qərb və Şərq arasında yeni dialoq mexanizmlərinin qurulmasını şərtləndirməkdədir.**

# COP31-in geosiyasi şifrələri

## *Braziliyanın etimadı və Azərbaycanın Türkiyə seçimində həlledici rolu*

Məhz belə çətin tarixi şəraitdə Azərbaycan Respublikası COP29 sədrliyi dövründə nümayiş etdirdiyi yüksək peşəkarlıq, inklüziv yanaşma və qütblər arasında etibarlı körpü yaratmaq bacarığı sayəsində qlobal iqlim proseslərinin moderatoru statusunu qazanmışdır. Braziliyanın rəsmi sədrlik etdiyi COP30 çərçivəsində cərəyan edən proseslər və COP31-in ev sahibinin müəyyənləşdirilməsi ətrafında yaranan gərgin diplomatik vəziyyət Bakının beynəlxalq nüfuzunun əyani sübutu kimi qiymətləndirilməlidir. Avstraliya və Türkiyə kimi iki güclü namizəd arasından qardaş ölkənin seçilməsi prosesində ölkəmizin oynadığı həlledici rol və Braziliya tərəfinin məhz rəsmi Bakının təcrübəsinə istinad edərək həmin missiyanı dövlətimizə həvalə etməsi iqlim diplomatiyasında yeni reallıqların formalaşdığından xəbər verir.

Türkiyənin iqlim dəyişmələri ilə mübarizədəki rolu təkcə ev sahibliyi ambisiyası ilə məhdudlaşmır. Ankara son illərdə qlobal miqyasda rezonans doğuran bir sıra mühüm təşəbbüslərin müəllifidir. Həmin təşəbbüslər arasında Türkiyənin birinci xanımı Əminə Ərdoğanın himayəsi ilə həyata keçirilən "Sıfır tullantı" (Zero Waste) layihəsi xüsusi yer tutur. BMT səviyyəsində dəstəklənən və qlobal ekoloji hərəkata çevrilən "Sıfır tullantı" konsepsiyası tullantıların idarə olunması, resursların səmərəli istifadəsi və dairəvi iqtisadiyyatın təşviqi baxımından inqilabi əhəmiyyət kəsb edir.

Azərbaycanın iqlim diplomatiyasındakı rolu COP29-un başa çatması ilə yekunlaşmır. Əksinə, COP31 ərəfəsində və




Dünya birliyi COP29-un Bakıda keçirilməsi zamanı Azərbaycanın çoxtərəfli diplomatiyada nümayiş etdirdiyi ustalığın şahidi oldu. İnkişaf etmiş sənaye dövlətləri ilə inkişaf etməkdə olan ölkələr, ada dövlətləri ilə neft-qaz istehsalçıları arasında ortaq məxrəcin tapılması, iqlim maliyyələşməsi kimi həssas mövzularda konsensusun əldə edilməsi, rəsmi Bakının "dürüst vasitəçi" (honest broker) imicini möhkəmləndirdi. Həmin etimad kapitalı COP30-a sədrlik edən Braziliya üçün əvəzolunmaz resurs rolunu oynadı. COP31-in ev sahibliyi uğrunda gedən mübarizə, həm də geosiyasi və geoiqtisadi maraqların toqquşduğu strateji məsələ idi. "Qərbi Avropa və digərləri" qrupu daxilində namizədliyini irəli sürən Avstraliya Sakit okean regionundakı təsir imkanlarına və Qərb blokunun dəstəyinə arxalanırdı. Digər tərəfdən, Avrasiyanın mərkəzində yerləşən, G20 üzvü olan və inkişaf etməkdə olan dünyanın səsi kimi çıxış edən Türkiyə Cümhuriyyəti iqlim dəyişmələrinin ən kəskin fəsadları ilə üzləşən Aralıq dənizi hövzəsini təmsil edirdi.

Braziliya rəhbərliyinin COP31-in ev sahibinin müəyyənləşdirilməsi kimi strateji əhəmiyyətli missiyanın moderasiyasını Azərbaycana həvalə etməsi diplomatik tarixdə nadir rast gəlinən etimad nümunəsidir. Bu cür fakt Bakının qlobal Şimal ilə qlobal Cənub arasında qurduğu unikal dialoq platformasının işləkliyini təsdiqləyir. Azərbaycan diplomatiyası tərəflər arasında gərginliyi azaltmaq, namizədlərin üstünlüklərini və qlobal iqlim gündəliyinə verə biləcəkləri töhfələri obyektiv şəkildə dəyərləndirmək və ədalətli qərarın qəbuluna zəmin yaratmaq üçün bütün resurslarını səfərbər etdi.

COP31-in qardaş Türkiyədə keçirilməsi qərarı Azərbaycan üçün strateji qələbə və milli qürur mənbəyidir. Bakıdan sonra iqlim estafetinin Ankaraya ötürülməsi regionumuzun qlobal ekoloji gündəlikdəki yerini möhkəmləndirməklə yanaşı, Cənubi Qafqaz və Kiçik Asiya coğrafiyasının iqlim problemlərinin beynəlxalq ictimaiyyətin diqqət mərkəzində qalmasını təmin edəcək. Bu proses Azərbaycan və Türkiyənin qlobal humanitar və ekoloji məsələlərdə "bir millət, iki dövlət" prinsipi əsasında hərəkətdə olduğunu nümayiş etdirir. İki ölkənin iqlim diplomatiyasındakı sinerjisi regionun səsini daha gur, tələblərini isə daha kəsərli edəcəkdir. Xüsusilə nəzərə almaq lazımdır ki, həm Azərbaycan, həm də Türkiyə iqlim dəyişmələrinin mənfi təsirlərinə ən çox məruz qalan coğrafi qurşaqda yerləşir. Xəzər dənizinin səviyyəsinin azalması, buzlaqların əriməsi, su ehtiyatlarının tükənməsi və torpaqların şoranlaşması hər iki dövlət üçün ortaq çağırışlardır.

konfrans zamanı rəsmi Bakı daha fəal və təşəbbüskar mövqedən çıxış edəcək. Türkiyənin ev sahibliyi edəcəyi konfransın gündəliyinin formalaşdırılması, prioritetlərin müəyyən edilməsi və danışıqlar strategiyasının hazırlanması prosesində Azərbaycanın "Troya" (əvvəlki, hazırkı və gələcək sədr ölkələrin əməkdaşlıq formatı) çərçivəsində və ikitərəfli kanallar vasitəsilə Ankaraya dəstək verməsi gözlənilir. İki qardaş ölkənin birgə fəaliyyəti, iqlim maliyyələşməsi, texnologiya transferi və adaptasiya tədbirləri kimi inkişaf etməkdə olan ölkələr üçün mühüm əhəmiyyət daşıyan məsələlərin qlobal müzakirələrin mərkəzinə gətirilməsini təmin edəcək.

COP31-in Türkiyədə keçirilməsi, həmçinin regional enerji və nəqliyyat dəhlizlərinin "yaşıllaşdırılması" istiqamətindəki səylərə yeni təkan verəcək. Azərbaycanın təşəbbüsü ilə reallaşan "Yaşıl Enerji Dəhlizi" layihəsi Xəzər dənizinin külək enerjisi potensialının Azərbaycan və Gürcüstan vasitəsilə Türkiyəyə və oradan Avropaya nəqlini nəzərdə tutur. Ankara sammiti sözügedən meqa-layihənin siyasi və iqtisadi dəstəyinin artırılması, beynəlxalq maliyyə institutlarının prosesə cəlb edilməsi üçün ideal platforma rolunu oynayacaq. Enerji keçidi prosesində karbohidrogen resurslarından asılılığın azaldılması və bərpaolunan enerji mənbələrinin payının artırılması həm Bakının, həm də Ankaranın strateji hədəfləri sırasındadır.

Kiçik dövlətlərin qlobal problemlərin həllində böyük dövlətlərlə bərabər səviyyədə iştirak edə biləcəyini sübut edən ölkəmiz beynəlxalq münasibətlərdə ədalət prinsipinin bərqərar olmasına çalışır. Braziliyanın Azərbaycana göstərdiyi etimad və Türkiyənin seçilməsindəki həlledici rol rəsmi Bakının qlobal vasitəçi və etibarlı tərəfdaş kimi qəbul edildiyinin göstəricisidir.

COP31 regionumuzun qlobal proseslərə təsir imkanlarının genişlənməsini simvolizə edən tarixi hadisədir. Türkiyənin ev sahibliyi və Azərbaycanın strateji tərəfdaşlığı, iqlim dəyişmələri ilə mübarizədə regional həmrəyliyin və əməkdaşlığın yeni modelini ortaya qoyur. Bakı və Ankara əl-ələ verərək, gələcək nəsillər üçün daha təmiz, daha təhlükəsiz və daha dayanıqlı dünya qurmaq naminə qlobal səylərə liderlik etməyə davam edəcəklər. Braziliyanın sədrlik estafetini Türkiyəyə ötürməsi prosesində Azərbaycanın oynadığı körpü rolu ölkəmizin diplomatik tarixində qızıl hərflərlə yazılacaq və beynəlxalq aləmdəki nüfuzunu daha da yüksəklərə qaldıracaq.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

IV MƏQALƏ

# İlham Əliyev: liderin tarixi-siyasi missiyası



### “Sülh qazandıran Qələbə” strategiyası

Azərbaycan Prezidentinin bizim adlandırdığımız “Sülh qazandıran Qələbə” strategiyasının H.Kissincer anlamında liderin dünya strategiyası statusunda xüsusi anlamı vardır. Burada “dünya strategiyası” H.Kissincerin təqdim etdiyi kimi, liderin dünyada yeni düzənin formalaşmasına təsir edə biləcək potensiala və nüfuz mexanizmlərinə malik olan siyasi strateji kursa sahib olmasını ifadə edir.

Məsələn, XX əsrdə necə ki, K.Adenauer Almaniya üçün uyğun strategiyanı “barış” kimi müəyyən edərək, bütövlükdə Almaniyanın dünya nizamının formalaşmasında ciddi rol oynamasını təmin etmişdisə, eyni məntiq çərçivəsində XXI əsrdə liderin hazırladığı siyasi strategiya bu gün qlobal nizamın formalaşmasına ciddi təsir etməlidir. Yalnız bu halda XXI əsrdə liderin dünya strategiyası haqqında H.Kissincer anlamında danışa bilərik.

Deməli, Azərbaycan lideri İlham Əliyevin siyasi strategiyasının “sülh qazandıran qələbə” kimi təsnif olunmasının təməlində həmin strategiyanın müasir dünya düzəninin formalaşmasına müsbət təsirinin mövcudluğunun sübutu dayanır.

Digər məqam Cənubi Qafqazın region kimi geosiyasi özəllikləri ilə bağlıdır. Bu coğrafiyada yerləşən dövlətin başçısı və xalqın liderinin dünya miqyasında proseslərə ciddi təsirinin fərqlilikləri olmalıdır. Yəni bu təsirin həyata keçməsi mexanizmləri, onun məzmunu və maksimum təsiretmə dərəcəsi müəyyən olunmalıdır.

Nəhayət, bütövlükdə XXI əsrdə Azərbaycan ranqında bir müstəqil dövlətin dünya səviyyəsindəki geosiyasi proseslərə təsiri imkanlarının xüsusiyyətləri araşdırılmalıdır. Çünki XXI əsr əvvəlki yüzillərdən kəskin fərqlənir. Burada “böyük” və “kiçik” anlayışları, “dövlət”, “dövlətin təsir imkanları”, “dövlətin təsir imkanlarının hüdudları”, “sosial institutların siyasətdə rolu”, “sistem xarici faktorların dövlətlərarası münasibətlərə təsiri” və digər vacib faktorlar fərqli məzmun almaqdadırlar. Bu özəllik bir tərəfdən istənilən müstəqil dövlət üçün qlobal miqyasda geniş təsir imkanları açır, digər tərəfdən isə bütövlükdə proseslərin qeyri-xəttiliyi səbəbindən həm riskləri artırır, həm də rəqabəti şiddətləndirir, fərqli və bir çox hallarda ziddiyyətli xarakterə malik maraqları olan aktorlar meydana çıxırlar. Belə cür güclü və mürəkkəb rəqabət şəraitində dünya strategiyası hazırlamaq və həyata keçirmək böyük məharət tələb edir.

İndi vurğuladığımız üç xüsusiyyətin qarşılıqlı təsirləri fonunda Azərbaycan Prezidenti İlham Əliyevin siyasi strategiyasında “Sülh” və “Qələbə” anlayışlarının geosiyasi məzmununa baxaq.

### “Sülh” amili dünya strategiyası anlamında

Prezident İlham Əliyevin dünya strategiyası kontekstində “sülh” adi anlamda işlənən termin deyildir – o, konseptual anlayışdır. Yəni sülh həm dövlətin dinc-yanaşı yaşaması, digər dövlətlərlə münasibətləri əməkdaşlıq və təhlükəsizliyin vəhdətində qurmaq niyyətini, həm də buna nail olmaq üçün dönmədən, qətiyyətlə praktiki fəaliyyət göstərməsini ifadə edir. Burada “mən sülh istəyirəm” ifadəsini tez-tez işlətməyin mənası yoxdur - əsas məqam bunun üçün hansı konseptual plana və onu reallaşdırmaq mexanizmlərinə malik olmaqdan ibarətdir. Deməli, lider “sülh” anlayışına yaratdığı konsepsiyanın məzmun və məqsədinə uyğun konseptual məzmun verməlidir. Eyni zamanda, formalaşdırdığı məzmunda sülhə nail olmağın praktiki həyata keçirmək mexanizmlərini dəqiq müəyyən etməlidir.

Bunlardan başqa, İlham Əliyev üçün Azərbaycan və region kontekstində sülhlə bağlı fərqli bir məqam da mövcud idi. Bu, sülhü təmin etmək üçün öncə mövcud münaqişəni - ərazi bütövlüyünə və suverenliyə olan təcavüzü aradan qaldırmaqla bağlı idi. Bu olmasa idi, nə regional miqyasda, nə də dünya səviyyəsində ciddi təsir imkanına malik olmaq mümkün deyildi. Deməli, İlham Əliyevin XXI əsrin geosiyasi xüsusiyyətləri fonunda dünya strategiyasında “sülh” komponenti həm konseptual məzmun almalı, həm də ierarxik (pilləli) semantik struktura malik olmalı idi.

Konseptual aspekt dərin düşünülmüş nəzəri semantikanı yaratmağı, pilləli semantik struktur isə onun reallaşdırılması mərhələləri və mexanizmlərini hazırlamağı tələb edir. Bu məqamın əhatəli fəlsəfi və politoloji dərki dərin və geniş araşdırma sayəsində mümkündür. O, ayrıca tədqiq olunmalıdır. Burada bir neçə əsas məqama diqqət edək.

### “Sülh” anlayışının İlham Əliyev nümunəsi

Bu anlayışın konseptual (yəni nəzəri məzmunlaşdırılmış və mütləq surətdə sistemli xarakter daşıyan semantik mənalar şəbəkəsi) anlamının üç ideya dayağını müəyyən etmək olar.

Birincisi, ulu öndər Heydər Əliyevin liderlik məktəbinin tələblərinə ciddi əməl etmək. Bu, yeni liderə fəaliyyətdə istənilən situasiyada “Ana yol”dan çıxmamağı təmin etmək üçün lazım idi.

İkincisi, sülhün milli miqyasdan regional və sonra qlobal miqyasda qalıcı (yəni davamlı) geosiyasi mühit yaradılmasında aparıcı rol oynaması üçün milli ideyanı reallaşdırmaq (ərazi bütövlüyünün bərpası mənasında) və onu tam suverenliyin təmini ideyası ilə praktiki “qovuşdurmaq”. Bunu təmin etmənin başlıca mexanizmi isə Heydər Əliyevin “güclü dövlət quruculuğu” strategiyası kontekstində sosial, iqtisadi, mədəni güclənməni hərbi-müdafiə qüdrətini inkişaf etdirmək xətti ilə sintez etməkdən ibarət idi. Azərbaycanın güclənməsinin bütün digər istiqamətləri (və ya aspektləri) isə əsas xəttin tərkibi kimi möhtəşəm idi.

Üçüncüsü, öncədən “sülh” anlayışının konseptual anlamına xüsusi strateji məqsədin daxil edilməsi ideyası vardı. Həmin xüsusi strateji məqsəd Azərbaycan Prezidentinin “Qələbə” anlamını konseptuallaşdırması ilə bağlı idi. Burada fərqli cəhət ondan ibarətdir ki, İlham Əliyev “Qələbə” anlayışına konseptual səviyyədə zəngin məzmun verməyidir. Onun anlamı mütləq fəlsəfi yanaşma tələb edir. Çünki olduqca ümumi və eyni zamanda, konkret mənaları olan semantik çalarların sistemidir. Bunun üzərində geniş dayanaq.

### “Qələbə” dünya strategiyası səviyyəsində

Hərbi anlamda qələbənin nə olduğunu hər kəs bilir. Siyasi strategiya üçün isə bu terminin xüsusi məzmuna ehtiyacı vardır. Aydındır ki, lider kimi uğurlu olmaq istəyənlər üçün qələbə strateji məqsəddir. Burada dünya strategiyası kontekstində əhəmiyyətli olanı liderin həmin “Qələbə” terminine hansı məzmun və məqsədi vermesi ilə bağlıdır. Müqayisə üçün lider bütün dünyanı özünə tabe etməyi qələbə saya bilər. Və ya hərb meydanında məğlub etdiyi ölkəni tamamilə darmadağın edib, onu tam işğal altına almağı qələbə hesab edə bilər. Bir başqa variantda qələbə lider üçün hərbi, iqtisadi, siyasi, ideoloji ilə yanaşı, mədəni və mənəvi sferalarda qarşı tərəfi tam təsir altına almaq ola bilər və s.

Bunlardan başqa, strategiya hazırlayan lider sülhpərvərlik adı altında aqressiv və məhvedici siyasət yeridə bilər. Deməli, konseptual səviyyədə sülh və qələbə arasında konstruktiv bağlantının yaradılması asan məsələ deyildir. Bu mənada sülhü qələbə vasitəsilə qazanmaq əsl mürəkkəb nəzəri-fəlsəfi problemdir. Azərbaycan üçün sülh pilləli struktur və funksional məzmuna malik olduğundan, sülh-qələbə münasibətləri aşağıdakı triadanı ehtiva etməli idi: savaş-qələbə-sülh. Yəni öncədən qələbəni savaş meydanında əldə etməklə, növbəti mərhələdə həmin qələbənin yaratdığı imkanları sülhə çevirmək lazım gəlirdi. Bu prosesi iki psixoloji mərhələyə ayırmaq olar.

### Birinci mərhələ: savaşdan qələbəyə

Lider üçün bu mərhələ çox önəmlidir. İlham Əliyev hərb və informasiya meydanındakı savaşının (və ya mübarizəsinin) nəticəsi kimi öncədən Qalib gəlməyi görürdü. Bu qalib psixologiyası hərbin və informasiya mübarizəsinin getdiyi mərhələdə liderdə xüsusi qürur və fərəh duyğusu yaradır. Qələbə əldə olunandan sonra həmin duyğunun hansı istiqamətə yönəltmək prinsipial əhəmiyyət kəsb edir. İlham Əliyev onu düşməni tam məhv etməyə deyil, onunla sülh şəraitində qonşu olaraq yaşamaq məqsədinə yönəltdi. Bu, Azərbaycan Prezidentinin çox böyük strateji qələbəsi idi. Hərb və informasiya sferalarındakı qələbəsini aqressivliyə deyil, humanitarlığa, ideyaya, əməkdaşlıq və təhlükəsizliyə istiqamətləndirdi.

### İkinci mərhələ: qələbədən sülhə

Bu isə artıq strateji kontekstdə liderin ərazi bütövlüyü və suverenliyin tam təminindən həm qarşı tərəflə sülh şəraitində yaşamaq, həm də regional və qlobal miqyaslarda davamlı sülh mühitini formalaşdırmaq istiqamətində faydalanmaq qabiliyyətini tələb edir. Əslində, söhbət liderin elə bir sistemli və düşünülmüş fəaliyyətindən gedir ki, nəzərdə tutduğu strateji xətti dünya strategiyası səviyyəsinə yüksəldə bilsin. Problemin başlıca çətin və mürəkkəb tərəfi də bundan ibarətdir. Bir qədər geniş izah edək.

Məsələ ondan ibarətdir ki, qələbədən sonra sülhə nail olmaq xüsusi nəzəri-konseptual və geosiyasi strateji hazırlıq tələb edir. Lider milli, regional və qlobal miqyasların xüsusiyyətlərini hazırladığı strateji sistem daxilində elə nəzərə almalıdır ki, üç aspektdə uğurlu olsun.

Birincisi, baxışlar və anlayışlar sistemi olaraq məntiqi ziddiyyəti olmasın – hər bir müddəanın inandırıcı izahına varılsın.

İkincisi, siyasi-diplomatik müstəvidə nəzərdə tutulan konseptual məqamları həyata keçirmək mümkün olsun.

Üçüncüsü, Azərbaycan Prezidenti həyata keçirdiyi dünya strategiyanın legitimliyinə nail olmaq üçün, onun əsaslı və davamlı təşviqini aparmalı idi.

İlham Əliyevin siyasi strategiyası məhz bu üç aspektin mükəmməl sintezi sayəsində XXI əsrdə yeganə nümunədir. Bu tezisi əsaslandıraq. Bunun üçün “Qələbə”nin İlham Əliyevin siyasi strategiyasında tam anlamına baxaq.

### Qələbə: əməkdaşlıq və təhlükəsizlik

Məsələnin mahiyyəti hərbi zəfərdən sonra sülh-əməkdaşlıq-təhlükəsizlik vəhdətini yaratmaqla sıx bağlıdır. Çünki birincisi, Azərbaycan Prezidenti sülhə sadiqliyini sübut etməli idi. Bunun konsepsiyasını mükəmməl hazırlamışdı, qalırdı praktiki fəaliyyətdə sübuta yetirmək və müxtəlif platformalarda təşviq etmək. Qarşıya çıxan çətinlik ondan ibarət idi ki, böyük qüvvələr Azərbaycanın məhz sülhsevər olmadığını təsdiq etmək üçün min cür təxribatlara əl atırdılar. Bu da təşviqi proses olaraq qeyri-müəyyənliyə atırdı. Onun qarşısını Azərbaycan Prezidenti bir neçə üsulla müvəffəqiyyətlə aldı. Onları bir neçə istiqamətə bölmək olar.

Birincisi, hərbi qələbədən sonra Azərbaycan ordusu qarşı tərəfin ərazisinə müdaxilə etmədi. Rəsmi Bakı yalnız sərhəd zonasında hərbi təxribatları neytrallaşdırmaq üçün düşmən tərəfin bir neçə strateji mövqeyini nəzarətə götürdü. Qərbin bir sıra böyük dövlətləri nə qədər Azərbaycanı bu əsasda ittiham edib, böyük müharibə çıxarmaq istəsələr də, məhz Prezident İlham Əliyevin qətiyyətli sülhsevər mövqeyi buna imkan vermədi.

İkincisi, Azərbaycan Prezidenti qələbədən sülhə keçidi əsas götürdüyünü konseptual səviyyədə sübut etdi. Bu, İlham Əliyevin təklif etdiyi “beş baza prinsiplərdə” ifadə olundu. Həmin prinsiplər ciddi şəkildə BMT-nin Nizamnaməsinə və mövcud dövlətlərarası münasibətlərin normallaşdırılmasına aid olan hüquqi standartlara uyğundur. Bu o deməkdir ki, Azərbaycan Prezidenti hərbi qələbədən sonra sülhü qazanmaq üçün dəqiq düşünülmüş kateqorial aparata malik konsepsiya hazırlamışdır.

Beş baza prinsip artıq qarşı tərəfi və onun havadarlarını beynəlxalq hüquq müstəvisində məğlub etmək demək idi. Bu istiqamətdə də bir sıra təxribatçı cəhdlərə baxmayaraq, İlham Əliyev sülh mövqeyindən zərrə qədər də kənara çəkilmədi və istəyinə nail oldu.

Üçüncüsü, Azərbaycan lideri hərbi qələbədən sonra əməkdaşlıqla təhlükəsizliyin təmini sintezində sülhü qazanmaq nümunəsini (formulunu, modelini) ortaya qoydu. Bu məqam postmüharibə mərhələsində, ümumiyyətlə, postmünaqişə dönəminə keçmək baxımından böyük konseptual addım idi. Onun mənası nədən ibarətdir?

Hərbi münaqişədən sonra qalib tərəfin uduzana sülhü əməkdaşlıq və təhlükəsizlik təminatı ilə təklif etməsi nadir rastlanan hadisədir. Azərbaycan isə müxtəlif layihələr və nəqliyyat-logistika sferasında əməkdaşlıq təklifləri ilə Ermənistanın da milli təhlükəsizliyinin təmin olunmasını nəzərdə tutan təşəbbüslər etdi. Zəngəzur Dəhlizi onun fraqmentlərindən biridir.

Onunla yanaşı, bərpaolunan enerji, “3+3” təhlükəsizlik və əməkdaşlıq formulu, Ermənistandan keçməklə yeni kommunikasiya xətlərinin açılması təşəbbüsü, sərhədlərin delimitasiyası və demarkasiyası sayəsində bir-birinin daxili işlərinə qarışmamaq mühitinin yaradılması və digər təşəbbüslər vardı.

Bu təşəbbüslər paralel olaraq Avropa İttifaqı ilə imzalanan yeni sənədlər çərçivəsində, Şuşa Bəyannaməsinin maddələrində (regional əməkdaşlıq və təhlükəsizlik arxitekturasının qurulması), Rusiya ilə imzalanan Strateji Müttəfiqlik sənədində və başqalarında rəsmi təsbitini tapdı. Azərbaycan həmin istiqamətdə Aİnin qəbul etdiyi yeni Qlobal strategiyaya uyğun proqramlar hazırlayır və Ermənistanın daim onlarda iştirak etmək şansının olduğunu vurğulayırdı. Yeganə şərt rəsmi İrəvanın Azərbaycanla real sülh münasibətlərinə hazır olmasını təsdiq etməsindən ibarət idi.

Bütün bunlar müxtəlif hərbi və informasiya təxribatları fonunda Azərbaycan Prezidenti tərəfindən kəsintisiz və qətiyyətlə aparılırdı. Onların beynəlxalq aləm tərəfindən legitimliyinin qəbulu beş il çəkdi. 2025-ci ildə Vaşinqtonda Azərbaycan Prezidentinin dünya strategiyası faktiki olaraq etiraf edildi.

### Qələbədən sülhə: Vaşinqton razılaşması

2025-ci il avqustun 8-i Prezident İlham Əliyevin uzun illər addım-addım həyata keçirdiyi siyasi strategiyanın beynəlxalq səviyyədə legitimliyinin “final təsdiqi” oldu. Onun üç mühüm əlaməti vardır.

Birincisi, ABŞ etiraf etdi ki, Azərbaycanla Ermənistan arasında sülhün yaranmasının təməlində İlham Əliyevin müəyyən etdiyi beş baza prinsip durmalıdır. Həmin prinsiplər isə, yuxarıda vurğuladığımız kimi, hərbi qələbədən davamlı sülhə keçidin əsas konseptual mənasını ifadə edirlər.

İkincisi, Vaşinqtonda ABŞ prezidenti Zəngəzur dəhlizinin işə salınmasını regional miqyasla yanaşı, qlobal səviyyədə dünya nizamının mühüm elementi olduğunu imzası ilə təsdiq etdi. Bu, konkret olaraq dəhlizin açılmasının Uzaq Şərq-Mərkəzi Asiya-Qafqaz-Yaxın Şərq-Balkanlar-Avropa geniş geosiyasi məkanında Zəngəzur Dəhlizinin əhəmiyyətli kommunikativ, əməkdaşlıq və təhlükəsizlik elementi olaraq qəbul edilməsi demək idi. Bununla regionda sülh Zəngəzur dəhlizi vasitəsilə əməkdaşlıq və təhlükəsizlik arxitekturası ilə vəhdətdə real mənasını aldı.

Üçüncüsü, “Bir qurşaq, bir yol” layihəsinin coğrafiyası boyunca yaranan “geniş geosiyasi dəhliz”in əsas punktlarından birinin Azərbaycan olduğu qəbul edildi. Bunun konkret ifadəsi “C6+1”-in yaranması, TDT-də Azərbaycanın faktiki aparıcı rol oynaması, Bakının Yaxın Şərqdə sülh prosesində mühüm rolunun etirafı (Yaxın Şərq Sülh Sammitində İlham Əliyevin iştirakı) və son olaraq həm ABŞ, həm də Avropa İttifaqının təşəbbüs etdiyi (məsələn, Avropa İttifaqı Aİ-Türkiyə-Azərbaycan-Ermənistan əməkdaşlıq platformasını təklif etmişdir) hər bir geosiyasi konfiqurasiyada Azərbaycanın mütləq həlledici rolda nəzərə alınması kimi faktlarda əksini tapmaqdadır.

Bütün bunlar Azərbaycan liderinin siyasi strategiyasının hansı miqyasda dünya proseslərinə təsir etdiyinin faktoloji sübutudur. Onlardan yekun olaraq əhəmiyyətli qənaətə gələ bilərik.

### “Sülh qazandıran Qələbə” və “vahid geosiyasi məntiq”

Azərbaycan Prezidentinin “Sülh qazandıran Qələbə” strategiyasının dünya strategiyası kimi fərqli xüsusiyyətləri sırasında, onun vahid “geosiyasi məntiq” əsasında dinamikada və reallaşmaqda olması ilə bağlıdır. Burada “vahid geosiyasi məntiq” ifadəsinin özəl məzmunu vardır. Bu, Azərbaycan liderinin dünya strategiyasının etnomədəni və ya siyasi-ideoloji təməldə deyil, bütövlükdə bəşəriliyə aid olan “vahid geosiyasi məntiq” çərçivəsində təşəkkül etdiyi anlamını verir. Bu mənada, Qələbənin yaratdığı Sülh avtomatik olaraq regionlararası əməkdaşlıq və təhlükəsizlik platformalarını da aktuallaşdırır.

Vurğulanan kontekstdə “sülh qazandıran qələbə” strategiyasının dünya strategiyası kimi H.Kissincerin təqdim etdiyi 6 dünya strategiyasının heç birindən fərqlənir. Çünki onların heç birində qarşı tərəfi hərbi məğlub etməyi davamlı olaraq sülh qaynağına çevirmək təcrübəsi mövcud deyildir. Ənvər Sadat müharibədə məğlub kimi “transendental” strategiyanı həyata keçirdi. Əgər Misir qalib gəlsəydi, Ə.Sadatın hansı strateji seçimi edəcəyi məlum deyil. Çünki o, misirliləri müharibədə uduzmağın qaçılmaz olduğuna inandırmaqla siyasi strategiyasını həyata keçirmişdir.

Fransa müharibədə faktiki qalib gələ bilmədi, lakin Ş. de Qollun “iradə” strategiyası ilə “qalibliyi imitasiya” edə bildi. Almaniya II Dünya müharibəsində aldığı çox ciddi məğlubiyyətin mümkün fəsadlarını neytrallaşdırmaq üçün “barış” strategiyasını seçdi.

Böyük Britaniya sosial-iqtisadi staqnasiyanın keçmiş imperiyanın simasını məhv etməməsi üçün “inandırma” strategiyasına üstünlük verdi, Sinqapur isə, ümumiyyətlə, dövlət ola bilmək imkanlarına dünyanı inandırmaq üçün “üstünlük” strategiyasına önəm verdi.

Yalnız Azərbaycan Prezidenti müharibədə qalib gələrək milli, regional, regionlararası və qlobal miqyaslarda Qələbəni davamlı sülhə çevirməyin mümkünlüyü və zəruriliyini hər kəsə sübut etdi. Bu təcrübə XXI əsrdə unikaldır! Eyni zamanda, bütün bəşəriyyət üçün olduqca faydalıdır! Onu təşviq etmək bir zərurətdir!

*Füzuli QURBANOV*
*XQ-nin analitiki,*
*fəlsəfə elmləri doktoru*

# Aİ–ABŞ münasibətlərinə əsən soyuq küləklər

**(əvvəli 1-ci səhifədə)**

Gəlin, indi bir az da dərinə gedək və özümüzə daha konkret sual verək: ABŞ-ın bu proteksionist kursu niyə Avropada həyəcan doğurur? Çünki Vaşinqton son iki ildə açıq şəkildə "Amerika Birinci 2.0" modelinə qayıdıb. Strategiyanın zərbəsi isə birbaşa Avropaya dəyir. Aİ şirkətləri ABŞ-a köçməsə, rəqabətə tab gətirə bilməyəcək. Brüssel bu vəziyyəti heç nə gizlətmədən belə adlandırır: "De-fakto ticarət müharibəsi – sadəcə, sanksiya və ya tarifsiz versiya".

Yeni ABŞ administrasiyası Avropa poladına və alüminiumuna əlavə tarifləri bərpa etməyə hazırlaşır. Əgər strateji tərəfdaşların münasibətləri belə davam edirsə, o zaman rəqiblər arasında fərq nədir? Avropada narazılığın səviyyəsi də elə burdan doğur. Avrozonada "sənaye boşalması" qorxusu var. Almaniya və Fransa 2024–2025-ci illərdə açıq şəkildə etiraf etdilər ki ABŞ subsidiyaları Avropa sənaye sisteminin dayaqlarını zəiflədir. Yəni avrozonanın avtomobil sektoru, yaşıl texnologiyalar, çip və material istehsalı real şəkildə ABŞ-a axır. Avropa liderləri isə sanki eyni sualı təkrarlayırlar: Əgər hər iki tərəf eyni demokratik dəyərləri müdafiə edirsə, niyə iqtisadi siyasətlər bu qədər zidd istiqamətə gedir?

Belə bir gərginlik Aİ-ni qaçılmaz sual qarşısında qoyur: Yeni tərəfdaşlar axtarmaq nə qədər zəruridir və Brüssel bu istiqamətdə hansı marşrutu seçir? Cavab çoxqatlıdır; hər regionun Brüssel üçün fərqli məqsədi və məntiqi var.

İlk olaraq, Çin həm böyük bazardır, həm strateji rəqib, həm də xammal və istehsal mərkəzidir. Brüssel üçün əsas məsələ budur – Çini kəsib atmaq imkansızdır, amma ona tam güvənmək də təhlükəlidir. Aİ Pekinlə dialoqu saxlayır, ticarəti qoruyur, amma eyni zamanda iqtisadi diversifikasiyanı sürətləndirir. Yəni Çin tərəfdaşdır, amma "risklə idarə olunan" tərəfdaş.

Hindistan artıq Avropanın texnoloji və istehsal tərəfdaşına çevrilir. Brüssel üçün Hindistanın məntiqi ucuz və möhkəm istehsal gücü, ABŞ-la münasibətdə əyani balans mövqeyi, investisiya və texnologiya mübadiləsi üçün perspektivdir.

Sinqapur, Vyetnam, İndoneziya və sair ölkələr Avropanın "istehsalın uzaq filialları" kimi deyil, davamlı və strateji tərəfdaş kimi görünür. Səbəbi isə işçi qüvvəsi və istehsal imkanları, coğrafi yaxınlıq (Asiya bazarına giriş) və ABŞ–Çin gərginliyindən siyasi baxımdan daha neytral mövqedir.

Enerji təhlükəsizliyi ilə bağlı problemlər Avropanı Körfəz ölkələrinə daha yaxınlaşdırdı. Birləşmiş Ərəb Əmirlikləri, Səudiyyə Ərəbistanı, Qətər həm enerji, həm investisiya, həm də sənaye layihələri üçün strateji tərəfdaşdır.

Afrikaya gəldikdə isə qitə Avropa üçün strateji xammal mənbəyi, yeni istehsal zonası və geosiyasi təsir üçün genişlənən meydandır. Qlobal rəqabətin sərtləşdiyi bir vaxtda Brüsselin Afrikaya yönələn diqqəti, əslində, Avropanın öz enerji və sənaye təhlükəsizliyini bərpa etmək cəhdidir.



Xüsusilə, yaşıl keçid üçün lazım olan nadir metalların 70–80 faizinin Afrika mənşəli olması Avropanı bu bazara daha həssas şəkildə bağlayır. Çin bu mənbələrdə hegemonluğunu qurduğu üçün Aİ-nin mövcud istiqamətdəki aktivliyi həm iqtisadi, həm də geosiyasi xarakter daşıyır: məsələ alternativ təsir zolağı formalaşdırmaqdır. Brüssel öz yeni strategiyasını açıq şəkildə iki xətt üzərində qurur: investisiya ilə təsir yaratmaq və siyasi dialoqla etibar qazanmaq. Avropa rəsmiləri anlayır ki, artıq köhnə "donor–benefisiar" modeli işləmir; Afrika ölkələri özlərini böyük güclərin rəqabət meydanında aktiv geoiqtisadi oyunçu kimi təqdim edir. Məhz bu səbəbdən Avropanın Afrika siyasəti daha çox "tərəfdaşlıq dili"nə keçir, lakin bu yumşaq ritorikanın arxasında sərt strateji ehtiyaclar dayanır: enerji marşrutlarının şaxələndirilməsi, xammal risklərinin azaldılması və ABŞ–Çin qarşıdurmasında özünə yeni manevr sahəsi açmaq.

Belə bir müxtəlif portfel Avropaya nə qədər dayanıqlıq verəcək və uzun müddətdə Brüsselin siyasi prioritetlərini dəyişdirəcəkmi? Cavabın zamana ehtiyacı var, amma indidən görünən budur ki, Aİ artıq təkyönlü iqtisadi xətt istəmir.

Brüsselin yeni tərəfdaşlara yönəlməsi ilk baxışdan çox sərfəli görünə bilər. Avropa iqtisadiyyatının ABŞ proteksionizminin yaratdığı boşluğu doldurmaq üçün çevik bazarlara açılması məntiqli addımdır. Amma məsələ bununla bitmir; hər yeni istiqamət Avropanın öz daxilində də bir gərginlik yaradır. Həqiqət budur ki, Aİ-nin hazırkı strategiyası həm fürsətlər, həm də risklərlə dolu bir labirintə bənzəyir və bu labirintdən necə çıxılacağı indidən bəlli deyil.

Yeni tərəfdaşlıq xətti Brüsselə itirdiyi gücü qismən geri qaytarmaq şansı verir. Tədarük zəncirinin diversifikasiyası, müxtəlif iqtisadi mərkəzlərlə dialoqların genişlənməsi və ABŞ-ın sənaye treki ilə rəqabət aparmaq qabiliyyəti Avropaya yeni nəfəs gətirir.

Amma bu dinamikanın digər tərəfi daha mürəkkəbdir. İqtisadi sərbəstlik artırsa da, siyasi koordinasiya zəifləyə bilər. Çünki ABŞ bu diversifikasiyanı strateji məsafələnmə siqnalı kimi də qavraya bilər. Belə bir siqnal qorunan Transatlantik səddə zamanla xırda çatlar sala bilər. Çatların nə vaxt və harada böyüyəcəyi bilinmir, amma riskin özü realdır.

Brüsselin üzləşdiyi başqa bir dilemma da yeni tərəfdaşların hamısının eyni dəyərlər sistemi üzərində qurulmamasıdır. Avropa insan hüquqları və iqlim standartlarını universal prinsiplər kimi qəbul edir, amma Körfəz kapitalı, Hindistanın istehsal modeli və Cənub-Şərqi Asiya Ölkələri Assosiasiyası (ASEAN) ölkələrinin iqtisadi strukturları bəzən bu prinsiplərlə ziddiyyətə girir. Brüssel kompromisə nə qədər gedə bilər?

Bütün bunlara paralel olaraq Avropanın öz içində də parçalanmalar yayılır. Əgər Almaniya sənaye dözümlülüyünü qorumaq üçün Çinlə daha yaxın münasibət axtarırsa, Baltikyanı ölkələr bunu geosiyasi risk kimi görür. Əgər Fransa strateji avtonomiyanı genişləndirmək istəyirsə, Şərqi Avropa ölkələri ABŞ təhlükəsizlik zəmanətlərinin əhəmiyyətini xatırladır. Aİ-nin yeni tərəfdaş xəritəsi, bir növ, güzgü kimi fəaliyyət göstərir: hər ölkə bu güzgüdə öz marağını, öz qorxusunu və öz prioritetini görür.

Avropa bu çoxşaxəli yanaşmanı strateji vahidliyə çevirə biləcəkmi? Yoxsa diversifikasiya adı ilə yeni asılılıqlar yaranacaq? ABŞ-dan uzaqlaşmaqla Avropa daha sərbəst olur, amma daha sərbəst olduqca, daha çox öhdəlik götürür.

Məhz bu səbəbdən Aİ-nin hazırkı cəhdi həm yenilənən güc, həm də zəiflikləri ortaya çıxarır. Qazanc var, amma qazanc balanslıdır; itki yoxdur demək isə mümkün deyil. Strateji boşluq məhz bu qeyri-müəyyənlikdən yaranır: Brüssel özünü ABŞ-dan iqtisadi baxımdan qoparmasa da, artıq tək bir mərkəzə bağlanmağın təhlükəli olduğunu qəbul edib və yeni şəbəkələr qurur, lakin bu şəbəkələrin sabitliyi hələ sınanmayıb.



Digər tərəfdən, ABŞ da Avropanın bu yeni istiqamətini diqqətlə izləyir. Vaşinqtonun narahatlığı ondan ibarətdir ki, Avropanın Çin və digər mərkəzlərlə genişlənən münasibətləri Transatlantik texnoloji və təhlükəsizlik arxitekturasını zəiflədə bilər. Hazırkı narahatlıq xüsusilə kritik texnologiyalar – yarımkeçiricilər, süni intellekt, yaşıl enerji infrastrukturu sahəsində özünü göstərir. ABŞ Avropanın tam şəkildə Çinlə iqtisadi paralellər qurmasını qəbuledilməz hesab edir, Avropa isə Vaşinqtonun buna açıq və ya gizli təzyiqlər göstərdiyini düşünür.

Maraqlıdır ki, Transatlantik münasibətlərin gələcəyi böyük ölçüdə qlobal iqtisadi düzənin hansı trayektoriyanı seçəcəyindən asılı olacaq. Dünya çoxqütblü sistemə doğru getdikcə Avropanın yeni tərəfdaşlara ehtiyacı artacaq. Maraqlıdır, Avropa yeni tərəfdaşlar tapdıqca ABŞ-la münasibətləri necə dəyişəcək: rəqabətə çevriləcək, yoxsa yenidən tarazlaşdırılmış qarşılıqlı asılılıq modelinə qayıdacaq?

Hazırkı mənzərə onu göstərir ki, Avropa nə ABŞ-dan qopa, nə də yalnız Çin istiqamətinə meyil edə bilər. Elə bu səbəbdən Avropa üçün ən realist ssenari çoxistiqamətli, riskləri paylayan, fərqli güc mərkəzləri ilə paralel əməkdaşlıq modelidir. Bunun uğurlu olub-olmayacağını isə həm qlobal güc balansının dəyişmə sürəti, həm də Avropanın daxili siyasi birliyinin davamlılığı müəyyən edəcək.

*Şəbnəm ZEYNALOVA,*
*XQ-nin siyasi analitiki,*
*siyasi elmlər üzrə fəlsəfə doktoru*

# Mogerini–Borel tandeminin ifşası

**(əvvəli 1-ci səhifədə)**

## Borelə ən yaxın fiqur

Aİ-nin xarici siyasətinə rəhbərlik etmiş şəxsin – Federika Mogerininin adının korrupsiya şəbəkəsində hallanması sadəcə, fərdi olay deyil. Onun xələfi, həmçinin 2019-2024-cü illərdə Avropa Komissiyasının vitse-prezidenti vəzifəsini daşımış Jozep Borrellə illərdir yaxın münasibətdə olması məsələyə tamamilə yeni rakurs gətirir. Şübhə yoxdur ki, Mogerininin atdığı istənilən addım, qurduğu istənilən əlaqə Borelin kabinetinin diqqətində olub. Bu baxımdan baş verənlərin yalnız Mogerininin üzərinə yüklənməsi sadəcə siyasi imitasiya təsiri yaradır. Reallıq budur ki, Borelin özü də bu proseslərdən kənarda qala bilməz. Onun fəaliyyəti, təsir dairəsi, Avropa diplomatiyasına yön verdiyi illər boyunca yaratdığı qapalı dairələr ciddi şəkildə araşdırılmalıdır. Çünki Aİ-nin xarici siyasət strukturunda illərlə formalaşmış "toxunulmazlar klanı" məhz bu tandem ətrafında möhkəmlənib.

## Eva Kayli işi – Avropa Parlamentinin sarsıldığı gün

2022-ci ildə Avropa Parlamentinin sədr müavini Eva Kaylinin cinayət işi Brüsseli bəlkə də son onilliklərin ən böyük şokuna salmışdı. Qətərin "yumşaq diplomatiya" adı altında apardığı, lakin əslində klassik rüşvət mexanizmlərinə söykənən fəaliyyətin içində Avropa Parlamenti deputatlarının olması məsələni xüsusilə ağırlaşdırmışdı. Kaylinin evindən çıxan böyük məbləğdə nağd pullar Aİ strukturlarının illərlə gizlətməyə çalışdıqları ikiüzlülüyü aşkar surətdə göstərdi: başqalarına "demokratiya dərsi" keçən qurum öz içində korrupsiyanı ən primitiv formada yaşayırmış.

## Roberta Metsola – sözlə əməl arasında ziddiyyət

Avropa Parlamentinə 2022-ci ildən rəhbərlik edən Roberta Metsolanın dəfələrlə açıqladığı islahat niyyəti, "tam şəffaflıq" addımları da, əslində, yalnız ictimai narazılığı yumşaltmaq məqsədi daşıyır. Onun adı birbaşa rüşvət mexanizmlərində keçməsə də, ortaya çıxan sənədlər və maraqlar toqquşması ilə bağlı suallar Metsolanın özünü də ciddi şəkildə kölgəyə salır. Avropa Parlamentində lobbiçilik qruplarının necə sərbəst hərəkət etməsi, deputatların hansı miqyasda təsərrüfat maraqları daşıması Metsolanın rəhbərliyi dövründə daha qabarıq görünməyə başlayıb.



Qeydə alınan digər qalmaqallar problemin sistemli olduğunu göstərir

Aİ tarixində korrupsiya qalmaqalları bununla bitmir. Artıq Brüsselin siyasi kulislərində hamı bilir ki, problem struktur xarakterlidir. İllər əvvəl Aİ Komissiyasının Kolleci (College of Europe) bütövlükdə istefaya məcbur edilmişdi. Büdcə vəsaitlərinin mənimsənilməsi, qeyri-şəffaf tenderlər, lobbiçilərin təsir dairəsi və yüksək səviyyəli şəxsi maraqlar Aİ Şurası, Aİ Komissiyası və Avropa Parlamenti arasında gizli əməkdaşlıq atmosferi yaradıb. Həmçinin digər nümunələr – avroskeptiklərin tez-tez istinad etdikləri Frans Herman işi, Aİ fondlarının Balkanlarda talanması, müxtəlif QHT-lər üzərindən çevrilən milyonlar – hamısı göstərir ki, problem fərdi deyil, sistemlidir.

Polis reydləri, diplomatik toxunulmazlıqların qaldırılması və Avropa diplomatik aparatının mərkəzi simalarının dindirilməsi Brüsselin illərdir qorumağa çalışdığı reputasiyanın kökündən sarsıldığını göstərir. "Qoca qitə"nin ən yüksək səviyyəli diplomatik qurumlarında bu cür pozuntuların üzə çıxması institutların özlərinin yaratdıqları qaydaları tətbiq etməkdə belə aciz qaldığını nümayiş etdirir. Nəticədə Aİ idarəçiliyinin "müəyyən olunmuş qaydalarla, şəffaf və məsuliyyətli şəkildə" fəaliyyət göstərdiyi təsəvvürü sıradan çıxır.

Yeri gəlmişkən, Belçika polisinin Brüsseldə Aİ qurumlarında korrupsiya, mənimsəmə və digər şübhəli məqamlarla bağlı apardığı axtarışlar korrupsiyanın ən dərin qatları qədər endiyini təsdiqləyir. Məsələn, Avropa Kolleci uzun illər diplomatiyanın mənəvi və intellektual mərkəzi kimi göstərilirdi, lakin tender məlumatlarının əvvəlcədən ötürülməsi ilə bağlı iddialar bu imici ciddi şəkildə zədələdi. Hadisənin mahiyyəti sübut etdi ki, Brüssel institusional idarəetmə və nəzarət mexanizmlərindən tutmuş etik sisteminə qədər hər sahədə böhran yaşayır. Özünü şəffaflıq modeli kimi təqdim edən qurumun diplomatik akademiya layihəsində üzə çıxanlar əsl reallığı nümayiş etdirir. Bir məqamı da xatırladaq ki, tender prosesinin hələ rəsmiləşməmiş mərhələlərində məxfi məlumatların paylaşılması Avropa bürokratiyasının çoxdan formalaşmış qapalı strukturundan qaynaqlanır. Yaxın keçmişə nəzər salsaq görərik ki, əslində problem yeni deyil. Sadəcə illərdir davam edən praktika bu dəfə hüquqi çərçivədə ifşa edilib. Beləliklə Avropanın özünü legitimləşdirdiyi "normativ güc" doktrinası əsaslı şəkildə sual altında qalıb.

*

Aİ strukturlarının digər ölkələri şəffaflıq, hesabatlılıq və korrupsiyaya qarşı mübarizə adı ilə illərdir tənqid etməsi fonunda bu hadisənin baş verməsi ayrıca ironiya yaradır. Xüsusən də nəzərə alsaq ki, Avropa qurumları uzun müddət Azərbaycanı eyni ittihamlarla hədəfə almışdılar. Əslində isə Avropa Parlamentinin və bəzi Qərb institutlarının ölkəmizlə bağlı açıqlamalarının böyük hissəsi selektiv yanaşmanın məhsulu idi. Onların mövqeləri çox zaman siyasi təzyiq aləti kimi istifadə olunur, korrupsiya ritorikası geosiyasi məqsədlərə yönəldilir, ikili standartlara gəlincə, onlar institusional davranış normalarına çevrilirdi. İndi həmin qurumların rəhbər şəxslərinin özləri tender pozuntusu və məxfi məlumat ötürülməsi şübhəsi ilə gündəmə gəlirlər. Yəqin, tarixin paradoksu da elə budur.

Brüsselin yaşadığı reputasiya böhranı sadəcə müəyyən şəxslərin davranışı ilə izah edilə bilməz. Məsələ bütövlükdə, Aİ-nin idarəçilik arxitekturası ilə bağlıdır. Son illərdə Avropa bürokratiyası daha çox mərkəzləşmiş, daha qapalı və daha az hesabatlı struktura çevrilib. Siyasi qərarların dar çərçivədə formalaşması, nəzarət mexanizmlərinin formal xarakter daşıması və institusional məsuliyyətin kağız üzərində qalması nəticəsində şəffaflıq azalır, tender və layihələr qapalı dairələrin nəzarətinə keçir, hüquqi nəzarət mexanizmləri isə simvolik rol oynayır. Ona görə qalmaqalın Aİ diplomatiyasının gələcəyinə də təsiri qaçılmazdır. Qurumun qlobal arenada özünü təqdimetmə imkanlarının zəifləməsi də həmçinin.

İttifaqın əsas problemi odur ki, uzun illər boyunca başqalarına təklif etdiyi siyasi model daxildən çürüyüb. Yəni Avropa hazırda heç kimi tənqid edəcək mövqedə deyil. Necə deyərlər, öz gözündə tiri görmür, başqasında çöp axtarır. Beləcə, aydın olur ki, Brüsselin legitimlik iddiası illərlə formalaşdırdığı özünütəsdiq mexanizminə söykənirmiş. Mexanizm sarsılıb və Avropa ilk dəfə öz dəyərlər sisteminə real şəkildə cavab vermək məcburiyyətində qalıb.

Bəli, istintaqa cəlb olunan şəxslərin statusu, daşıdıqları vəzifələr və təmsil etdikləri qurumlar idarəetmədə ciddi boşluqların olduğunu bir daha sübut edir. Boşluqların siyasi mahiyyəti də önəmlidir. Avropa geosiyasi rəqabətdə özünü normativ mərkəz kimi təqdim etdikcə, sərt etik tələbləri başqalarına yönəltdikcə, öz daxilindəki problemləri görmək qabiliyyətini itirib. Hətta qurumun artıq uçurumun kənarında dayandığını söyləyə bilərik. Bu gün Avropanın illərdir korrupsiya ittihamı ilə hədəf aldığı dövlətlər indi həmin ittihamları Aİ-yə geri qaytarmaq üçün heç bir cəhd göstərməyə ehtiyac duymur. Çünki Brüsselin yaratdığı mənzərə bunun üçün kifayətdir.

*Nəzrin ELDARQIZI*
*XQ*

### *Ekspert rəyi*

**Yusif BAĞIRZADƏ,**
**politoloq**



Belçikada aparılan polis reydləri və istintaq çərçivəsində keçmiş diplomatiya rəhbərləri və Avropa Birliyi strukturlarında yüksək vəzifələrdə olmuş şəxslərin saxlanması Avropada korrupsiya ilə bağlı uzun müddətdir mövcud olan narahatlıqları yenidən üzə çıxardı. Belə ki, Avropa İttifaqının kriminal maliyyə pozuntularını araşdıran müstəqil prokurorluq qurumu olan EPPO, Avropa İttifaqının "xarici siyasət və diplomatiya" xidməti olan EEAS və Avropanın ən nüfuzlu və ən qədim Avropa İnteqrasiya və Diplomatiya Məktəbi hesab olunan "College of Europe" arasında keçirilmiş tender üzrə şübhələr irəli sürüb. Təqsirləndirilən qurum 2021–2022-ci illərdə gənc diplomatlardan ibarət "EU Diplomatic Academy" adlı təhsil-proqramının icrası üçün tender qazanmışdı. Araşdırmalar nəticəsində məlum olub ki, tender prosedurlarında rəqabətin bərabərliyi, məlumatların qapalı saxlanması və ədalətli seçim prinsipi pozulub. Federika Mogerini və Stefano Sannino kimi yüksək səviyyəli fiqurların bu cür ittihamlarla üzləşmələri şübhəsiz ki, Avropanın institusional sistemində struktur və prosedur problemlərinin olduğunu göstərir. Belə hallar, fond və təqaüdlərin paylanması, tender prosesləri kimi sahələrdə özünə yaxın olan şəxslərə və təşkilatlara üstünlük verilməsinə dair haqlı suallar doğurur.

Onu da qeyd edək ki, haqqında danışılan məsələ yeganə korrupsiya faktı deyil. Avropa İttifaqı çox vaxt yüksək şəffaflıq və hüquqi mədəniyyət nümunəsi kimi təqdim olunsa da, son illərdə üzə çıxan müxtəlif korrupsiya halları göstərir ki, Aİ institutları və üzv ölkələrdə maliyyə və idarəetmə sistemləri müəyyən risklərdən tam sığortalanmayıb.

# Paşinyan–Qaregin savaşına separatçılar da qoşuldular

## *Yepiskop Vrtanes Abramyan niyə hədəfə alınıb?*

**Başlarına gələnlərə görə zaman-zaman gah Rusiyanı, gah Fransanı, gah ABŞ-ı, gah da Nikol Paşinyan iqtidarını və beynəlxalq təşkilatları, bir sözlə, özlərindən başqa hamını ittiham edən, hər kəsin onlara borclu olduğu düşüncəsi ilə yaşayan Ermənistanda məskunlaşmış Qarabağ separatçıları indi də Erməni Apostol Kilsəsinin "Artsax yeparxiyası"nın rəhbəri, yepiskop Vrtanes Abramyana qəzəbləniblər. Buna səbəb V.Abramyanın 1999-cu ildə keçirilən saxta seçkilər vasitəsilə bütün ermənilərin patriarxı titulunu əldə etmiş, subaylıq andını pozmaqla qeyri-legitimlik statusuna yiyələnmiş II Qareginə qarşı apardığı mübarizədə N.Paşinyanı dəstəkləməsidir.**

Yepiskop V.Abramyan noyabrın 27-də bir qrup din xadiminin baş nazirlə görüşündə iştirak edib. Həmçinin noyabrın 29-da katolikosdan istefa verməyi və patriarx postuna seçkilər keçirilməsinə şərait yaratmağı tələb edən 10 iyerarxdan biridir. Bu məqam da separatçıların xoşuna gəlməyib. Onların düşüncəsinə görə, Abramyan Eçmiədzin ana taxtını zəbt etmiş qeyri-legitim katolikosu dəstəkləməli imiş. Separatçılar bu günlərdə "Artsax yeparxiya idarəsi"nin qarşısında toplaşaraq V.Abramyanla görüş tələb ediblər.

Qarabağdan olan vəkil Roman Yeritsyan jurnalistlərə açıqlamasında deyib: "Yəqin ki, siz hamınız Ermənistan Baş nazirinin səhifəsində yerləşdirilmiş "Artsax xalqı" (?) arasında böyük ağrı və qəzəbə səbəb olan videorolikə diqqət yetirmisiniz. "Artsax yeparxiyası"nın rəhbəri "Artsax xalqı"nın və ümumiyyətlə Ermənistan Baş nazirinin əlini sıxıb və onun hüzurunda başını əyib. Bu gün mən bir "artsaxlı" olaraq Vrtaneslə danışmaq və onun davranışının səbəbini anlamaq üçün buradayam".

Yeritsyan iddia edib ki, Paşinyan katolikosa qarşı kampaniyanı sonuncunun İsveçrədə "artsaxlıların və hərbi əsirlərin" qaytarılması məsələsini qaldırmasından sonra başlayıb: "Artsax yeparxiyası rəhbərinin Ermənistan Baş nazirinə hörmət göstərməyi özünə necə rəva gördüyü çox maraqlıdır".

"Artsax yeparxiya şurası" isə bəyanat yayaraq yepiskopun addımları barədə məlumatlandırılmadığını bildirib. Yayılan mətndə bildirilib ki, bu, vahid yeparxiya mövqeyindən və ya daxili müzakirələrdən qaynaqlanmayıb: "Artsax" sakinlərinin çoxu bu hərəkətlərə etiraz, qəzəb və inamsızlıqla reaksiya verib. Şura üzvləri Abramyanla görüş zamanı onu dinləyib və onun baxışlarını bölüşmədiklərini bildiriblər. Biz "xalqın" maraqlarını qorumağa və kilsə qaydalarına riayət etməyə sadiq qalırıq. Gələcək addımların və qərarların qarşılıqlı hörmət, razılaşma və icmadaxili birlik əsasında atılmasının vacib olduğuna inanırıq".

"Hraparak" qəzetinin yaydığı məlumatda isə bildirilib ki, Lernik Ovannisyan və keçmiş qondarma separatçı rejim "xarici işlər naziri" Karen Mirzoyanın rəhbərlik etdiyi "Artsax yeparxiyası"nın yeparxiya şurası yepiskop Vrtanesin mənəvi rəhbərliyini rədd etmək və onunla bağlı tədbir görməsini tələb etmək üçün II Qareginə müraciət edəcək.



Keçmiş qondarma separatçı rejimin sonuncu "qlavarı" Samvel Şahramanyan isə yepiskop Vrtanes haqqında tələsik nəticə çıxarmaq və ya müxtəlif şərhlər vermək istəmir. "Biz hamımız mövcud hökumətlə kilsə arasında qarşıdurmanın şahidi oluruq. Məncə, bu, ictimai müzakirə mövzusu olmamalı idi. Bütün məsələlər geniş ictimaiyyət nümayəndələrinin iştirakı olmadan bağlı qapılar arxasında həll edilməli idi", – deyə o, jurnalistlərlə söhbətində bildirib.

Şahramanyan qeyd edib ki, hadisələrin gələcək inkişafını gözləyəcək və onlardan asılı olaraq öz mövqeyini bildirəcək. O, yepiskop Vrtaneslə görüşdüyünü də bildirib: "Mən onun səbəblərini dinlədim. Məni əsasən bir sual maraqlandırırdı: bu görüş katolikosla razılaşdırılıbmı? Mənfi cavab aldım və buna əsasən nəticə çıxardım".

Yepiskop Vrtanes isə yaydığı açıqlamada noyabrın 27-də Paşinyanla görüşdə Eçmiədzin yepiskoplar komitəsinin üzvü kimi iştirak etdiyini və "Artsax məsələsi" ilə əlaqəli olmadığını aydınlaşdırıb.

Bu arada Erməni Apostol Kilsəsinin rəhbərinin İsveçrə və Fransaya səfər etdiyi məlum olub. Eçmiədzin ana taxtının mətbuat xidməti katolikos II Qareginin İsveçrəyə səfərinin 1 gün davam edəcəyini bildirib. Daha sonra katolikos Marselə 2 günlük səfər edəcək. II Qaregini səfərdə Eçmiədzini təmsil edən 4 din xadimi müşayiət edir.

*

Beləliklə, kilsə ilə Paşinyan hökuməti arasındakı gərginliyə Qarabağdan getmiş separatçıların da qoşulması Ermənistan daxilindəki ziddiyyətlərin çoxqatlı xarakterini bir daha üzə çıxarır. Separatçıların yepiskop Vrtanesə yönələn qəzəbinin arxasında illərlə "Artsax" adı altında özlərinə paralel siyasi-dini model quran separatçı quruluşun dağılmasının yaratdığı psixoloji böhran dayanır.

Qarabağdan olan vəkil Roman Yeritsyanın emosional açıqlaması bunun bariz nümunəsidir. Vəkil deyir ki, "Artsax xalqı"nın başına gələnlərdən sonra onların din xadiminin Paşinyanın əlini sıxması "ağrı və qəzəb yaradır". Bu cümlənin özündə belə separatçı təbəqənin hələ də əvvəlki düşüncə tərzindən qopmadığı aydın görünür. Yeritsyan həmçinin iddia edir ki, Paşinyanın katolikosu hədəfə alması guya, İsveçrədə "artsaxlıların və hərbi əsirlərin taleyi" məsələsinin qaldırılmasına cavabdır. Əslində, bu arqument daha çox öz auditoriyasına ünvanlanmış daxili təbliğat tezislərindən uzağa getmir.

"Artsax yeparxiya şurası"nın yayımladığı bəyanat isə separatçıların kilsə üzərində nəzarəti itirmək qorxusunu açıq əks etdirir. Şura Abramyanın addımlarından xəbərsiz olduqlarını desə də, bu bəyanat daha çox hadisədən özlərini kənarda göstərmək cəhdi təsiri bağışlayır. Çünki şura üzvlərinin "xalqın gözləntiləri" ifadəsi artıq mövcud olmayan separatçı qurumun, necə deyərlər, simvolik dilinin yenidən dirçəldilməsinin göstəricisidir.

Samvel Şahramanyanın ehtiyatlı açıqlaması isə daha fərqli motivləri işarə edir. O, prosesin ictimai müzakirə mövzusu olmamalı olduğunu deyərək əslində, separatçı dairələrin əvvəlki kimi "qapalı mexanizmlərlə" qərar vermək vərdişinin davam etdiyini göstərir. Şahramanyan Abramyanın katolikosla görüşü razılaşdırmadığını öyrənəndə "nəticə çıxardığını" bildirir. Bu, onun da kilsə daxilində yeni güc bölgüsünü izlədiyini göstərir.

Abramyan isə öz açıqlamasında görüşün "Artsax məsələsi" ilə bağlı olmadığını, Eçmiədzin yepiskoplar komitəsinin üzvü kimi iştirak etdiyini deyərək məsələyə nöqtə qoymağa çalışıb. Lakin görünən odur ki, Ermənistanda kilsə-hakimiyyət gərginliyi daha da genişlənir və separatçı dairələr bu gərginlikdən özləri üçün yeni təsir aləti yaratmaq istəyirlər. II Qareginin İsveçrə və Fransaya səfəri isə kilsənin Paşinyanla açıq qarşıdurma fonunda beynəlxalq dairələrlə təmaslarını artırmaq cəhdi kimi görünür. Katolikosun bu səfərləri həm daxili, həm də xarici dəstək axtarışının elementidir.

**"Qafqaz tarixi" Mərkəzinin rəhbəri, siyasi şərhçi Rizvan Hüseynov** XQ-yə açıqlamasında bildirdi ki, separatçı dairələrin V.Abramyana yönəlmiş qəzəbi



siyasi proseslərə dini çalarlar qatılmasının yeni mərhələsidir. Onun sözlərinə görə, separatçı şəbəkə Ermənistan daxilindəki mövqelərini tam itirdiyi üçün artıq kilsə strukturlarını təsir rıçağı kimi görməyə başlayıb: "Onların kilsə daxilində II Qaregin əleyhinə mübarizəni siyasiləşdirməsi də təsadüfi deyil. Məqsəd Eçmiədzin vasitəsilə yenidən legitimlik qazanmaqdır".

R.Hüseynov onu da bildirdi ki, hazırda Ermənistan daxilində kilsə-hakimiyyət qarşıdurması təkcə ideoloji mübahisə deyil, həm də güc mərkəzləri arasında nüfuz savaşına çevrilib: "Paşinyan kilsə üzərində nəzarəti gücləndirməyə çalışır, kilsə isə siyasi təzyiqdən sıyrılmaq üçün beynəlxalq dayaqlar axtarır. Separatçı qrupların bu prosesə qoşulması isə gərginliyi daha da dərinləşdirəcək. Mövcud situasiya göstərir ki, dini institutlar yaxın aylarda Ermənistanın daxili siyasi gündəminin əsas oyunçularından biri olacaq".

*Səxavət HƏMİD*
*XQ*

# Erməni liderlərin nağılları ölkəyə fəlakət gətirib

## *Acı həqiqətlərin gizlədilməsi isə hakimiyyəti möhkəmləndirməyə xidmət edib*

**Ermənistan hökuməti "Qarabağ münaqişəsinin tənzimlənməsi üzrə danışıqlar prosesi sənədləri"ni dərc edib. Materiallar arasında 2016-cı ilin 5 avqustunda Serj Sarkisyanın Rusiya prezidenti Vladimir Putinə yazdığı məktub da yer alıb. Məktub Azərbaycan–Ermənistan liderləri arasında Vyana və Sankt-Peterburqda keçirilmiş danışıqlardan sonra yazılıb. Yada salaq ki, bu görüşlərdən sonra Rusiya xarici işlər naziri Sergey Lavrov yenilənmiş həll planını təqdim etmişdi və Sarkisyanın həmin plana reaksiyası məktubda öz əksini tapıb.**



Sarkisyan məktubda Aprel döyüşlərinin bölgədəki hərbi balansa ciddi təsir göstərdiyini və Ermənistanın artıq Azərbaycanın artan hərbi üstünlüyünü kompensasiya edə bilmədiyini etiraf edir. Onun sözlərinə görə, bu balanssızlıq genişmiqyaslı hərbi əməliyyatların yenidən başlama riskini artırır və Bakı yaranmış vəziyyəti öz xeyrinə irəliləyiş üçün əlverişli şərait kimi dəyərləndirə bilər.

O, xüsusilə Prezident İlham Əliyevin Sankt-Peterburq görüşündən sonra səsləndirdiyi fikirlərin Ermənistanı narahat etdiyini vurğulayır. Həmin vaxt dövlətimizin başçısı açıq şəkildə demişdi ki, Ermənistan əvvəlcə Azərbaycanın işğal olunmuş beş rayonunu, daha sonra isə iki rayonunu azad etməlidir və yalnız bundan sonra digər məsələlər müzakirə oluna bilər. Bununla bağlı Sarkisyan məktubda yazır: "Azərbaycanın irəli sürdüyü "əvvəlcə ərazilər, sonra digər məsələlər" formulu son dərəcə təhlükəlidir. Onun tətbiqi o demək olardı ki, Azərbaycan öz öhdəliklərini yerinə yetirmədiyi halda, danışıqlar prosesindən istənilən mərhələdə çıxıb münaqişəni yenidən hərbiləşdirə bilərdi. Ermənistan və Dağlıq Qarabağ isə prosesin girovuna çevrilərdi".

Məktubda işğal olunmuş ərazilərin təhvil verilməsinə cavab olaraq yetərli güzəşt olmadığı da vurğulanır. Həm də bu tələbin Ermənistan üçün "təhlükəsizlik zonasının" əhəmiyyətli dərəcədə daralması və təmas xəttinin uzanması anlamına gəldiyi qeyd olunur. O həmçinin bildirir ki, Vyana və Sankt-Peterburq görüşləri müəyyən sabitlik ümidləri yaratsa da, Azərbaycanın mövqeyi, beynəlxalq monitorinq mexanizminin yaradılmasına razılıq verməməsi və Qarabağın statusuna dair referendumla bağlı fikir ayrılığı güzəşt imkanlarını sual altına qoyur: "Aydındır ki, Prezident Əliyev yalnız öz məqsədlərini təmin edən, qeyri-müəyyən və təhlükəli "ara status"a əsaslanan sxemi irəli sürür. Bu isə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində artıq əvvəlcədən müəyyən olunmuş nəticələrə gətirib çıxarır. Bakı öz Konstitusiyasına istinad edərək referendum imkanlarının qarşısını tam bağlayır. Bu isə məsələnin mahiyyətcə bloklanması deməkdir".

Bununla yanaşı, Sarksyan "Lavrov planı"nın müzakirəsi üçün bir sıra "kritik şərtlər" də irəli sürür: Qarabağ separatçı qurumunun danışıqlarda iştirakı, yekun statusun referendumla müəyyənləşdirilməsi, bu status müəyyən olunana qədər Kəlbəcər və Laçın rayonlarının tam şəkildə Qarabağın nəzarətində saxlanılması, aralıq statusun müəyyənləşdirilməsi, azad olunacaq rayonların silahsızlaşdırılması və tərəflərdən biri atəşkəsi pozduğu halda, BMT-də sanksiyalar mexanizminin tətbiqi.

Sabiq prezident eyni zamanda, etiraf edir ki, bu şərtlər təmin edilsə belə, Ermənistan cəmiyyəti və Qarabağdakı əhali bu cür planın qəbuluna uzun müddət hazır olmayacaq: "Əks halda istənilən plan iflasa uğrayacaq və qarşılıqlı etimadsızlığı daha da dərinləşəcək".

Sənədlər həmçinin illərdir müzakirə olunan bir suala da aydınlıq gətirilir: Niyə Paşinyan hakimiyyətə gələn kimi Sarkisyan komandası onu "torpaq təhvil verməkdə" ittiham etməyə başladı? Materiallar göstərir ki, Sarkisyan artıq 2016-cı ildən müharibənin qaçılmaz olduğunu bilir və nəticənin Ermənistan üçün ağır olacağını anlayırdı. Bu səbəbdən "torpaq verilməsi" ilə bağlı ittihamların sonradan siyasi səhnəyə qayıdış üçün qabaqcadan hazırlanmış taktika olduğu ortaya çıxır.

Beləliklə, həm məktub, həm də digər sənədlərin dərc olunması Azərbaycanın otuz il ərzində beynəlxalq müstəvidə irəli sürdüyü mövqenin tam təsdiqi kimi çıxış edir. Yeddi rayonun Azərbaycana qaytarılması, Qarabağın statusunun yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll edilə bilməsi, referendumun isə bütün Azərbaycan üzrə keçirilməsinin mümkünlüyü danışıqlar prosesinin heç bir mərhələsində "müstəqillik" və ya "birləşmə" variantlarının qəbul edilmədiyini bir daha sübut edir. Bu faktlar Azərbaycanın beynəlxalq hüquqa söykənən mövqeyinin nə qədər ardıcıl və haqlı olduğunu açıq şəkildə nümayiş etdirir.

Birinci Qarabağ müharibəsindən sonrakı dövrdə aparılan danışıqlar daimi olaraq bu prinsipə əsaslanıb, heç vaxt Qarabağın müstəqilliyi və ya Ermənistanla birləşdirilməsi müzakirə mövzusu olmayıb. 1996-cı il ATƏT-in Lissabon Sammiti sədrinin bəyanatı da bu həqiqəti təsdiq edirdi. Həmin sənəddə Qarabağa "öz müqəddəratını təyinetmə" əsasında, lakin Azərbaycan daxilində ən yüksək səviyyədə özünüidarəetmə verilməsi nəzərdə tutulurdu. Beynəlxalq ictimaiyyət üçün bu anlayış Qarabağın Azərbaycandan ayrılması deyil, məhz onun daxilində özünüidarəetmə demək idi və bu, Azərbaycanın mövqeyi ilə tam uzlaşırdı.

Ərazi bütövlüyü və öz müqəddəratını təyinetmə prinsiplərinin paralel təqdim olunması Qarabağın statusunun Azərbaycan razılığı olmadan müəyyən edilə bilməyəcəyini hüquqi müstəvidə təsdiq edirdi. Bu yanaşma BMT Təhlükəsizlik Şurasının qətnamələrində də əksini tapmışdı. Ermənistanda isə "öz müqəddəratını təyinetmə" anlayışı illərlə mifləşdirilmiş, təhrif edilmiş şəkildə cəmiyyətə təqdim olunmuşdu.

Məktubda referendum məsələsinə dair irəli sürülmüş fikirlər də Azərbaycanın mövqeyinin güclü olduğunu göstərir. Çünki həmin yanaşma Azərbaycan tərəfinə referendumda yalnız vaxtilə Qarabağdan köçmüş azərbaycanlıların deyil, bütün ölkə vətəndaşlarının iştirak etməsini tələb etmək imkanı verirdi. Yəni referendum yalnız Qarabağda deyil, bütün Azərbaycanda keçirilməli idi. Ermənistanın buna razılaşmaması prosesin irəliləməsini mümkünsüz edir, eyni zamanda göstərirdi ki, statusun müəyyənləşdirilməsi yalnız Azərbaycanın razılığı ilə gerçəkləşə bilərdi. Qarabağ de-yure Azərbaycanın tərkib hissəsi olduğuna görə əsas söz sahibi də Azərbaycan idi.

Onu da qeyd edək ki, bütün beynəlxalq sənədlər Azərbaycanın haqlı mövqeyini aydın şəkildə təsdiq edir. 1992–1993-cü illərin BMT Təhlükəsizlik Şurasının qətnamələri, 1996-cı il Lissabon Sammitində qəbul edilən prinsiplər və ATƏT mexanizmləri Qarabağın Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğunu açıq şəkildə bəyan edirdi. Ermənistanın bu sənədləri indi açıq şəkildə etiraf etmək məcburiyyətində qalması ölkəmizin diplomatik uğurunun miqyasını bir daha ortaya qoyur və uzun illər boyunca Ermənistan rəhbərliyinin yaratdığı siyasi mifləri darmadağın edir.

Sənədlər eyni zamanda Ermənistanın daxilində ciddi siyasi parçalanmanın mövcud olduğunu, danışıqlar masasında erməni tərəfinin vahid mövqeyə malik olmadığını da göstərir. Rusiyadan gözlənilən dəstəyin gerçəkləşməməsi, hərbi balansın Azərbaycanın xeyrinə dəyişməsi və xüsusilə 2016-cı ildən sonra Ermənistanın real vəziyyətlə üzləşmək məcburiyyətində qalması prosesin hara doğru getdiyini açıq şəkildə göstərirdi. Bu səbəbdən Vətən müharibəsinin nəticələri Ermənistan üçün gözlənilməz deyil, əksinə, illərlə formalaşmış reallığın məntiqi yekunu idi.

Bununla bağlı **politoloq Cəsarət Hüseynzadə** XQ-yə bildirdi ki, Sarkisyanın məktubda Ermənistanı, guya "konstruktiv tərəf" kimi qələmə verməsi, Azərbaycanı isə prosesi pozan ölkə kimi göstərmək cəhdi əsassız və manipulyativ yanaşmadan başqa bir şey deyil. Tarixi faktlar, beynəlxalq hüquq və o dövrün siyasi reallıqları tam əksini nümayiş etdirir. Məktubun məzmunu açıq-aydın göstərir ki, Ermənistanın əsas məqsədi status-kvonun mümkün qədər uzun müddət saxlanılması, işğalın müxtəlif terminlər arxasında legitimləşdirilməsi olub. "Təhlükəsizlik zonası", "aralıq status", "referendum" kimi anlayışlardan istifadə etməklə Sarkisyan administrasiyası işğalın davamını təmin etməyə, danışıqları dondураraq zaman qazanmağa çalışırdı. Bu, Ermənistan rəhbərliyinin illərdir təbliğ etdiyi eyni taktikanın növbəti təzahürüdür.

Sarkisyanın referendumla bağlı səsləndirdiyi fikirlər isə ümumiyyətlə, beynəlxalq hüquqa ziddir. Heç bir dövlət öz suveren ərazisində etnik qrup üçün ayrıca "müstəqillik referendumu" keçirmə öhdəliyi daşımır. Azərbaycanın Konstitusiyası da belə bir imkanı istisna edir.

Məktubdan aydın görünən əsas xətt budur: Ermənistan işğal olunmuş əraziləri geri qaytarmaq niyyətində deyildi, əksinə Kəlbəcər və Laçının "təhlükəsizlik" adı altında uzun müddət öz nəzarətində qalmasını tələb edirdi. Bu isə sülh prosesinin süni şəkildə uzadılması, işğalın davam etdirilməsi demək idi.



Həmin sənəd bir daha göstərir ki, Ermənistan rəhbərliyi danışıqlar prosesinə səmimi yanaşmamışdır. Onlar regionda etimad mühiti formalaşdırmaq, real kompromisə gəlmək əvəzinə, beynəlxalq ictimaiyyət qarşısında Azərbaycanı ittiham etməyə, məsuliyyətdən yayınmağa çalışmışlar. Ermənistan heç vaxt münaqişənin ədalətli, sülh yolu ilə həllinə hazır olmayıb. Münaqişənin 30 il uzanmasının başlıca səbəbi Ermənistanın qeyri-konstruktiv mövqeyi olub. Azərbaycan isə ərazi bütövlüyünü bərpa etməklə həm işğalın, həm də manipulyasiyaların qarşısını alıb, regionda yeni təhlükəsizlik arxitekturası yaradıb. Qarabağ məsələsi üzrə bütün danışıqlar tarixində hüquqi, siyasi və beynəlxalq legitim mövqe Azərbaycan tərəfində olub. Ermənistanın özünün yayımladığı sənədlər bunu birmənalı şəkildə təsdiqləyir. Bu isə Azərbaycanın sülh prosesində, regionun sabitliyinin təmin edilməsində və gələcək münasibətlərin qurulmasında aparıcı tərəf kimi mövqeyini daha da gücləndirir.

*P.ƏFƏNDİYEV*
*XQ*

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 350** **28 noyabr 2025-ci il, Bakı şəhəri**

**“Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 28 aprel tarixli 175 nömrəli Qərarı ilə təsdiq edilmiş “Əmək pensiyalarının təyin edilməsi, hesablanması, yenidən hesablanması, bir növdən başqa növə keçirilməsi və ödənilməsi Qaydası”nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 28 aprel tarixli 175 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 4, maddə 421 (Cild I); 2024, № 1, maddə 98, № 3, maddə 301, № 7, maddə 892, № 10, maddə 1160, № 11, maddə 1247; 2025, № 2, maddə 200, № 6, maddə 605; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 3 oktyabr tarixli 289 nömrəli, 13 oktyabr tarixli 298 nömrəli və 21 oktyabr tarixli 305 nömrəli qərarları) ilə təsdiq edilmiş “Əmək pensiyalarının təyin edilməsi, hesablanması, yenidən hesablanması, bir növdən başqa növə keçirilməsi və ödənilməsi Qaydası”nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** 4.1.20-ci yarımbənddə “işəgötürənin” sözü “işəgötürən tərəfindən verilən” sözləri ilə, “arayışına” sözü “güzəştli şərtlərlə pensiya hüququ verən iş stajı və həmin işin xarakteri barədə arayışa” sözləri ilə əvəz edilsin və həmin yarımbəndə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

“İşəgötürənin fəaliyyət göstərməməsi səbəbindən həmin arayış təqdim oluna bilmədikdə isə şəxsin işlədiyi sahə, peşə və vəzifələr Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 23 yanvar tarixli 12 nömrəli Qərarı ilə təsdiq edilmiş “Güzəştli şərtlərlə yaşa görə əmək pensiyası hüququ verən istehsalatların, peşələrin, vəzifələrin və göstəricilərin Siyahısı”nda göstərilənlərlə eynilik təşkil etdikdə MEİS-in “Əmək və məşğulluq” altsistemindən əmək müqavilələrinə dair çıxarışda, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallarda, eləcə də 2014-cü il iyulun 1-dək xitam verilmiş əmək müqavilələrinə münasibətdə əmək kitabçasında olan qeydə, bu qeydin mötəbərliyinə əsaslı şübhələr olduğu hallarda isə Dövlət arxivinin arayışına əsasən.”.

**2.** 5.5-ci bənd aşağıdakı redaksiyada verilsin:

“5.5. Bu Qaydanın 2.1-ci bəndində nəzərdə tutulan avtomatlaşdırılmış qaydada təyin edilən əmək pensiyaları istisna olmaqla, əmək pensiyalarının təyin edilməsi bu Qaydaya 5 nömrəli Əlavəyə uyğun formada qəbul edilən qərarla rəsmiləşdirilir.”.

**3.** Aşağıdakı məzmunda 6.7-ci, 6.8-ci bəndlər və “Qeyd” hissəsi əlavə edilsin:

“6.7. Qanunun 37.3.2-1-ci maddəsinə əsasən əmək pensiyasının yenidən hesablanması işləyən əmək pensiyaçısının fərdi şəxsi hesabının sığorta hissəsində müraciət tarixinə toplanmış pensiya kapitalına əsasən həmin tarixdən, işləməyən əmək pensiyaçısına münasibətdə isə şəxsin işləməyən əmək pensiyaçısı kateqoriyasına keçdiyi gündən, lakin müraciət edilən tarixdən əvvəlki ən çoxu üç il üçün ödənilməklə həyata keçirilir.

6.8. Qanunun 37.3.4-cü maddəsinə əsasən qulluq stajına görə əmək pensiyasına əlavələri 50 faiz həcmində ödənilən və ya dayandırılmış şəxslərin işdən azad olunması ilə əlaqədar onların əmək pensiyasının əməkhaqqı (dövlət məvacibi) əsasında yenidən hesablanması müvafiq dövlət orqanının təqdim etdiyi forması bu Qaydaya 3 nömrəli Əlavə ilə müəyyən edilmiş arayışa əsasən həyata keçirilir.

**Qeyd.** Bu Qaydanın 6.7-ci və 6.8-ci bəndlərinə əsasən yenidən hesablanmış pensiya məbləğinin ən yüksəyi ödənilir.”.

**4.** Həmin Qaydaya 11 nömrəli Əlavə - “Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun Əmək pensiyasının təyin edilməsindən imtina olunması haqqında Qərar”da aşağıdakı dəyişikliklər edilsin:

4.1. adında “Qərar” sözü “Qərarı” sözü ilə əvəz edilsin;

4.2. aşağıdakı məzmunda 9-cu hissə əlavə edilsin:

“9. Bu Qərardan inzibati qaydada və (və ya) məhkəməyə şikayət verilə bilər.”.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 352** **28 noyabr 2025-ci il, Bakı şəhəri**

**“Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2025-ci il 18 mart tarixli 57-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2025-ci il 18 mart tarixli 157-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 24 noyabr tarixli 481 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 11, maddə 1969 (Cild I); 2024, № 1, maddə 77, № 2, maddə 209, № 5 (II kitab), maddə 586, № 12 (II kitab), maddələr 1460, 1461) ilə təsdiq edilmiş “Verildiyi, dayandırıldığı, bərpa və ya ləğv edildiyi barədə vergi orqanlarına məlumat göndərilməli olan icazələrin Siyahısı”nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 40-cı hissə aşağıdakı redaksiyada verilsin:

“40. Sənaye, texnologiyalar parklarının rezidenti, idarəedici təşkilatı və operatoru, investisiya təşviqi sənədi almış hüquqi şəxslər və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslər tərəfindən texnikanın, texnoloji avadanlıqların və qurğuların, habelə işğaldan azad edilmiş ərazilər üzrə idxalı əlavə dəyər vergisindən və gömrük rüsumundan azad edilən iqtisadi fəaliyyət sahələri və mal nomenklaturaları üzrə hüquqi şəxslər və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslər tərəfindən texnikanın, texnoloji avadanlıqların və qurğuların, xammal və materialların idxalı üçün təsdiqedici sənəd.”;

1.2. 48-ci hissədən sonra aşağıdakı məzmunda “Qeyd” əlavə edilsin:

**“Qeyd.** Siyahının 40-cı hissəsi işğaldan azad edilmiş ərazilər üzrə idxalı əlavə dəyər vergisindən və gömrük rüsumundan azad edilən iqtisadi fəaliyyət sahələri və mal nomenklaturaları üzrə hüquqi şəxslər və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslər tərəfindən texnikanın, texnoloji avadanlıqların və qurğuların, xammal və materialların idxalı üçün təsdiqedici sənədə münasibətdə 2023-cü il yanvarın 1-dən tətbiq edilməklə 2033-cü il yanvarın 1-dək qüvvədədir.”.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 6 may tarixli 165 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 5, maddə 636 (Cild I); 2024, № 1, maddə 75, № 5 (II kitab), maddə 586, № 12 (II kitab), maddə 1460) ilə təsdiq edilmiş “Verildiyi, dayandırıldığı, bərpa və ya ləğv edildiyi barədə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə məlumat göndərilməli olan lisenziyaların və icazələrin Siyahısı”nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2.26-cı bənd aşağıdakı redaksiyada verilsin:

“2.26. sənaye, texnologiyalar parklarının rezidenti, idarəedici təşkilatı və operatoru, investisiya təşviqi sənədi almış hüquqi şəxslər və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslər tərəfindən texnikanın, texnoloji avadanlıqların və qurğuların, habelə işğaldan azad edilmiş ərazilər üzrə idxalı əlavə dəyər vergisindən və gömrük rüsumundan azad edilən iqtisadi fəaliyyət sahələri və mal nomenklaturaları üzrə hüquqi şəxslər və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslər tərəfindən texnikanın, texnoloji avadanlıqların və qurğuların, xammal və materialların idxalı üçün təsdiqedici sənəd;”;

2.2. 2.31-ci bənddən sonra aşağıdakı məzmunda “Qeyd” əlavə edilsin:

**“Qeyd.** Siyahının 2.26-cı bəndi işğaldan azad edilmiş ərazilər üzrə idxalı əlavə dəyər vergisindən və gömrük rüsumundan azad edilən iqtisadi fəaliyyət sahələri və mal nomenklaturaları üzrə hüquqi şəxslər və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslər tərəfindən texnikanın, texnoloji avadanlıqların və qurğuların, xammal və materialların idxalı üçün təsdiqedici sənədə münasibətdə 2023-cü il yanvarın 1-dən tətbiq edilməklə 2033-cü il yanvarın 1-dək qüvvədədir.”.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 356** **1 dekabr 2025-ci il, Bakı şəhəri**

**“Azərbaycan Respublikası Prezidentinin Protokol Xidmətinin yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 23 may tarixli 606 nömrəli Sərəncamının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərbaycan Respublikası Prezidentinin Protokol Xidmətinin yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 23 may tarixli 606 nömrəli Sərəncamının 3.4-cü bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 19 dekabr tarixli 277 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 12, maddə 1115 (Cild I); 2024, № 2, maddə 229, № 4, maddələr 437, 449, 467, № 9, maddə 1100; 2025, № 9, maddə 879; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 7 oktyabr tarixli 294 nömrəli Qərarı) ilə təsdiq edilmiş “Dövlət orqanlarının aparatının (və ya onların fəaliyyətini təmin edən qurumların) və onun bölmələrinin adları”na “Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi” sözlərindən sonra “Azərbaycan Respublikası Prezidentinin Protokol Xidməti” sözləri əlavə edilsin.

**2.** “Azərbaycan Respublikasının hava limanlarında xüsusilə mühüm şəxslər (VİP) və rəsmi nümayəndə heyətləri salonlarının xidmətlərindən istifadə hüququ olan Azərbaycan Respublikasının vəzifəli şəxslərinin Siyahısı”nın, “Azərbaycan Respublikasının hava limanlarında xüsusilə mühüm şəxslər (VİP) və rəsmi nümayəndə heyətləri salonlarının xidmətlərindən istifadə hüququ olan xarici dövlətlərin və beynəlxalq təşkilatların nümayəndələrinin Siyahısı”nın və “Azərbaycan Respublikasının hava limanlarında xüsusilə mühüm şəxslər (VİP) və rəsmi nümayəndə heyətləri salonlarından istifadə Qaydaları”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 29 oktyabr tarixli 322 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 10, maddə 1189 (Cild I); 2024, № 1, maddə 112, № 3, maddə 319, № 4, maddə 443; 2025, № 2, maddələr 187, 201) aşağıdakı dəyişikliklər edilsin:

2.1. həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - “Azərbaycan Respublikasının hava limanlarında xüsusilə mühüm şəxslər (VİP) və rəsmi nümayəndə heyətləri salonlarının xidmətlərindən istifadə hüququ olan Azərbaycan Respublikasının vəzifəli şəxslərinin Siyahısı” üzrə:

2.1.1. aşağıdakı məzmunda 10-1-ci hissə əlavə edilsin:

“10-1. Azərbaycan Respublikası Prezidentinin Protokol Xidmətinin rəisi, habelə ailə üzvləri;”;

2.1.2. 13-cü hissədə “xidmətinin rəisi və onun müavinləri” sözləri “Xidməti rəisinin müavinləri, Azərbaycan Respublikası Prezidentinin Protokol Xidmətinin şöbə müdirləri” sözləri ilə əvəz edilsin;

2.1.3. 46-cı hissəyə “müdirini,” sözündən sonra “Azərbaycan Respublikası Prezidentinin Protokol Xidmətinin rəisini,” sözləri əlavə edilsin;

2.2. həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - “Azərbaycan Respublikasının hava limanlarında xüsusilə mühüm şəxslər (VİP) və rəsmi nümayəndə heyətləri salonlarının xidmətlərindən istifadə hüququ olan xarici dövlətlərin və beynəlxalq təşkilatların nümayəndələrinin Siyahısı”nın 1-ci hissəsinə “müdirinin,” sözündən sonra “Azərbaycan Respublikası Prezidentinin Protokol Xidməti rəisinin,” sözləri əlavə edilsin;

2.3. həmin Qərarla təsdiq edilmiş 3 nömrəli əlavə - “Azərbaycan Respublikasının hava limanlarında xüsusilə mühüm şəxslər (VİP) və rəsmi nümayəndə heyətləri salonlarından istifadə Qaydaları”nın 3.4-cü bəndinə “rəhbərinin,” sözündən sonra “Azərbaycan Respublikası Prezidentinin Protokol Xidməti rəisinin,” sözləri əlavə edilsin.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 2 may tarixli 242 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 5 (II kitab), maddə 580; 2025, № 8, maddə 802) ilə təsdiq edilmiş “Elektrik gücü çatmadıqda, sistemin dayanıqlılığını təmin etmək üçün elektrik enerjisinin təminatına məhdudiyyətlər tətbiq edilməyən istehlakçıların siyahısı”na aşağıdakı məzmunda

1-1-ci hissə əlavə edilsin:

“1-1. Azərbaycan Respublikası Prezidentinin Protokol Xidmətinin inzibati binası;”.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 353** **1 dekabr 2025-ci il, Bakı şəhəri**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 20 avqust tarixli 234 nömrəli Qərarı ilə təsdiq edilmiş “Donor orqanların transplantasiyasını həyata keçirən ixtisaslaşdırılmış tibb müəssisələrinin Siyahısı”nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 20 avqust tarixli 234 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 8, maddə 960 (Cild I); 2024, №7, maddə 898) ilə təsdiq edilmiş “Donor orqanların transplantasiyasını həyata keçirən ixtisaslaşdırılmış tibb müəssisələrinin Siyahısı”nın on dördüncü sətrinə “gözün buynuz qişası” sözlərindən sonra “, sümük iliyi” sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 351** **28 noyabr 2025-ci il, Bakı şəhəri**

**“Xüsusi icra məmuru olmaq istəyən şəxslər üçün müsabiqənin, habelə ilkin icbari hazırlığın və stajın keçirilməsi Qaydaları”nın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Xüsusi icra məmurları haqqında” Azərbaycan Respublikasının 2025-ci il 14 iyul tarixli 248-VIIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 13 avqust tarixli 478 nömrəli Fərmanının 2.2.1.1-ci abzasının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Xüsusi icra məmuru olmaq istəyən şəxslər üçün müsabiqənin, habelə ilkin icbari hazırlığın və stajın keçirilməsi Qaydaları” təsdiq edilsin *(əlavə olunur)*.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 362** **2 dekabr 2025-ci il, Bakı şəhəri**

**2026-cı il üçün Novruz, Ramazan və Qurban bayramları günlərinin müəyyən edilməsi haqqında**

Azərbaycan Respublikası Əmək Məcəlləsinin 105-ci maddəsinin 4-cü hissəsinə və “Azərbaycan Respublikasının Əmək Məcəlləsinə dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2006-cı il 8 dekabr tarixli 194-IIIQD nömrəli Qanununun tətbiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 dekabr tarixli 489 nömrəli Fərmanının 2-ci hissəsinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** 2026-cı il martın 20, 21, 22, 23, 24-ü Novruz bayramı, martın 20, 21-i Ramazan bayramı, mayın 27, 28-i Qurban bayramı günləri müəyyən edilsin.

**2.** Azərbaycan Respublikası Əmək Məcəlləsinin 105-ci maddəsinin 2-ci hissəsinə əsasən bu Qərarın 1-ci hissəsində nəzərdə tutulan günlər iş günü hesab edilmir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 354** **1 dekabr 2025-ci il, Bakı şəhəri**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 20 avqust tarixli 235 nömrəli Qərarı ilə təsdiq edilmiş “Donor orqanların götürülməsi, hazırlanması, saxlanması, daşınması, idxalı və ixracını həyata keçirən tibb müəssisələrinin Siyahısı”nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 20 avqust tarixli 235 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 8, maddə 961 (Cild I); 2024, №7, maddə 899) ilə təsdiq edilmiş “Donor orqanların götürülməsi, hazırlanması, saxlanması, daşınması, idxalı və ixracını həyata keçirən tibb müəssisələrinin Siyahısı”nın on dördüncü sətrinə “gözün buynuz qişası” sözlərindən sonra “, sümük iliyi” sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 355** **1 dekabr 2025-ci il, Bakı şəhəri**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 6 aprel tarixli 55 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Maliyyə Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısı”nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 9 fevral tarixli 48 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Maliyyə Nazirliyi haqqında Əsasnamə”nin 12-ci hissəsinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 6 aprel tarixli 55 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 4, maddə 350 (Cild I) ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Maliyyə Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısı”nda 2-ci hissə aşağıdakı redaksiyada verilsin:

“2. “Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Rəqəmsal Maliyyə Mərkəzi” Məhdud Məsuliyyətli Cəmiyyəti.”.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 358** **1 dekabr 2025-ci il, Bakı şəhəri**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 22 iyun tarixli 178 nömrəli Qərarı ilə təsdiq edilmiş “Baytarlıq xidməti və nəzarəti tədbirlərinə görə alınan xidmət haqqının məbləği”ndə dəyişiklik edilməsi və “Heyvanlar üçün bioloji preparatlar istehsalı obyektlərinin baytarlıq qanunvericiliyinin tələblərinə uyğunluğunun uçotunu aparmaq üçün onların qeydiyyatı Qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 15 yanvar tarixli 24 nömrəli Qərarının ləğv edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Baytarlıq haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2025-ci il 22 aprel tarixli 185-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 9 may tarixli 390 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 22 iyun tarixli 178 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 6 (IV kitab), maddə 684 (Cild I); 2024, № 3, maddə 329) ilə təsdiq edilmiş “Baytarlıq xidməti və nəzarəti tədbirlərinə görə alınan xidmət haqqının məbləği”nin 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. adından “və heyvanlar üçün yem və bioloji preparatlar istehsalı obyektlərinin qeydiyyatı” sözləri çıxarılsın;

1.2. 2.2-ci bənd ləğv edilsin.

**2.** “Heyvanlar üçün bioloji preparatlar istehsalı obyektlərinin baytarlıq qanunvericiliyinin tələblərinə uyğunluğunun uçotunu aparmaq üçün onların qeydiyyatı Qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 15 yanvar tarixli 24 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 1, maddə 91) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

***Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.az saytlarında tanış ola bilərsiniz.***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 357** **1 dekabr 2025-ci il, Bakı şəhəri**

**“Azərbaycan Respublikasının bəzi səfirliklərində təhsil məsələləri üzrə müşavir vəzifəsinin təsis edilməsi ilə bağlı əlavə tədbirlər və “Azərbaycan Respublikasının bəzi xarici ölkələrdəki səfirliklərində təhsil məsələləri üzrə müşavir vəzifəsinin təsis edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 14 mart tarixli 2093 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 29 aprel tarixli 575 nömrəli Sərəncamının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərbaycan Respublikasının bəzi səfirliklərində təhsil məsələləri üzrə müşavir vəzifəsinin təsis edilməsi ilə bağlı əlavə tədbirlər və “Azərbaycan Respublikasının bəzi xarici ölkələrdəki səfirliklərində təhsil məsələləri üzrə müşavir vəzifəsinin təsis edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 14 mart tarixli 2093 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 29 aprel tarixli 575 nömrəli Sərəncamının 2-ci hissəsinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2155 (Cild I); 2024, № 1, maddə 84, № 2, maddələr 209, 229, № 3, maddələr 307, 359, № 6 (II kitab), maddə 739, № 7, maddələr 920, 930, № 9, maddələr 1067, 1099, 1106, № 10, maddə 1167, № 12 (II kitab), maddə 1428; 2025, № 2, maddə 187, № 6, maddə 594, № 7, maddələr 706, 714, 716;, № 8, maddə 800, № 9, maddələr 857, 863, 870, 879; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 7 oktyabr tarixli 294 nömrəli və 7 noyabr tarixli 333 nömrəli qərarları) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının büdcə xərclərinin proqram təsnifatı”nın 5.2.6-cı yarımbəndindən “xarici ölkələrdəki” sözləri çıxarılsın.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 23 aprel tarixli 127 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 4 (II kitab), maddə 415) ilə təsdiq edilmiş “Diplomatik xidmət haqqında” Azərbaycan Respublikası Qanununun 13.15-ci maddəsində nəzərdə tutulan Azərbaycan Respublikasının dövlət orqanlarının aidiyyəti sahələr üzrə diplomatik nümayəndəliklərə və konsulluqlara, beynəlxalq təşkilatlara, diplomatik nümayəndəliklərin tabeliyində yaradılan təşkilatlara təyin etdikləri, diplomatik nümayəndəliklərin və konsulluqların mövcud olmadığı dövlətlərdə isə ayrıca fəaliyyət göstərən xarici dövlətlərdəki nümayəndələrinə və onların (aparatlarının) işçilərinə təminat və kompensasiyaların verilməsi Qaydaları”nın 1.7-ci bəndinin ikinci cümləsindən “xarici dövlətlərdəki” sözləri çıxarılsın.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 364** **2 dekabr 2025-ci il, Bakı şəhəri**

**Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin kollegiyasının üzvlərinin sayının və tərkibinin təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 5 may tarixli 383 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi haqqında Əsasnamə”nin 5.8-ci bəndinə uyğun olaraq və Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin təklifini nəzərə alaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin kollegiyasının üzvlərinin sayı 11 nəfərdən ibarət müəyyənləşdirilsin və aşağıdakı tərkibdə təsdiq edilsin:

**Kollegiyanın sədri**

Azərbaycan Respublikasının xarici işlər naziri

**Kollegiyanın üzvləri:**

Azərbaycan Respublikası xarici işlər nazirinin müavinləri

“ADA” Universitetinin rektoru

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Hüquqi təminat idarəsinin rəisi

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Kadrlar idarəsinin rəisi

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasında İdarəsinin rəisi.

**2.** “Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin kollegiya üzvlərinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 3 sentyabr tarixli 122 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 9, maddə 740 (Cild I) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 363** **2 dekabr 2025-ci il, Bakı şəhəri**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 28 sentyabr tarixli 167 nömrəli Qərarı ilə təsdiq edilmiş “Təhsil müəssisələrinin akkreditasiyası Qaydaları”nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 28 sentyabr tarixli 167 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 9, maddə 833 (Cild I); 2024, № 3, maddə 307, № 5 (II kitab), maddə 612) ilə təsdiq edilmiş “Təhsil müəssisələrinin akkreditasiyası Qaydaları”nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** 4.16-cı bənddən “aşağıdakı kimi” sözləri çıxarılsın və həmin bəndin sonunda nöqtəli vergül işarəsi nöqtə işarəsi ilə əvəz edilsin.

**2.** 4.16.1-4.16.4-cü yarımbəndlər ləğv edilsin.

**3.** Aşağıdakı məzmunda 4.16-1-ci bənd əlavə edilsin:

“4.16-1. Akkreditasiya Meyarları üçün maksimum bal ölçüsü hər bir meyar üzrə indikatorların sayından və hər bir indikator üzrə müəyyən edilən maksimum baldan asılı olaraq hesablanır.”.

**4.** 4.17-ci bənd aşağıdakı redaksiyada verilsin:

“4.17. Təhsil müəssisəsi və ya təhsil proqramı üçün maksimum bal ölçüsü Akkreditasiya Meyarları üzrə hesablanmış maksimum balların toplanmasından ibarətdir. Təhsil müəssisəsi və ya təhsil proqramı üçün müəyyən olunmuş maksimum bal ölçüsünün akkreditasiya zamanı toplanılan bal üzrə qiymətləndirilməsi aşağıdakı qaydada müəyyənləşdirilir:

4.17.1. maksimum balın 85-100 faizi - “uyğundur”;

4.17.2. maksimum balın 70-84 faizi - “əsasən uyğundur”;

4.17.3. maksimum balın 55-69 faizi - “qismən uyğundur”;

4.17.4. maksimum balın 54 və daha aşağı faizi - “uyğun deyil”.”.

**5.** 4.23-cü bəndin birinci cümləsinə “1 (bir) ay müddətində” sözlərindən sonra “, əlavə araşdırmaların aparılması zərurəti yarandıqda isə 2 (iki) ay müddətində” sözləri əlavə edilsin və həmin bəndin ikinci cümləsi çıxarılsın.

**6.** 4.30-cu bənd aşağıdakı redaksiyada verilsin:

“4.30. Akkreditasiya Şurası Agentliyin təqdimatı əsasında Yekun Hesabatı müzakirə edir və Akkreditasiya Komissiyasının rəyini nəzərə alaraq aşağıdakı qərarlardan birini qəbul edir:

4.30.1. təhsil müəssisəsi və ya təhsil proqramı “uyğundur” və ya “əsasən uyğundur” qiymətləndirildikdə (təhsil müəssisəsi üzrə təlim və tədris istiqaməti, təhsil proqramı üçün tədrisin təşkili meyarı üzrə müəyyən olunmuş maksimum bal ölçüsünün toplanılan bal üzrə qiymətləndirilməsi 70 faiz və ya yuxarı olması şərtilə), təhsil müəssisəsini və ya təhsil proqramını növbəti 5 (beş) il üçün tam akkreditasiya olunmuş hesab etmək;

4.30.2. təhsil müəssisəsi və ya təhsil proqramı ilk dəfə keçirilən akkreditasiya qiymətləndirilməsinin nəticəsində “qismən uyğundur” hesab edildikdə (təhsil müəssisəsi üzrə təlim və tədris istiqaməti, təhsil proqramı üçün tədrisin təşkili meyarı üzrə müəyyən olunmuş maksimum bal ölçüsünün toplanılan bal üzrə qiymətləndirilməsi 65 faiz və ya yuxarı olması şərtilə), təhsil müəssisəsinə akkreditasiya zamanı aşkar olunmuş çatışmazlıqların aradan qaldırılması və fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə vaxt verməklə təhsil müəssisəsini və ya təhsil proqramını 2 (iki) ildən sonra təkrar akkreditasiya etmək;

4.30.3. əvvəlki dövrdə akkreditasiyadan keçmiş təhsil müəssisəsi və ya təhsil proqramı akkreditasiya qiymətləndirilməsinin nəticəsində “qismən uyğundur” hesab edildikdə (təhsil müəssisəsi üzrə təlim və tədris istiqaməti, təhsil proqramı üçün tədrisin təşkili meyarı üzrə müəyyən olunmuş maksimum bal ölçüsünün toplanılan bal üzrə qiymətləndirilməsi 65 faiz və ya yuxarı olması şərtilə), qüvvədə olan akkreditasiya şəhadətnaməsinin müddətini növbəti 2 (iki) il üçün uzatmaqla təhsil müəssisəsini və ya təhsil proqramını 2 (iki) ildən sonra təkrar akkreditasiya etmək;

4.30.4. təkrar akkreditasiya nəticəsində təhsil müəssisəsinin və ya təhsil proqramının bu Qaydaların 4.30.1-ci yarımbəndində göstərilən tələblərə cavab vermədiyi müəyyən edildikdə, təhsil müəssisəsini və ya təhsil proqramını akkreditasiya olunmuş hesab etməmək;

4.30.5. təhsil müəssisəsi və ya təhsil proqramı “qismən uyğundur” (təhsil müəssisəsi üzrə təlim və tədris istiqaməti, təhsil proqramı üçün tədrisin təşkili meyarı üzrə müəyyən olunmuş maksimum bal ölçüsünün toplanılan bal üzrə qiymətləndirilməsi 65 faizdən aşağı olması şərtilə) və ya “uyğun deyil” qiymətləndirildikdə, təhsil müəssisəsini və ya təhsil proqramını akkreditasiya olunmuş hesab etməmək.”.

**7.** 4.31-ci bəndin birinci cümləsində “təhsil müəssisəsini və ya təhsil proqramlarını akkreditasiya etmək” sözləri “təhsil müəssisəsinin və ya təhsil proqramlarının akkreditasiyası” sözləri ilə, “akkreditasiya olunması” sözləri “akkreditasiyası” sözü ilə əvəz edilsin.

**8.** 4.32-ci bəndin ikinci cümləsində “2 (iki) il ərzində” sözləri “2 (iki) ildən sonra” sözləri ilə əvəz edilsin.

**9.** 4.34-cü bənddə “qəbulu dayandırılır” sözləri “qəbulunun azaldılması və ya dayandırılması məsələsinə baxılır” sözləri ilə əvəz edilsin.

**10.** 4.36-cı bənddə “4.30.2-ci” sözləri “4.30.1-ci” sözləri ilə əvəz edilsin.

**11.** 4.37-ci bənd aşağıdakı redaksiyada verilsin:

“4.37. Akkreditasiya qiymətləndirilməsinin nəticəsi olaraq bu Qaydaların 4.30.4-cü və 4.30.5-ci yarımbəndlərində göstərilən hallar üzrə təhsil müəssisəsinin və ya təhsil proqramının akkreditasiyadan keçməməsi barədə qərarlar qəbul edildikdə Nazirlik tərəfindən müəssisənin təhsil fəaliyyətinin və ya təhsil proqramlarının icrasının dayandırılması üçün müvafiq tədbirlər görülür, təhsil müəssisəsinin yenidən təşkili və ləğvi barədə müvafiq qaydada təkliflər verilir. Təhsil müəssisəsində təhsil alanların Nazirlik tərəfindən müəyyən edilən digər təhsil müəssisələrinə köçürülməsi təmin edilir. Agentlik dəymiş ziyanın fəaliyyətinə xitam verilmiş təhsil müəssisəsi tərəfindən ödənilməsi barədə məhkəmədə iddia qaldırır.”.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 365** **2 dekabr 2025-ci il, Bakı şəhəri**

**“Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 5 may tarixli 383 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 5 may tarixli 383 nömrəli Fərmanının 3.3-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 28 avqust tarixli 136 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 8, maddə 861 (Cild I); 2024, № 2, maddə 229, № 4, maddə 467, № 9, maddələr 1090, 1100; 2025, № 8, maddə 802, № 9, maddə 879; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 7 oktyabr tarixli 294 nömrəli Qərarı) ilə təsdiq edilmiş “İnzibati orqanların Təsnifatı”nın II bölməsinin 1.1-ci bəndi ləğv edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 19 dekabr tarixli 277 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 12, maddə 1115 (Cild I); 2024, № 2, maddə 229, № 4, maddələr 437, 449, 467, № 9, maddə 1100; 2025, № 9, maddə 879; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 7 oktyabr tarixli 294 nömrəli Qərarı) ilə təsdiq edilmiş “Dövlət orqanlarının aparatının (və ya onların fəaliyyətini təmin edən qurumların) və onun bölmələrinin adları”ndan “Naxçıvan Muxtar Respublikasındakı İdarəsi” sözləri çıxarılsın.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 23 aprel tarixli 127 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 4 (II kitab), maddə 415) ilə təsdiq edilmiş “Diplomatik xidmət haqqında” Azərbaycan Respublikası Qanununun 13.15-ci maddəsində nəzərdə tutulan Azərbaycan Respublikasının dövlət orqanlarının aidiyyəti sahələr üzrə diplomatik nümayəndəliklərə və konsulluqlara, beynəlxalq təşkilatlara, diplomatik nümayəndəliklərin tabeliyində yaradılan təşkilatlara təyin etdikləri, diplomatik nümayəndəliklərin və konsulluqların mövcud olmadığı dövlətlərdə isə ayrıca fəaliyyət göstərən xarici dövlətlərdəki nümayəndələrinə və onların (aparatlarının) işçilərinə təminat və kompensasiyaların verilməsi Qaydaları”nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1.7-ci bəndin ikinci cümləsində “Respublikasının xarici dövlətdəki diplomatik nümayəndəliyinin” sözləri “Respublikası diplomatik nümayəndəliklərinin” sözləri ilə əvəz edilsin;

3.2. həmin Qaydalara 1 nömrəli əlavə - “Nümayəndələrin və onların (aparatlarının) işçilərinin Siyahısı”nın 4-cü hissəsində “Respublikasının xarici dövlətdəki diplomatik nümayəndəliyinin” sözləri “Respublikası diplomatik nümayəndəliklərinin” sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 370** **3 dekabr 2025-ci il, Bakı şəhəri**

**“Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 31 may tarixli 1166-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 1 may tarixli 382 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 31 may tarixli 1166-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 1 may tarixli 382 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 25 yanvar tarixli 14 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 1, maddə 44 (Cild I); 2024, № 4, maddə 453, № 9, maddə 1085; 2025, № 8, maddə 806; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 5 noyabr tarixli 332 nömrəli Qərarı) ilə təsdiq edilmiş 2 nömrəli əlavə – “Ezamiyyə xərclərinin 1 günlük normasına əlavələr və həmin əlavələrin tətbiq olunduğu rəhbər işçilərin kateqoriyası” cədvəlinin 3-cü hissəsindən “Azərbaycan Respublikası Nazirlər Kabinetinin yanında olan icra hakimiyyəti orqanlarının rəhbərləri və müavinləri,” sözləri çıxarılsın.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 10 mart tarixli 87 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 3, maddə 486 (Cild I); 2024, № 4, maddə 437, № 5 (II kitab), maddə 589; 2025, № 2, maddələr 201, 206) ilə təsdiq edilmiş “Dövlət qulluğu vəzifələri üzrə test imtahanından keçmək barədə Sertifikatın Forması”na 1 nömrəli əlavə - “Dövlət qulluğu vəzifələri üzrə Sertifikatın verilməsi üçün inzibati vəzifələrin növləri, qrupları və alt qrupları” cədvəlinin “AC4” sətrinin dördüncü abzasında “başçısının inzibati ərazi dairəsi üzrə və sahə inzibati ərazi dairəsi üzrə nümayəndəsi, onun müavini” sözləri “orqanlarının inzibati ərazi dairələri üzrə nümayəndələri və sahə inzibati ərazi dairələri nümayəndələri və onların müavinləri” sözləri ilə əvəz edilsin.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 8 dekabr tarixli 545 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (II kitab), maddə 2493 (Cild I); 2024, № 4, maddə 437; 2025, № 2, maddə 201) ilə təsdiq edilmiş “1-5-ci kateqoriya dövlət orqanlarında inzibati vəzifələrin birinci-yeddinci təsnifatlarına uyğun olan vakant vəzifələrin tutulmasının Ümumi Şərtləri”ndə aşağıdakı dəyişikliklər edilsin:

3.1. aşağıdakı məzmunda 8.4.13-cü və 8.4.14-cü yarımbəndlər əlavə edilsin:

“8.4.13. Naxçıvan Muxtar Respublikası Baş nazirinin müşaviri

Təhsilə dair tələblər: müvafiq ali təhsil;

İş stajına dair tələblər: vəzifənin qulluq funksiyalarını nəzərə alaraq dövlət qulluğunda 2 (iki) il qulluq stajı və yaxud 4 (dörd) il iş stajı;

Bilməlidir: Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının “Dövlət qulluğu haqqında”, “Korrupsiyaya qarşı mübarizə haqqında”, “Dövlət qulluqçularının etik davranış qaydaları haqqında”, “Vətəndaşların müraciətləri haqqında”, “İnzibati icraat haqqında” qanunlarını, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin aidiyyəti maddələrini, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10 oktyabr tarixli 1627 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Nazirlər Kabinetinin iş qaydası”nı, dövlət qulluğu, dövlət orqanı və vəzifənin fəaliyyət istiqaməti üzrə münasibətləri tənzimləyən digər normativ hüquqi aktları, qulluq funksiyalarının icrası ilə əlaqədar zəruri peşə-ixtisas biliklərini, Azərbaycan haqqında ümumi məlumatları, idarəetmə, o cümlədən insan resurslarının idarə edilməsi ilə bağlı nəzəri və praktiki bilikləri;

8.4.14. Naxçıvan Muxtar Respublikası Baş nazirinin köməkçisi

Təhsilə dair tələblər: ali təhsil;

İş stajına dair tələblər: vəzifənin qulluq funksiyalarını nəzərə alaraq dövlət qulluğunda 2 (iki) il qulluq stajı və yaxud 4 (dörd) il iş stajı;

Bilməlidir: Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının “Dövlət qulluğu haqqında”, “Korrupsiyaya qarşı mübarizə haqqında”, “Dövlət qulluqçularının etik davranış qaydaları haqqında”, “Vətəndaşların müraciətləri haqqında”, “İnzibati icraat haqqında” qanunlarını, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin aidiyyəti maddələrini, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10 oktyabr tarixli 1627 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Nazirlər Kabinetinin iş qaydası”nı, dövlət qulluğu, dövlət orqanı və vəzifənin fəaliyyət istiqaməti üzrə münasibətləri tənzimləyən digər normativ hüquqi aktları, qulluq funksiyalarının icrası ilə əlaqədar zəruri peşə-ixtisas biliklərini, Azərbaycan haqqında ümumi məlumatları, idarəetmə, o cümlədən insan resurslarının idarə edilməsi ilə bağlı nəzəri və praktiki bilikləri;”;

3.2. 8.5.12-ci yarımbəndin birinci abzasına “orqanların” sözündən sonra “və Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin” sözləri əlavə edilsin;

3.3. 8.6.6-cı yarımbəndin birinci abzasında “müvafiq” sözü “mərkəzi” sözü ilə əvəz edilsin;

3.4. 8.6.7-ci yarımbəndin birinci abzasına birinci halda “tabeliyində olan orqanların” sözlərindən sonra “, Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanları yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin” sözləri əlavə edilsin və həmin abzasda “müvafiq” sözü “mərkəzi” sözü ilə əvəz edilsin;

3.5. 8.7.4-cü yarımbəndin birinci abzası aşağıdakı redaksiyada verilsin:

“8.7.4. yerli icra hakimiyyəti başçılarının yanında olan orqanların rəhbərləri, yerli icra hakimiyyəti orqanlarının inzibati ərazi dairələri üzrə nümayəndələri və sahə inzibati ərazi dairələri nümayəndələrinin və onların müavinləri”.

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 29 oktyabr tarixli 322 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 10, maddə 1189 (Cild I); 2024, № 1, maddə 112, № 3, maddə 319, № 4, maddə 443; 2025, № 2, maddələr 187, 201; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 1 dekabr tarixli 356 nömrəli Qərarı) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - “Azərbaycan Respublikasının hava limanlarında xüsusilə mühüm şəxslər (VİP) və rəsmi nümayəndə heyətləri salonlarının xidmətlərindən istifadə hüququ olan Azərbaycan Respublikasının vəzifəli şəxslərinin Siyahısı”nın 13-cü hissəsinə “Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi və onun müavini,” sözlərindən sonra “Azərbaycan Respublikası Prezidentinin iqlim məsələləri üzrə nümayəndəsi,” sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

***Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.az saytlarında tanış ola bilərsiniz.***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 369** **3 dekabr 2025-ci il, Bakı şəhəri**

**“Azərbaycan Ordusunun və başqa silahlı birləşmələrin dinc və müharibə (silahlı münaqişə) dövrlərində maddi-texniki vasitələrlə təmin edilməsi Qaydası”nın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 7 noyabr tarixli 63-VIIQD nömrəli Qanununun tətbiqi və “Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2022-ci il 25 fevral tarixli 485-VIQD nömrəli Qanununun tətbiqi və “Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında” Azərbaycan Respublikasının 2017-ci il 29 dekabr tarixli 955-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 19 yanvar tarixli 1794 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 mart tarixli 1639 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 24 dekabr tarixli 259 nömrəli Fərmanının 1.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Azərbaycan Ordusunun və başqa silahlı birləşmələrin dinc və müharibə (silahlı münaqişə) dövrlərində maddi-texniki vasitələrlə təmin edilməsi Qaydası” təsdiq edilsin *(əlavə olunur).*

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycanın yeni büdcə siyasətinin hədəfləri

## *3 strateji məqsəd və milli inkişafın yol xəritəsi*

**Milli Məclisin plenar iclasında 2026-cı ilin dövlət büdcəsi ilə bağlı qanun layihələrinin ikinci oxunuşda müzakirəsi Azərbaycanın yaxın 3 ildə hansı iqtisadi hədəflər seçdiyini bir daha göstərdi. Dövlətin iqtisadi siyasətinin mahiyyəti, prioritetlərin yönü, büdcə parametrlərinin strateji məqsədlərə necə bağlanması parlament müzakirələrinin ana xəttini təşkil etdi.**



Bu iclas, əslində, Azərbaycanın iqtisadi idarəetməsinin hansı strateji hədəf ətrafında formalaşdığını bir daha təsdiqlədi. Neftdən asılılığın davamlı şəkildə azaldılması və qeyri-neft sektorunun yüksəldilməsi, sosial dövlət modelinin gücləndirilməsi və əhalinin rifahının dayanıqlı artırılması, investisiyayönlü büdcə xətti və "Böyük Qayıdış"ın iqtisadi maraq çərçivəsində dirçəlməsi və azad olunmuş ərazilərin inkişafı

Maliyyə naziri Sahil Babayevin çıxışında ən çox vurğulanan tezislərdən biri dövlət büdcəsinin neft amilindən tədricən uzaqlaşdırılması idi. Dünya enerji bazarlarında dəyişkənlik artır, karbon dövrü daralır, enerji keçidi sürətlənir. Belə şəraitdə Azərbaycanın uzunmüddətli iqtisadi suverenliyi qeyri-neft sektorundan gələn gəlirlərin gücləndirilməsindən keçir. Bu məqsədlə həyata keçirilən addımlar iclasda geniş müzakirə olundu. Dövlət Neft Fondundan transferlərin yenidən azaldılması – bu, büdcənin cari xərclərinin qeyri-neft gəlirləri hesabına ödənməsinə yönəlib. Vergi yükünün optimallaşdırılması – qeyri-neft biznesinin genişlənməsini təşviq edən ən mühüm mexanizm. İqtisadi diversifikasiya proqramları – sənaye, logistika, aqrar sektor, rəqəmsal iqtisadiyyat üzrə prioritet yenilənmələri əks etdirir.

Deputatların çıxışlarında səslənən təkliflər də təsdiqləyir ki, qeyri-neft sektorunun genişlənməsi artıq iqtisadi siyasətlə yanaşı, milli strategiyanın ana sütununa çevrilib. Məlumdur ki, sosial dövlət modelinin gücləndirilməsi rifahın institusional təmini deməkdir.

Digər tərəfdən, iclasın davamında sosial müdafiə sahəsi ən çox müzakirə olunan məsələlərdən biri oldu. Əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyevin təqdim etdiyi rəqəmlər göstərdi ki, sosial dövlət konsepsiyası artıq yalnız şüar deyil, real büdcə siyasətidir. 2026-cı ilin büdcəsi sosialyönümlülük baxımından əvvəlki illəri geridə qoyur. 4 milyon vətəndaşı əhatə edən 4 sosial islahat paketi, üstəlik, 2025-ci ildən başlayan 5-ci sosial islahat mərhələsi buna əyani misaldır. Bununla yanaşı, minimum əməkhaqqı, minimum pensiya, sosial müavinətlər və tələbə təqaüdlərində artımlar, ünvanlı yardımın və ehtiyac meyarının artırılması bütövlükdə sosial təminat xərclərinin genişlənməsinə xidmət etməlidir.

Bu çərçivədə də müsbət addımlar var: Yaşayış minimumunun 2026-cı il üçün 300 manata yüksəldilməsi, ehtiyac meyarının 5,3 faiz artırılması sosial siyasətin proaktiv şəkildə qurulduğunu göstərir. Bu addımların fonunda iki iqtisadi prinsip xüsusi önəm kəsb edir. Məlumdur ki, Sosial müdafiə iqtisadi investisiyadır, rifah artdıqca, istehlak genişlənir, bazar güclənir və inklüziv iqtisadiyyat olmadan davamlı inkişaf mümkün deyil, məhz buna görə sosial siyasət genişlənmiş büdcənin mərkəzində yerləşir.

Parlament müzakirələrinin ən strateji mövzularından biri də investisiya xərclərinin qorunması və azad edilmiş ərazilərin bərpasının gələn ilin büdcəsində prioritet saxlanılması oldu. "Böyük Qayıdış" proqramı 2026-cı ilin büdcə xəttində əsas investisiya istiqamətlərindən biri olaraq qalması buna əyani sübutdur. Dövlət investisiya proqramı genişlənir və bu investisiyalar yeni iqtisadi coğrafiya yaradır. Zəngilan, Füzuli, Ağdam, Cəbrayıl və digər bölgələr üzrə infrastruktur xərcləri gələcək iqtisadi dövriyyənin təməllərini formalaşdırır.

Qeyd edək ki, bu hədəflər yalnız bir ilin deyil, Azərbaycanın qarşıdakı onillik üçün iqtisadi yol xəritəsini formalaşdırır. Parlamentdə aparılan geniş diskussiya və hökumət üzvlərinin verdiyi mesajlar göstərir ki, ölkə qarşıdakı dövrü iqtisadi cəhətdən daha dayanıqlı, sosialyönlü və strateji hədəflərə bağlı şəkildə qarşılayır.

***Nurla ABDALOV***
***XQ***

### *Ekspert rəyi*



**Eyyub KƏRİMLİ,**
**iqtisadçı-ekspert**

Ölkədə 2026-cı il dövlət büdcəsi ətrafında Milli Məclisdə aparılan müzakirələr onu deməyə əsas verir ki, qarşıdakı illərdə Azərbaycanın iqtisadi siyasəti daha çox balanslaşdırılmış inkişaf modelinə əsaslanacaq. Belə ki, nazir Sahil Babayevin vurğuladığı üç strateji hədəf müəyyən mənada, bir-biri ilə rəqabət aparan istiqamətlərdir.

Məsələn, sürətli iqtisadi artım adətən daha geniş fiskal xərclər və yüksək investisiya proqramları tələb edir. Makroiqtisadi sabitlik isə əksinə – büdcə nizam-intizamı, inflyasiyanın cilovlanması və borc yükünün azaldılması kimi daha konservativ siyasət yanaşmasını şərtləndirir. Digər tərəfdən, strateji ehtiyatların artırılması həm fiskal, həm də monetar məhdudiyyətlər yaradır. Buna görə də bir neçə mühüm faktoru qeyd etmək zəruridir.

**İlk növbədə,** büdcə qaydalarına daha yaxın parametrlərin təmin edilməsi orta müddətli dövrdə neft qiymətlərinin fonunda büdcə dayanıqlılığının qorunması üçün vacibdir. Bu isə xərclərin çevik şəkildə uyğunlaşdırılması, sosial və investisiyayönümlü xərclər arasında tarazlığın qorunması deməkdir. 2026-cı ilin büdcəsində sosialyönümlü xərclərin yenə prioritet olması müşahidə edilir.

Lakin bununla paralel şəkildə, iqtisadi artımı dəstəkləyən infrastruktur və biznes mühitinin yaxşılaşdırılması layihələrinə də investisiyaların yönəldilməsi vacibdir. Bir mühüm parametr isə inflyasiyanın idarə edilməsidir. Bu baxımdan 2026-cı ildə dövriyyədə olan pul kütləsinin müəyyən qədər məhdudlaşdırılması, monetar alətlərin daha səmərəli tətbiqi və idxaldan asılılığın azaldılması istiqamətində işlərin gücləndirilməsi zəruridir.

**İkinci əsas yön,** sözsüz ki, sürətli iqtisadi artımın təmin edilməsi və iqtisadi sektorların genişləndirilməsidir. Burada xüsusilə infrastruktur layihələrinin icrası, nəqliyyat-tranzit sektorunun rolunun artırılması, özəl investisiyaların cəlbi və əlbəttə ki, qeyri-neft ixracının genişləndirilməsi böyük əhəmiyyət daşıyır.

**Üçüncü strateji hədəf** isə postneft dövrü üçün zəruri olan iqtisadi dayanıqlılığın təmin edilməsidir. Bu kontekstdə Dövlət Neft Fondundan büdcəyə transfertlərin tədricən azaldılması, valyuta ehtiyatlarının artırılması, manatın dayanıqlılığının qorunması və suveren fondların fəaliyyətinin genişləndirilməsi əsas prioritetlər kimi çıxış edir.

Perspektivdə Azərbaycanın bu üç hədəfə necə nail ola biləcəyinə gəldikdə isə, ilk növbədə, qeyri-neft sənayesinin inkişafı, emal sektorunun gücləndirilməsi, logistika sahəsinin genişləndirilməsi və "yaşıl enerji"nin payının artırılması vacib istiqamətlərdir. Rəqəmsal iqtisadiyyatın inkişafı yeni dəyər zəncirlərinin formalaşmasına geniş imkanlar açmalıdır. Bu istiqamətlər üzrə Dövlət proqramları və investisiyaların artırılması diqqət mərkəzində saxlanmalıdır.

### *Ekspert rəyi*



**Eldəniz ƏMİROV,**
**iqtisadçı-ekspert**

Sabit makroiqtisadi mühit və sosial-iqtisadi artım dedikdə olduqca sıx birləşdirici amillər nəzərdə tutulur. Sadəcə, strateji ehtiyatların təmin olunmasına ciddi diqqət ayrılmalıdır. O ki qaldı, dövlət büdcəsinin tənzimlənməsi məsələsinə, əsas məsələ layihənin necə göründüyü yox, onun daxilində nəzərdə tutulan müddəaların və proqnozlaşdırılan göstəricilərin 2026-cı ilin 31 dekabr tarixinədək - yəni ilin sonunadək - tam və effektiv şəkildə icra olunmasıdır. Bu səbəbdən büdcə qanunu elə hazırlanmalıdır ki, 2026-cı ildə layihənin icrası həm mümkün, həm də səmərəli olsun və ölkənin strateji hədəfləri ilə uyğunsuzluq yaratmasın.

Başqa sözlə, büdcənin məzmunu real, icraolunan və milli inkişaf hədəflərinə müvafiq şəkildə formalaşdırılmalıdır. Bir məqamda var ki, 2026-cı ilin dövlət büdcəsinin xərcləri və gəlirləri 2025-ci illə müqayisədə ciddi şəkildə arta bilmədi. Son illərin ən aşağı artım göstəricisi müşahidə olundu — təxminən 0,7 faiz. Dövlət büdcəsinin xərclərində heç vaxt bu qədər aşağı artım qeydə alınmamışdı və bu, ən çox diqqətçəkən məqamlardan biridir.

Bəs bu vəziyyət nədən qaynaqlandı? Əsas sual budur və məncə, bunun arxasında birbaşa olaraq neft faktoru dayanır. Neft hasilatının azalması və neft qiymətlərinin aşağı düşməsi nəticə etibarilə büdcə gəlirlərinə təzyiq göstərdi və xərclərin kəskin artmasına imkan vermədi. Rəqəmlər və proqnozlar üzərində böyük göstəricilər yazmaq mümkündür, amma sonda əsas məsələ onların icra edilə bilməsidir. Buna görə də düşünürəm ki, təqdim olunan dövlət büdcəsi layihəsi ölkədə mövcud makroiqtisadi şəraitə uyğun şəkildə formalaşdırılıb.

# Azərbaycan Dünya Külək Enerjisi Konfransında

**Azərbaycan Çin Xalq Respublikasının Şantou şəhərində keçirilən 22-ci Dünya Külək Enerjisi Konfransında təmsil olunur.**

Bu barədə Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyindən məlumat verilib. Bildirilib ki, konfransda ölkəmizdən agentliyin direktor müavini Rəna Hümbətova və Maliyyə şöbəsinin müdiri Rəqsanə Paşayeva iştirak edirlər.



Məlumata görə, konfrans çərçivəsində Qlobal Külək Enerjisi Bazarının İnkişafı və Trendləri, Böyük Ölçülü Külək Turbin Texnologiyaları və Külək Resursları Texnologiyaları mövzusunda forumlar təşkil olunur. Konfransın sonrakı günlərində Külək Enerjisində Süni İntellekt Tətbiqləri və İpək Yolunda Külək Enerjisi Əməkdaşlığı mövzularında forumlar, o cümlədən Qlobal Külək Enerjisi Sektorunun Tarixçəsinin Arxivləşdirilməsi üzrə Beynəlxalq Əməkdaşlıq İşçi Seminarının keçirilməsi planlaşdırılır.

Bundan əlavə, Çin şirkətləri və Çin Külək Enerjisi Assosiasiyasının nümayəndələri ilə görüşlərin keçirilməsi, külək enerjisi üzrə yeni texnologiyaların və idarəetmə təcrübələrinin öyrənilməsi məqsədilə "4 in 1" Dəniz Külək Enerjisi Avadanlıqları İstehsal Sənaye Parkına səfərin təşkil edilməsi nəzərdə tutulur.

***XQ***

# "Azərbaycan Zəfəri" kosmosa çıxarılıb

## *Ölkənin ilk mini-peykini paytaxt məktəbliləri hazırlayıblar*

**Ölkə tarixində ilk dəfə "Azərbaycan Zəfəri" məktəbli peyki orbitə çıxarılıb. Peyki Bakıdakı 297 nömrəli məktəbin şagirdləri hazırlayıblar. Kosmik aparatı orbitə "SpaceX" şirkətinin "Falcon 9" raketi buraxıb. "PocketQube" tipli, ölçüsü 5x5x5 sm, çəkisi isə təxminən 250 qr olan bu peyklər möhkəm materiallardan (alüminium ərintiləri, karbon kompozitlər) hazırlanır ki, bu da həm mexaniki davamlılığı, həm də istilik idarəetməsini təmin edir.**




Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Kosmik Agentliyin ("Azərkosmos") nəzdindəki KOSMİK Akademiyanın rəhbəri İmran Muxtarov peykin buraxılmasına həsr edilmiş brifinqdə bildirib ki, bu buraxılış Avstriyaya məxsus "UniSat-5" platforması vasitəsilə həyata keçirilib və layihə çərçivəsində bir neçə minipeyk, o cümlədən "WREN" (Almaniya), "T-LogoQube" (ABŞ) və "QBScout-1" (İtaliya) peykləri orbitə yerləşdirilib. Bu konsepsiya yalnız texnoloji tərəqqinin məhsulu deyil, həm də kosmosun hamıya aid olduğu ideyasının bir növ simvoludur.

**"Azərkosmos"dan XQ-yə bildirdilər ki, Azərbaycanın ilk mini-peyki Kaliforniyadakı Vandenberq Kosmik Qüvvələr Bazasından uğurla orbitə göndərilib:**

– KOSMİK Akademiyanın "Milli Peyk İnnovasiya" müsabiqəsi çərçivəsində 7–9-cu sinif şagirdləri tərəfindən hazırlanan "PocketQube" tipli peyk artıq kosmosdadır. Azərbaycanın Vətən müharibəsində əldə etdiyi zəfərin 5 illiyinə həsr olunan bu peykin adı da "Azərbaycan Zəfəri"dir. Bu qürurverici layihə ölkənin təhsil və innovasiya ekosistemində tarixi dönüş nöqtəsi hesab olunur. Azərbaycanın 41 məktəbindən 672 şagirdin iştirak etdiyi proqram regionda məktəblilər arasında həyata keçirilən ən geniş kosmik təşəbbüslərdən biri kimi qeyd olunur. Zəfər peyki 297 nömrəli məktəbin şagirdləri tərəfindən hazırlanıb. Layihə gənc nəsildə vətənpərvərlik ruhunu, yaradıcı düşüncəni və texnoloji marağı birləşdirən hadisə kimi dəyərləndirilir.

**Layihədə iştirak edən şagirdlərlə də həmsöhbət olduq. Vaqif Osmanov bildirdi ki, layihəyə qoşulmağı tamamilə təsadüfi olub:**

– Layihə haqqında eşitdim, maraqlı gəldi və iştirak etdim. Müraciət prosesinə də adi yanaşmışdım, amma layihə ilə yaxından tanış olduqca maraqlı bir mühit və öyrənmək üçün böyük imkanlar olduğunu gördüm. Kosmosa marağım əvvəldən vardı, sadəcə peşə kimi düşünmürdüm. Bu layihə ilə bu maraq daha da gücləndi və özümü bu sahədə sınamaq imkanı qazandım. Peyk hazırlamaq mənim üçün böyük təcrübə oldu. Ölkəmiz üçün belə bir işin içində olmaq qürurvericidir. Yeni şeylər öyrəndim, komanda ilə işləməkdən zövq aldım və proses ərzində özümü həm həyəcanlı, həm də motivasiyalı hiss etdim.



**Layihənin digər iştirakçısı Nicat Cümşüdlü qeyd etdi ki, texnologiya sahəsində həmişə aktiv olub və bu sahəyə ciddi maraq göstərir:**

– Bu layihəni görəndə düşündüm ki, bu, mənim üçün ideal imkandır. Layihəyə qatıldım və ən yaxşı iştirakçılar arasında yer aldım. Bu proses mənim üçün həm maraqlı, həm də motivasiyaedici oldu. Maraq əvvəldən var idi. Ümumiyyətlə, texnologiya və kosmos mövzuları ilə çoxdan məşğulam və bu sahədə ən yaxşı şagirdlərdən biri kimi tanınıram. Hətta hazırda "STEP IT Academy"də təhsil alıram. Layihə isə bu marağı daha da gücləndirdi və mənə real təcrübə qazandırdı.



Peyk hazırlamaq mənim üçün böyük bir addımdır. Bu həm özümü inkişaf etdirmək, həm də bildiklərimi real layihədə tətbiq etmək imkanı verdi. Özümü həm həyəcanlı, həm də qürurlu hiss edirdim, çünki bu proses göstərdi ki, düzgün yoldayam və qarşıma qoyduğum məqsədlərə çata biləcək gücdəyəm.

**Layihənin daha bir iştirakçısı Harun Adgözəlov isə dedi:**

– Bu layihə haqqında ilk dəfə məlumatı görəndə maraq oyandı və düşündüm ki, niyə də sınamayım? Hər şey bir növ macəra kimi başladı və proses irəlilədikcə daha çox həvəs yarandı. Əvvəldən bu sahəyə marağım olub. Layihəyə qoşulandan sonra bu maraq daha da ciddi istiqamət aldı və artıq bu mövzunu daha dərindən öyrənmək istəyi yarandı. Peyklə bağlı işlərdə iştirak etmək mənim üçün yeni bir təcrübə və özümü sınamaq imkanı oldu. Bir tərəfdən çətin idi, digər tərəfdən isə çox motivasiya verirdi. Hər addımda nəsə yenilik öyrənirdim və bu proses özümə inamı artırdı. Ümumilikdə, həm maraqlı, həm də qürurverici bir təcrübə kimi yadda qaldı.



Sonda qeyd edək ki, məktəblilərin belə mühüm uğura imza atmaları ölkə adına böyük qürur mənbəyidir. Bu hadisə gənc nəslin vətənə necə bağlı olduğunu göstərir. Həmçinin onların elmi-təcrübi araşdırmalara və müasir texnologiyalara olan böyük marağı da xüsusi vurğulanmalıdır. Məktəblilərin hazırladıqları "Azərbaycan Zəfəri" peykinin orbitə buraxılması gənclərin innovativ ideyalarının gerçək layihələrə çevrilə bildiyini sübut edir. Bu da öz növbəsində ölkədə formalaşan yeni kosmik mədəniyyətin əsasını qoyur.

***Musa BAĞIRLI***
***XQ***

# Qlobal inflyasiya və ərzaq təhlükəsizliyi

## *Çağırışlar, reallıqlar və strateji cavablar*

**Son 2 ildə dünya iqtisadiyyatı ciddi sınaqlardan keçdi. Qlobal tədarük zəncirlərindəki gərginlik, enerji bazarlarında qiymət şokları və geosiyasi qarşıdurmalar yeni inflyasiya dalğası yaradaraq bütün regionlarda ərzaq qiymətlərinə ciddi təsir göstərdi. Bu proseslər Azərbaycan bazarında da özünü kəskin büruzə verdi və hökumətin iqtisadi siyasətində ərzaq təhlükəsizliyi prioritet kimi diqqət çəkdi.**



Hazırda həm beynəlxalq dinamikanı, həm də ölkədaxili struktur amilləri dərindən təhlil edərək qiymət artımının səbəblərini, ərzaq idxalından asılılığın risklərini, yerli istehsalın gücləndirilməsi zərurətini və dövlətin strateji yanaşmalarını qiymətləndirmək son dərəcə mühüm önəm daşıyır. Bunun üçün, ilk növbədə, inflyasiya dalğasının mənbələrinə nəzər salmaq kifayətdir.

Xatırladaq ki, son 2 ildə inflyasiyanın dünya üzrə yüksəlişi bir neçə paralel amillərdən qaynaqlanıb. Onlardan biri enerji bazarlarında yaşanan qeyri-sabitlik olub və bu, neft, qaz və elektrik kimi enerji daşıyıcılarının qiymətlərində dünya üzrə kəskin artım baş verərkən müşahidə edilib. Bu artım kənd təsərrüfatı istehsalının maya dəyərinə birbaşa təsir göstərərək, aqrar məhsulların həm istehsal, həm də daşınma xərclərini yüksəldib.

Son illər ərzaq təhlükəsizliyinə tədarük zəncirlərinin pozulması da mənfi təsir göstərib. Buna misal olaraq qeyd edə bilərik ki, pandemiya dövründə limanların qismən bağlanması, nəqliyyat infrastrukturunda gecikmələr, konteyner çatışmazlığı kimi problemlər dünyada keyfiyyətli ərzaq məhsullarının bazarlara çıxışını çətinləşdirib. Bu vəziyyət isə qlobal ərzaq təklifinin məhdudlaşmasına və qiymətlərin yüksəlməsinə gətirib çıxarıb. Bundan başqa, xüsusilə, Avrasiya məkanında baş verən siyasi qarşıdurmalar iri ərzaq ixracatçısı ölkələrin bazarlara çıxışını məhdudlaşdırıb. Bu, özünü taxıl, günəbaxan yağı, şəkər və digər strateji məhsullar üzrə qlobal təkliflərin əhatə dairəsinin daralmasında göstərib.

Qlobal miqyasda baş verən quraqlıqlar və iqlim dəyişiklikləri də ərzaq təhlükəsizliyinə mənfi təsir edib. BMT-nin aqrar hesabatlarına görə, dünya üzrə 2023–2025-ci illərdə qeydə alınan quraqlıq nəticəsində məhsuldarlıq aşağı düşüb. Bu isə qlobal ərzaq qiymətlərinin daha da bahalaşmasını şərtləndirib. Sadalanan bu amillər nəticəsində dünyada ərzaq qiymət indeksləri rekord səviyyəyə yüksəlib. Azərbaycanın ərzaq idxalından müəyyən dərəcədə asılılığı isə bu dalğanın daxili bazarda daha kəskin hiss edilməsi ilə nəticələnib.



### İdxaldan asılılıq və qiymət dinamikası

Azərbaycan kimi inkişaf etməkdə olan ölkələrdə qlobal ərzaq bazarlarındakı dəyişikliklərə daha həssas reaksiya nəzərə çarpır. Bu həssaslığın bir neçə səbəbi var. Əvvəla, bu gün Azərbaycanın bəzi strateji ərzaq məhsullarında idxaldan asılılığı 30-60 faiz arasında dəyişir. Xüsusilə taxıl, şəkər, bitki yağları və bəzi növ tərəvəzlər üzrə xarici tədarük həlledici rol oynayır. Beynəlxalq qiymətlər yüksəldikcə, idxal xərcləri də artır və bu, tədricən daxili pərakəndə bazara ötürülür.

Bu məsələdə daşınma və logistik xərclərin artması da, necə deyərlər, öz sözünü deyir. Belə ki, ölkəmizin coğrafi yerləşməsi əlverişli olsa da, idxal məhsullarının böyük hissəsi uzaq regionlardan gətirilir. Nəqliyyat xərcləri artdıqca, məhsulun son qiymətinə ciddi təsir göstərir.

Dünya bazarında dolların möhkəmlənməsi də ərzaq idxalını bahalaşdıran amillərdən biridir. Hər hansı kiçik valyuta dəyişməsi belə ərzaq qiymətlərində hiss olunan dalğalanmalara səbəb olur. Bu məsələdə yerli istehsalın struktur məhdudiyyətləri də təsirsiz ötüşmür. Son illərdə kənd təsərrüfatında mühüm irəliləyişlər əldə olunsa da, aqrar sektorun bəzi sahələrində məhsuldarlıq hələ də beynəlxalq standartlardan aşağıdır. Suvarma, gübrə, toxum və texnika təminatındakı müəyyən problemlər yerli istehsalın maya dəyərini yüksəldir və xarici məhsullarla rəqabəti çətinləşdirir.

Onu da qeyd edək ki, idxaldan asılılıq yalnız qiymət artımları baxımından deyil, həm də milli təhlükəsizlik kontekstində risk yaradır. Bu səbəbdən son illərdə Azərbaycan hökuməti aqrar sektorda struktur dəyişikliklər həyata keçirməyə başlayıb. Aqroparkların genişləndirilməsi ərzaq istehsalının sənaye üsulu ilə aparılmasına və məhsuldarlığın artırılmasına müsbət təsir göstərib. Təkcə son 5 ildə ölkədə onlarla aqropark istifadəyə verilib. Dövlət subsidiyalarının və kənd təsərrüfatının dəstəklənməsi də diqqət mərkəzində saxlanılıb. Elektron Subsidiya Sistemi əsasında kənd təsərrüfatında şəffaf subsidiyalaşma mexanizminin tətbiqi fermerlərin istehsal xərclərini azaldıb və məhsuldarlığı yüksəldib.

Respublikada meliorasiya və suvarma layihələrinin həyata keçirilməsinin diqqətdə saxlanılması da kənd təsərrüfatının inkişafını sürətləndirib. Ölkədə yeni su ehtiyatlarının idarə olunması strategiyası qəbul edilib, çox sayda su kanalı yenilənib və alternativ suvarma üsullarının (damcı suvarma və s.) təşviqinə önəm verilib. Su resurslarının səmərəli istifadəsi də məhsuldarlığın artmasına səbəb olub.

Yerli toxumçuluğun inkişafı da yeni mərhələyə yüksəlib. Bu mərhələdə strateji əhəmiyyətli toxum sortlarının yerli istehsalı çoxalıb. Bununla da həm xarici asılılıq azalıb, həm də məhsulun adaptasiya qabiliyyəti güclənib. Sənaye heyvandarlıq və quşçuluq təsərrüfatları genişləndirilib. Protein təlabatını yerli istehsal hesabına gerçəkləşdirmək üçün yeni iri komplekslərin yaradılmasına başlanıb. Bu sahənin dirçəldilməsi ilə idxaldan asılılıq minimuma endirilib.



Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən aqrar islahatlar bu gün kənd təsərrüfatının inkişafını daha da sürətləndirir və bu məqsədlə dövlət tərəfindən çox böyük dəstək layihələri gerçəkləşdirilir. Bunun nəticəsində fermerlərin həyat səviyyəsi getdikcə yüksəlir, aqrar sahənin dayanıqlı inkişafı təmin edilir.

Qeyd edək ki, 30 il işğal altında qalmış Azərbaycan torpaqları minalanıb, su mənbələri çirkləndirilib, ətraf mühitə böyük ziyan vurulub. Azərbaycan torpaqlarını işğaldan azad etdikdən sonra həmin ərazilərdə genişmiqyaslı bərpa və yenidənqurma işlərinin həyata keçirilməsinə başlanılıb. Məqsəd isə bu ərazilərin aqrar potensialından səmərəli istifadə etmək, dağıdılmış kənd təsərrüfatı infrastrukturunu yenidən qurmaq və bu torpaqlara yeni həyat bəxş etmək olub. Bu prosesdə ən müasir aqrar innovasiyaların tətbiqi diqqətdə saxlanılıb.

Yeri gəlmişkən, Azərbaycan iqtisadiyyatının əsas sahələrindən biri olan kənd təsərrüfatı respublikamızın ərzaq təhlükəsizliyinin gerçəkləşdirilməsində, eləcə də iqtisadi inkişafın təşviqində mühüm rol oynayır. Bununla bərabər, ölkədə aqrar sektorun yeni qabaqcıl texnologiyalar əsasında inkişaf etdirilməsi istiqamətində həyata keçirilən layihələr də mühüm önəm daşıyır. Bu baxımdan respublikada torpaq və su ehtiyatlarının məhdud olması şəraitində kənd təsərrüfatında qarşıya qoyulan əsas vəzifələrdən biri də məhsuldarlığı artırmaqla daha böyük istehsal həcmləri yaratmaqdan ibarətdir.

Azərbaycanda hazırda taxılçılıq regionlarında 15 min hektara qədər sahədə innovativ texnologiyalar tətbiqi, rəqəmsal həllərə üstünlük verilməsi məhsuldarlığın və səmərəliliyin artmasına müsbət təsir göstərir. Bu, eyni zamanda, əkin vaxtının dəqiq müəyyənləşdirilməsinə, lazımi gübrələrdən geniş istifadə olunmasına, torpağın nəmliyinin saxlanılmasına və məhsul yığımı üçün optimal vaxta nəzarət etməyə imkan verir.

### Strateji ehtiyatların artırılması

Prezident İlham Əliyevin vurğuladığı kimi, ərzaq təhlükəsizliyi ölkənin milli təhlükəsizlik strategiyasının vacib hissəsidir. Bu baxımdan dövlətin son illərdə həyata keçirdiyi proqramlar sistemli yanaşmanın mövcud olduğunu göstərir. Eyni zamanda, ərzaq ehtiyatlarının saxlanması infrastrukturunun genişləndirilməsi qlobal bazarda baş verən şokların təsirini amortizasiya etməyə imkan verir.

Respublikamız ənənəvi idxal bazarları ilə yanaşı, digər ölkələrlə də əlaqələrini genişləndirir. Bu, həm qiymət risklərini azaldır, həm də tədarükün davamlılığını gerçəkləşdirir. Aqrar sektor yalnız daxili tələbatı ödəmək üçün deyil, həm də ixrac üçün strateji sahəyə çevrilir. Bu, kənd təsərrüfatının kommersiya potensialını artırır, investisiya cəlbediciliyini gücləndirir.

Fermerlər üçün rəqəmsal xəritələşdirmə, məhsuldarlıq proqnozlaşdırılması və elektron xidmətlər aqrar idarəetmənin səmərəliliyini yüksəldir. Bu, həm itkiləri azaldır, həm də istehsalın optimallaşdırılmasına şərait yaradır.

Lakin bu sahədə çətinliklər də var. Belə ki, ölkə iqtisadiyyatının mühüm dayaqlarından biri olan aqrar sektor uzun illərdir həm məşğulluğun təmin edilməsində, həm də ərzaq təhlükəsizliyinin qorunmasında xüsusi rol oynayır. Bununla belə, kənd təsərrüfatı sahəsində məhsuldarlığı və gəlirliliyi artırmaq üçün aradan qaldırılması vacib olan ciddi struktur boşluqlar mövcuddur. Bu boşluqlar təkcə iqtisadi nəticələr doğurmur, həm də regionların sosial inkişafına, əhalinin həyat səviyyəsinə və miqrasiya balansına birbaşa təsir göstərir.



Aqrar sektorun əsas xüsusiyyətlərindən biri onun mövsümi xarakteridir. Kənd təsərrüfatı işləri ilin cəmi bir neçə ayında intensiv olur, qalan dövrdə isə fəaliyyət zəifləyir. Bu isə ailələr üçün sabit və yetərli gəlir mənbəyi formalaşdırmır. Mövsümi məşğulluq həm işçinin sosial təminatını zəiflədir, həm də kənddə daimi iqtisadi fəallığı gerçəkləşdirə bilmir. Nəticədə insanların böyük qismi əlavə gəlir mənbəyi tapmaqda çətinlik çəkdiyindən şəhərə üz tutur.

Onu da deyək ki, torpaq islahatlarından sonra ölkədə çoxsaylı xırda ailə təsərrüfatları formalaşdı. Bu təsərrüfatlar kənd yerlərində sahibkarlığın əsasını təşkil etsə də, onların kiçik ölçülü olması istehsal gücünü məhdudlaşdırır. Ailə təsərrüfatlarının böyük qismi öz işçi tələbatını özü ödəyir, əlavə əmək qüvvəsinə ehtiyac duymur. Bu isə aqrar rayonda məşğulluq imkanlarının genişlənməsinə mane olur və iqtisadi fəaliyyətin miqyasını kiçik saxlayır.

### Qiymətlərin sabitləşdirilməsi

Son illər dünyada formalaşan geosiyasi gərginliklər, tədarük zəncirlərində fasilələr və enerji qiymətlərində dəyişkənlik qlobal inflyasiya səviyyəsini tarixi maksimumlara çatdırıb. Bu proseslər daha çox kiçik və açıq iqtisadiyyatları, o cümlədən Azərbaycan kimi xarici ticarətə inteqrasiya olunmuş ölkələri təsirləndirir. Xüsusilə ərzaq və gündəlik istehlak mallarında yaranan bahalaşma əhalinin sosial rifahına təzyiq göstərir. Hökumətin məqsədi isə bu təzyiqin yükünü minimuma endirmək, sosial tarazlığı qorumaq və iqtisadi sabitliyi təmin etməkdir.

Azərbaycanda qiymət artımlarının sosial təsirlərini yumşaltmaq üçün bir sıra mexanizmlər tətbiq olunur. Məsələn, ƏDV-nin bəzi məhsullar üzrə sıfırlanması davamlı həyata keçirilir. Bu addım ərzaq bazarında bahalaşmanı aşağı salır. Bundan başqa, idxal rüsumlarının müvəqqəti azaldılması ilə rəqabət mühiti gücləndirilir. Eyni zamanda, süni qiymət artımının qarşısı alınır, bazarda şəffaflıq təmin edilir. Ünvanlı sosial yardım və minimum əməkhaqqının artırılması da inflyasiya şoklarının əhalinin alıcılıq qabiliyyətinə təsirini zəiflədir.

Beləliklə, qlobal inflyasiya dalğası son 2 ildə bütün ölkələr üçün ciddi çağırışlar yaradıb. Azərbaycanın bəzi qida məhsullarında idxaldan asılılığı bu təsirləri daha aydın hiss etdirib. Lakin son illərdə Azərbaycanın ərzaq təhlükəsizliyi sahəsində atdığı strateji addımlar – aqroparkların yaradılması, suvarma sistemlərinin yenilənməsi, subsidiya mexanizmlərinin təkmilləşdirilməsi, ehtiyatların artırılması və təchizat zəncirinin diversifikasiyası ölkənin uzunmüddətli ərzaq dayanıqlığını gücləndirib.

İnflyasiya dalğaları keçici ola bilər, amma ərzaq təhlükəsizliyi daimi diqqət tələb edən strateji məsələdir. Azərbaycan da bu yanaşmanı əsas götürərək milli istehsalın artırılması, idxalın əvəzlənməsi və aqrar sahədə innovasiyaların tətbiqi istiqamətində ardıcıl siyasət yürüdür. Nəticə etibarilə ölkə həm daxili bazarın sabitliyini reallaşdırır, həm də gələcəkdə regional ərzaq mərkəzinə çevrilmək üçün möhkəm təməl yaradır.

Bu çərçivədə Azərbaycan hökumətinin inflyasiyaya qarşı formalaşdırdığı siyasət həm fiskal, həm institusional, həm də sosial müdafiə elementlərini özündə birləşdirir. ƏDV-nin sıfırlanması və ya güzəştlərin tətbiqi, ilk növbədə, istehlakçıya yönəlmiş bir mexanizmdir. Bu addımın effektivliyi bazar monitorinqi və rəqabət mühitinin gücləndirilməsi ilə daha da artmış olur. Qiymət artımlarının yalnız bazar amilləri ilə yox, bəzən də inhisarçılıqla bağlı olduğu nəzərə alınarsa, dövlətin antikollektiv fəaliyyət mexanizmlərini genişləndirməsi xüsusi əhəmiyyət kəsb edir.

Digər mühüm istiqamət gəlirlərin artırılmasıdır. Minimum əməkhaqqının mərhələli şəkildə yüksəldilməsi, sosial müavinətlərin indeksasiyası və ünvanlı sosial yardım mexanizminin genişləndirilməsi inflyasiya təzyiqinin kompensasiyasında sosial siyasətin əsas dayağıdır. Bu siyasətin mühüm üstünlüyü ondan ibarətdir ki, məhz aztəminatlı qrupa yönəldiyi üçün resurslardan daha səmərəli istifadə imkanı yaradır.

Ərzaq təhlükəsizliyi sahəsində görülən işlər isə qiymət sabitliyinin uzunmüddətli əsasını təşkil edir. Aqroparkların fəaliyyəti müasir idarəetmə, vahid infrastruktur, səmərəli suvarma və logistika imkanları təqdim edir ki, bu da daxili istehsalın həcmini artırır. Subsidiya mexanizmlərinin elektronlaşdırılması və şəffaflaşdırılması fermerlərin motivasiyasını artırmaqla yanaşı, məhsuldarlığın yüksəlməsinə gətirib çıxarır.

Bütün bunlarla yanaşı, Azərbaycan təchizat zəncirinin etibarlılığını artırmaq üçün müxtəlif ölkələrlə tərəfdaşlıq formatlarını genişləndirir. Bu, xüsusən qlobal bazarda qeyri-sabitlik artdığı bir dövrdə strateji əhəmiyyət daşıyır. Alternativ idxal mənbələrinin yaradılması xarici şokların təsirini xeyli azaldır.

Nəticə etibarilə, inflyasiya təkcə iqtisadi məsələ deyil, həm də sosial rifaha təsir edən geniş spektrli prosesdir. Azərbaycanın tətbiq etdiyi kompleks siyasət bu istiqamətdə həm qısamüddətli, həm də uzunmüddətli həll mexanizmlərinin uzlaşmasını təmin edir. Bu model gələcəkdə ölkənin sosial-iqtisadi dayanıqlığının mühüm tərkib hissəsi olaraq qalacaq.

***Vaqif BAYRAMOV***
***XQ***

*Prezident tələb qoyub*

**Regionların dinamik inkişafı, bununla bağlı genişmiqyaslı layihələrin həyata keçirilməsi ölkəmizin iqtisadi gücünün, həmçinin siyasi qüdrətinin artmasını şərtləndirən əsas amillərdəndir. Bu inkişafın davamlılığının təmin edilməsi isə bölgələrdə vətəndaşların sosial rifah halının yüksəldilməsi, onların problemlərinin dinlənilməsi və qanunvericiliyin tələbləri çərçivəsində aradan qaldırılması, ədalətlilik prinsiplərinin qorunması ilə birbaşa bağlıdır.**

# Qəbullara əlçatanlıq və vətəndaş məmnunluğu

*Ağdam rayonunda bu yöndə davamlı və səmərəli iş aparılır*





Prezident İlham Əliyevin 2025-ci il noyabrın 12-də Naxçıvanda Prezidentin yeni səlahiyyətli nümayəndəsini və bir sıra rayonların icra hakimiyyətlərinə təyin olunan başçıları qəbul edərkən çıxışında vurğuladığı kimi: "Mən hər dəfə bölgələrə rəhbər vəzifələrə şəxsləri təyin edəndə verdiyim tapşırıqlar onlar üçün əsas iş prinsipləri olmalıdır - ilk növbədə xalqa xidmət etmək, xalqla bir yerdə olmaq".

## Vətəndaş müraciətinə fərdi yanaşma

Dövlət başçısının xalq–məmur münasibətlərinin düzgün qurulması ilə bağlı tələblərinin icrası Ağdam rayonunda da hər zaman diqqətdə saxlanılır, vətəndaşların müraciətlərinə baxılması, onların qəbulunun təşkili, qaldırdıqları problemlərin həlli üçün zəruri addımların atılması rayon rəhbərliyinin prioritet fəaliyyət istiqamətlərindən birini təşkil edir.

Bu sahədə görülən davamlı işlərlə bağlı söhbətimizdə rayon icra hakimiyyətinin başçısı Vaqif Həsənov bildirdi ki, müraciət edən hər bir vətəndaşa fərdi yanaşmaq, ilk növbədə, onların problemlərini yaradan səbəbləri aradan qaldırmağa çalışmaq lazımdır:





– Əgər hansısa sakin bizə müraciət edirsə, deməli, onun nəyəsə ehtiyacı var, hansısa çətinliklə üzləşib. Odur ki, həmin vətəndaşı diqqətlə dinləməklə yanaşı, ona öz doğman kimi baxmalısan, fərqli xarakterə malik insanların müxtəlif məzmunlu problemlərini aradan qaldırmaq üçün mütləq fərdi yanaşmalısan. Belə olanda vətəndaş da ürəklə, çəkinmədən dərdini deyir və həll olunacağına inanır.

Ağdamın Birinci Qarabağ və Vətən müharibəsində verdiyi şəhidlərin, qazilərin sayını nəzərə alsaq, az qala rayon əhalisinin yarısı imtiyazlı ailələrin üzvləridir. Hər zaman nəzərə alırıq ki, onlara qayğı və diqqət göstərmək lazımdır".

## Rəqəmlər nə deyir?

Ağdamda sakinlərinin müraciətlərinə baxılması, onların problemlərinin dinlənilməsi və həlli ilə bağlı görülən işlərin statistikası ürəkaçandır. Üstəlik, bu statistika müasir qanunvericiliyin tələblərinə uyğun olaraq vahid elektron informasiya sistemində də əksini tapır və icrası nəzarətdə saxlanılır.

Qurumdan "Xalq qəzeti"nə verilən məlumata görə, 2025-ci ilin 10 ayı ərzində Ağdam RİH başçısı aparatına 1984 müraciət daxil olub. Bu müraciətlərin 1563-ü, yəni 78.7 faizi bilavasitə rayon əhalisi tərəfindən edilib. Ümumi müraciətlərin 1177-si qısa müddətdə həll olunub ki, bu da müraciətlərin 60 faizinin öz həllini tapması deməkdir.

Rayon rəhbərinin vətəndaşlar üçün hər həftənin 3-cü günü RİH-in inzibati binasında qəbulu, əhali ilə əlaqələrin davamlılığının təmin etmək məqsədilə isə əvvəlcədən tutulmuş qrafik əsasında hər həftənin 5-ci günü rayonun ayrı-ayrı yaşayış məntəqələrində, eyni zamanda, ayda bir dəfə məcburi köçkünlərin sıx məskunlaşdıqları Bakı şəhərində səyyar görüş-qəbulları keçirilir. Şəhid ailələri, Qarabağ müharibəsi əlilləri, veteranları və digər imtiyazlı şəxslər hər gün növbədənkənar qəbul olunurlar. Həmçinin rayon rəhbərliyi mütəmadi olaraq şəhid ailələri və qazilərlə onların evlərində görüşlər keçirir, problemləri yerində öyrənilir.

Cari ilin 10 ayında yerlərdə keçirilən 39 səyyar görüş-qəbullarda 3387 vətəndaş iştirak edib, 152 nəfər müxtəlif sahələri əhatə edən məsələlər qaldırıb. Əhalini narahat edən problemlər, onların təklifləri qeydə alınaraq həlli istiqamətində mümkün olan məsələlərin icrası təmin edilib, RİH tərəfindən həlli mümkün olmayan məsələlər barəsində isə müvafiq dövlət qurumlarına rəsmi müraciətlər olunub.

## Sakinlər nə istəyirlər?

Vətəndaş müraciətləri əsasən birdəfəlik maddi yardımların verilməsi, Vətən müharibəsi zamanı təmas xəttində yerləşən yaşayış məntəqələrində zərər dəymiş evlərin təmiri, məcburi köçkünlərə yemək xərci – vahid aylıq müavinətin ödənilməsi, məcburi köçkünlərin evlə təmin olunması, məşğulluq və sosial müdafiə məsələləri, içməli və suvarma suyuna olan ehtiyacın ödənilməsi üçün yeni subartezian quyularının qazılması, torpaq sahəsi ilə təmin olunmaqla bağlıdır.

Bununla yanaşı, işğaldan azad edilmiş ərazilərə qayıdış və qeydiyyata düşmə, vətəndaşların işğaldan azad edilmiş ərazilərdə ata-baba yurdlarını ziyarət etmələrinə, orada olan qəbiristanlıqların təmizlənməsinə şərait yaradılması, şəhid ailələrinin və Qarabağ müharibəsi əlillərinin mənzillə təmin olunmaq, şəhid adlarının əbədiləşdirilməsi, əlillik dərəcələrinin təyin edilməsi və digər mövzularda müraciətlər də üstünlük təşkil edir.

## Rəhbərliyin cavab tədbirləri

Rayon rəhbərliyi tərəfindən bütün müraciətlər diqqətlə dinlənilərək müvafiq tədbirlər görülür. Belə ki, vətəndaşlar tərəfindən daxil olan kollektiv müraciətlər daha çox kəndarası yolların təmiri, rayonun mövcud ərazisində təbii su mənbələrinin olmaması səbəbindən vətəndaşların əkin sahələrinin suvarılmasında su çatışmazlığının aradan qaldırılması və içməli su ilə təmin olunmaq üçün suvarma və içməli subartezian quyularının qazılması ilə bağlı olub.

Qaldırılan kollektiv müraciətlərdən bəziləri, məsələn, kəndarası yolların çəkilməsi rayonun daxili imkanları hesabına həll edilib, eyni zamanda, dövlət əhəmiyyətli yolların çəkilməsi, yeni subartezian quyularının qazılması, məcburi köçkünlərin mənzil şəraitinin yaxşılaşdırılması məqsədi ilə müvafiq dövlət və hökumət orqanlarına müraciət olunub.

Vətəndaşların problemlərinin həlli istiqamətində aidiyyəti qurumların rəhbərləri ilə birlikdə lazımi tədbirlərin görülməsi davam etdirilir.

Əhalinin maddi yardıma ehtiyacı olan təbəqəsinin problemləri də imkan daxilində qarşılanır. Qəbullar zamanı müraciət etmiş aztəminatlı ailələrin mənzil şəraitinin yaxşılaşdırılması məqsədilə onlara tikinti materialları verilib, maddi yardımlar edilib.

Hesabat dövründə rayonun Ergi qəsəbəsində layihədən kənar qalmış ərazilərə də (17 yaşayış məntəqəsi) rabitə xətti çəkilib və beləliklə, rayonun bütün yaşayış məntəqələri yüksəksürətli rabitə və internet xətti ilə tam təmin olunub. Həmçinin işğaldan azad olunmuş Xıdırlı, Kəngərli və Sarıcalı kəndlərində də rabitə və internet çəkilişi başa çatdırılıb.

Qərvənd kəndində keçirilən səyyar görüş-qəbul zamanı kənd sakinlərinin əkin sahələrinin suvarılması üçün istifadə olunan subartezian quyusunun elektrik xəttinə qoşulmasına köməklik göstərilməsi barədə qaldırdığı məsələ yerində həll edilib, quyu elektrik xəttinə qoşularaq vətəndaşların istifadəsinə verilib.

Görülən işlər sırasına Mirəşelli kəndində vətəndaşın həyatına gedən içməli su xətti bərpa olunması, Quzanlı köçkün qəsəbəsində şəhid atası Əhmədov Eldar İsa oğlunun evinin və hasarının təmiri, İkinci Alıbəyli qəsəbəsində zərərvericilərə və həşəratlara qarşı dezinfeksiya işlərinin aparılması, Mərzili kənd sakini 1-ci qrup əlilə əlil arabasının verilməsi, Gülbaharlı kəndinə gedən avtomobil yolunun səthində yaranmış çalaların asfalt-beton qarışığı ilə təmiri, Sarıcalı kəndi ərazisində kəndarası 3 km uzunluğunda yolun çınqıl və şebellə düzəldilməsi də daxildir.

Səyyar qəbullar zamanı edilmiş müraciətlərə əsasən, RİH tərəfindən, həmçinin Təzəkənd qəsəbəsində qəsəbədaxili yollarda, Hacıməmmədli kənd qəbiristanlığına gedən yolda, Birinci Baharlı qəsəbəsində gedən 1.5 km yolda təmir işləri aparılıb, Quzanlı qəsəbəsi ərazisində daxili küçələrdə yollar tam asfaltlanaraq vətəndaşların istifadəsinə verilib. Birinci Baharlı qəsəbəsində yaşayan Gülablı kənd sakini, şəhid anası Abbasova Limunə Hüseyn qızının müraciəti də diqqətə alınaraq yaşadığı küçəyə gedən yola çınqıl tökülərək təmir olunub.

Eyni zamanda, Birinci Alıbəyli qəsəbəsində fəaliyyəti dayandırılmış poçt filialının bərpa olunması üçün RİH tərəfindən "Azərpoçt" MMC-yə, rayon ərazisində olan məcburi köçkün qəsəbələrinin su xəttinin yenilənməsi üçün isə Dövlət Su Ehtiyatları Agentliyinə müvafiq müraciətlər edilib.

Görülən işlər qeyd olunanlarla yekunlaşmır. Belə ki, qəbullar zamanı müraciət etmiş vətəndaşların, xüsusilə də şəhid ailələrinin, əlillərin, müharibə veteranlarının, eləcə də imkansız şəxslərin müxtəlif problemlərinin həll edilməsi məqsədilə RİH tərəfindən ümumilikdə 10 min manata yaxın maddi yardımlar olunub. Həmçinin rayonun Baş Güneypəyə kənd sakini, Birinci Qarabağ müharibəsi zamanı itkin düşmüş, şəhid Novruzov Əsəddin Curu oğlunun və Əhmədağalı ərazisində minaya düşərək vəfat edən Birinci və İkinci Qarabağ müharibələrinin iştirakçısı, Xanı ləqəbli Əhmədov Səyyaf Fiqan oğlunun dəfn mərasimləri və qəbirüstünün götürülməsi RİH tərəfindən təşkil edilib.

Şəhid ailələrinin çoxsaylı müraciətlərini nəzərə alaraq, rayon rəhbərliyi tərəfindən Quzanlı qəsəbəsində yerləşən Şəhidlər Xiyabanının yaxınlığında 2024-cü ilin aprel ayında təməli qoyulan mərasim evi 2025-ci il sentyabrın 27-də - şəhidlərimizin Anım Günündə istifadəyə verilib.

Ağdamda sakinlərin problemlərinin həlli, onların müraciətlərinin dinlənilməsi və qayğılarına həssaslıqla yanaşılması istiqamətində işlər davam etdirilir.

***Mahir RƏSULOĞLU,***
***XQ-nin Qarabağ müxbiri***

*Sağlamlıq*

# İnsanlar niyə xərçəng xəstəliyinə tutulurlar?

**Xəstələnmək riskini minimuma endirmək üçün xərçəngin necə inkişaf etdiyini anlamaq, xroniki iltihabın qarşısını almaq, mitoxondriləri dəstəkləmək, həyat tərzi vərdişlərini tənzimləmək və bədənin təbii müdafiəsini gücləndirmək lazımdır.**



"Heç vaxt xərçəngə tutulmamaq" mümkündürmü? Elmi cavab budur ki, mütləq zəmanət yoxdur, lakin riski əhəmiyyətli dərəcədə azaltmağın sübut edilmiş yolları var. Bu gün araşdırmalar xərçəngi "bir yaramaz hüceyrə" xəstəliyi kimi deyil, bütün bədən toxumasının dəyişdiyi bir vəziyyət kimi təsvir edir: Metabolizm pozulur, xroniki iltihab artır, immunitet sistemi zəifləyir və hüceyrənin elektrik stansiyaları olan mitoxondriyalar optimal şəkildə fəaliyyətini dayandırır.

Mitoxondriya zədələndikdə, oksidləşdirici stres yüksəlir, hüceyrələrin bərpa qabiliyyəti azalır, hüceyrə ölüm mexanizmləri (apoptoz) pozulur və bioloji mühit bədxassəli dəyişikliklər üçün daha əlverişli olur. Buna görə də xərçəng riskini azaltmaq üçün müasir yanaşma maddələr mübadiləsini, immunitet müdafiəsini, bədənin təmizləmə sistemlərini və iltihab balansını dəstəkləyir.

Xərçəng hüceyrələr genetik mutasiyaya məruz qaldıqda, hüceyrə bölünməsi və ölümü üzərində nəzarəti itirdikdə inkişaf edir. Siqaret çəkmək, normadan artıq emal olunmuş qida, havanın çirklənməsi, artıq çəki, xroniki stres və ya genetik meyil kimi faktorlar zərərin yığılma ehtimalını artırır. Hüceyrə metabolizmasında baş verən dəyişikliklər də xərçəngin normal enerji yollarını "yanlamasına", sürətlə böyüməsinə və immun sistemindən yayınmasına səbəb olur. Buna görə də bədənin ətraf mühiti - tək hüceyrə deyil - xəstəliyin inkişafında mərkəzi amildir.

Xərçəngin mürəkkəbliyinə baxmayaraq, zamanla şəkər və ağ un kimi işlənmiş qidaları azaltmaqla riskləri azaltmaq olar.

Bir çox tədqiqatlar göstərir ki, işlənmiş qidalarla zəngin bir pəhriz iltihabı, metabolik yükü və insulin müqavimətini artırır - bunların hamısı daha yüksək xərçəng riski ilə əlaqələndirilir. Bu qidalar qan şəkəri və insulin səviyyəsini kəskin şəkildə yüksəldərək anormal hüceyrə artımını dəstəkləyən mühit yaradır.

Emal edilmiş məhsulların əhəmiyyətli dərəcədə azalması daha "təmiz" daxili zəmin yaradır - daha az iltihab, qaraciyərə daha az yük və mitoxondriyaya daha az stress.

Hazırda profilaktik tibbdə müzakirə edilən mexanizmlərdən biri mitoxondrial effektivliyin artırılmasıdır. Fasiləli oruc və azaldılmış karbohidratlı qidalanma qanda şəkərin kəskin dəyişməsini azaldır, hüceyrə təmizləmə mexanizmlərini (autofagiya) aktivləşdirir və xroniki iltihabı azaldır.

Bədən enerji sistemlərini "bərpa edir" və hüceyrə zədələnməsinin öhdəsindən gəlmək qabiliyyətini yaxşılaşdırır. Hər kəs həddindən artıq pəhriz səviyyələrinə uyğun gəlmir, lakin hətta yemək pəncərəsini daraltmaq və qidalanmanı keyfiyyətli zülallar, sağlam yağlar və tərəvəzlərə əsaslandırmaq faydalıdır. Bununla yanaşı, meyvə və tərəvəzlər, ədviyyatlar və dərman bitkilərinin istifadəsi də bu xəstəliyə qarşı mühüm rol oynayır.

Bədəndə oksidləşdirici yükün azaldılması mitoxondriya və DNT-nin zədələnməsinin qarşısını alır. Zerdeçal, yaşıl çay, rozmarin, brokoli, giləmeyvə və polifenollarla zəngin otlar kimi qidalar iltihabı azaltmağa və qaraciyərin detoksifikasiya yollarını yaxşılaşdırmağa kömək edir. Bitkilərlə zəngin pəhriz bədənin zədələnmiş hüceyrələri məhv etmək, mutasiyaların qarşısını almaq və immunitet sistemini düzgün aktivləşdirmək qabiliyyətini artırır. Hərəkətə əsaslanan həyat tərzinə keçmək, fiziki fəaliyyəti artırmaq, günəş, təmiz hava və nəfəs almaq mühüm amillərdən biridir.

Gündəlik fiziki fəaliyyət qan axını artırır, mitoxondrial sıxlığı artırır və immunitet sistemini gücləndirir. Nəzarət olunan günəşə məruz qalma D vitamininin istehsalına kömək edir – iltihabın azaldılmasında və immun funksiyasının dəstəklənməsində mühüm komponentdir. Havalandırma, dərin nəfəs alma və keyfiyyətli yuxu toxumaların oksigenləşməsini yaxşılaşdırır və ətraf mühitin toksinlərinə məruz qalmasını azaldır.

Bədəndə həddindən artıq dəmir DNT zədələnməsinə səbəb olan oksidləşdirici reaksiyaları sürətləndirə bilər. Çoxları həddindən artıq yüksək ferritin səviyyələrinin zərərli ola biləcəyini bilmir. Sadə bir qan testi pəhriz düzəlişlərinin və ya qan donorluğuna ehtiyac olub-olmadığını göstərə bilər.

Eyni zamanda, xroniki infeksiyalara, yüksək stres hormonlarına, zəif yuxuya və həzm funksiyasının pozulmasına - bütün uzunmüddətli riskə təsir edən amillərə diqqət yetirilməlidir.

***Hazırladı:***
***Vüsalə BAYRAMOVA***

*Süleyman Allahverdiyev – 75*

**Dərin biliyi, yorulmaz tədqiqat əzmi və elmi nailiyyətləri ilə beynəlxalq aləmdə tanınan azərbaycanlı alimlərdən biri də akademik Cəlal Əliyevin elmi məktəbinin görkəmli yetirməsi, fotosintez tədqiqatları sahəsində dünyada tanınmış alim Süleyman İfxan oğlu Allahverdiyevdir. Onun elmi fəaliyyəti yalnız Azərbaycan və Rusiya elmi mühitinin deyil, bütövlükdə qlobal bioloji tədqiqatların inkişafına dərin təsir göstərmişdir.**

# Dünya şöhrətli Azərbaycan bioloqu

## *Soydaşımız fotosintez elminə dəyərli töhfələr vermişdir*

Rusiya Federasiyasının Əməkdar elm xadimi, Rusiya Elmlər Akademiyasının Fundamental Biologiya Problemləri İnstitutunun baş elmi işçisi, K.Timiryazev adına Bitki Fiziologiyası İnstitutunun idarəolunan fotobiosintez laboratoriyasının müdiri və baş elmi işçisi kimi nüfuzlu elmi vəzifələri uzun illər böyük məsuliyyətlə daşıyan alim fotosintezin molekulyar mexanizmləri, işıq enerjisinin bioloji sistemlərdə idarəolunan çevrilməsi və bioenergetikanın tətbiqi sahəsində dünya elminə fundamental töhfələr vermişdir.

Süleyman Allahverdiyev, eyni zamanda, Azərbaycan elmində xüsusi çəkisi olan alimlərdəndir. O, uzun illər AR ETN Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunda fəaliyyət göstərən bionanotexnologiyalar beynəlxalq laboratoriyasının rəhbəri kimi ölkədə müasir biomolekulyar tədqiqatların inteqrasiyası və qlobal elmi məkana açılması, həmçinin müvafiq istiqamətdə milli elmi kadrların hazırlanması prosesində mühüm rol oynamışdır.

Fizika-riyaziyyat elmləri namizədi, biologiya elmləri doktoru, Rusiya EA-nın müxbir üzvü kimi yüksək elmi statuslara sahib olan Süleyman Allahverdiyev həm fundamental bilikləri, həm də geniş beynəlxalq əməkdaşlıq təcrübəsi ilə seçilən, müasir biologiya elminin inkişaf tendensiyalarını yönəldə bilən alimlərdəndir. Onun çoxşaxəli elmi irsi fotosintezin molekulyar səviyyədə öyrənilməsi, bioloji sistemlərin enerji səmərəliliyinin artırılması və nano-biotexnologiyaların tətbiqi kimi strateji sahələrdə mühüm nəzəri və praktiki əhəmiyyət daşıyır.

Süleyman İfxan oğlu Allahverdiyev 1950-ci il avqustun 1-də Qərbi Azərbaycanın qədim Qaraqoyunlu dərəsinin Çaykənd kəndində dünyaya gəlmişdir. Atası Allahverdiyev İfxan Məmmədkərim oğlu və anası Alıyeva Aşa Hüseyn qızı Çaykənd kolxozunda müxtəlif işlərdə çalışmışlar. Göyçə gölünün təmiz havası, onun ətrafındakı təbiətin zənginliyi və dağların əzəməti gələcək böyük alimin xarakterinin formalaşmasına, dünyagörüşünün genişlənməsinə və təbiət hadisələrinə dərindən maraq duymasına özünəməxsus təsir göstərmişdir. Uşaqlıq illərindən elmi maraq, müşahidəçilik və öz üzərində çalışma qabiliyyəti ilə seçilən Süleyman Allahverdiyev sonralar Azərbaycan və dünya elminə parlaq töhfələr verən alim kimi tanınacaqdı.



Alim 1973-cü ildə Bakı Dövlət Universitetinin fizika fakültəsini bitirərək burada klassik təhsilin, nəzəri düşüncənin və analitik yanaşmanın möhkəm bünövrəsini qazanmışdır. Fizika sahəsində aldığı fundamental biliklər onun gələcək elmi fəaliyyətinin, xüsusən fotosintez kimi mürəkkəb biofiziki proseslərin tədqiqinin əsasını təşkil etmişdir. Universiteti bitirdikdən sonra ilk əmək fəaliyyətinə doğma kəndi Çaykənddə Bala Əfəndiyev adına orta məktəbdə fizika müəllimi kimi (1973-1977) başlaması təhsilə və gənc nəslə bağlılığını nümayiş etdirməklə yanaşı, onun mülayim xarakterinin, maarifçilik ruhunun və ictimai məsuliyyət hissinin təcəssümü hesab edilə bilər.

Elmi axtarışlara böyük marağı olan Süleyman Allahverdiyev 1977-ci ildə Azərbaycan SSR KTN-nin Əkinçilik İnstitutunda akademik Cəlal Əliyevin rəhbərlik etdiyi bitki fiziologiyası laboratoriyasında biofizik kimi elmi işə başlamışdır.

Soydaşımızın elmi potensialı, tədqiqatçılıq maraqları və yeni kəşflərə aparan daxili enerjisi daha geniş elmi mühit tələb edirdi. Məhz bu amil onu XX əsrin ikinci yarısında SSRİ-də fotosintez tədqiqatlarının mərkəzi sayılan Puşşino şəhərinə – SSRİ Elmlər Akademiyasının Fotosintez İnstitutuna gətirmişdir. Burada o, dünya səviyyəli alimlərin əhatəsində elmi axtarışlarını davam etdirmiş, biofizika, molekulyar biologiya və enerji çevrilmələri kimi sahələrdə dərin nəzəri biliklər və eksperimental təcrübə qazanmışdır. Puşşino elmi şəhərciyində keçən bu illər Süleyman Allahverdiyevin elmi taleyinə həlledici təsir göstərmiş, onun gələcək inkişafına öz möhürünü vurmuşdur.

1984-cü ildə SSRİ Elmlər Akademiyasının Biofizika İnstitutunda biofizika üzrə namizədlik dissertasiyasını müdafiə edən və fizika-riyaziyyat elmləri namizədi elmi dərəcəsinə layiq görülən Süleyman Allahverdiyev elmi axtarışlarını daha da dərinləşdirərək akademik mühitdə böyük nüfuz qazanmışdır. Dissertasiya işi onun fotosintezin fiziki və kimyəvi mexanizmləri sahəsində apardığı fundamental tədqiqatların ilk ciddi mərhələsi olmuşdur.

Lakin alim bununla kifayətlənmək fikrində deyildi. Artıq 2002-ci ildə Rusiya Elmlər Akademiyasının Timiryazyev adına Bitki Fiziologiyası İnstitutunda "Bitkilərin fiziologiyası və biokimyası" ixtisası üzrə biologiya elmləri doktoru elmi dərəcəsini alaraq fotosintez elminin ən mürəkkəb istiqamətlərində aparıcı mütəxəssis kimi formalaşmışdır.

Onun fədakar elm yolunun bu mərhələsi təsadüfi olmamışdır. Süleyman Allahverdiyev öz tədqiqatlarını XX əsr biofizikasının və fotosintez elminin nəhəngləri hesab edilən akademik A.A.Krasnovski və professor V.V.Klimov kimi dünya şöhrətli alimlərin rəhbərliyi altında aparmışdır. Krasnovski işıq enerjisinin bioloji sistemlərdə udulması və çevrilməsi mexanizmlərinin öyrənilməsində, Klimov isə fotosistem 2-nin atom və molekul səviyyəsində araşdırılmasında dünya elminin ən yüksək zirvələrindən birini təmsil edirdilər. Belə müəllimlərin elmi məktəbindən keçmək həm böyük məsuliyyət, həm də inkişaf üçün geniş imkanlar yaradırdı.

Həmyerlimiz bu məktəbin ən istedadlı yetirmələrindən biri kimi artıq 1990-cı illərdən etibarən postsovet məkanında fotosintez sahəsində ən nüfuzlu tədqiqatçı kimi tanınmağa başladı. Bu gün onun elmi nəticələri təkcə Azərbaycan elminin deyil, bütün postsovet elmi mühitinin qürur mənbəyidir. Alimin fotosistem 2 üzrə apardığı tədqiqatlar xüsusilə önəmlidir. O, elektron-nəqliyyat zəncirinin ilkin mərhələlərini, enerji çevrilmə proseslərini, işıq kvantlarının kimyəvi enerji formalarına transformasiyasının kinetik mexanizmlərini ilk dəfə sistemli şəkildə izah edən tədqiqatçılardandır.

Bu araşdırmalar fotosintez haqqında klassik təsəvvürlərin genişlənməsinə, molekulyar bioenergetikanın yeni istiqamətlərinin formalaşmasına və bioloji sistemlərdə enerji effektivliyinin artırılması istiqamətində innovativ konsepsiyaların yaranmasına ciddi təsir göstərmişdir. Süleyman Allahverdiyevin fotosistem 2 üzrə əldə etdiyi nəticələr bu gün də beynəlxalq elmi dairələrdə istinad olunan fundamental işlərdən hesab olunur.

Alimin fotosistem 2 (FS-2) üzərində apardığı tədqiqatlar fotosintezin ilkin fotokimyəvi reaksiyalarının mexanizminin dəqiq izahında mühüm mərhələ hesab olunur. Onun elmi nəticələri sübut etmişdir ki, FS-2-də elektronların ötürülməsində əsas vasitəçi rolunu oynayan molekullardan biri — feofitin (Pheo) — donor (xüsusilə P680*) və akseptor molekulları (plastoxinon sistemi) arasında kritik körpü funksiyası yerinə yetirir.

Feofitinin birinci elektron qəbulu mərhələsində rolu, onun enerji səviyyələri və kinetik parametrləri Süleyman Allahverdiyevin iştirakı ilə aparılmış eksperimental tədqiqatlar nəticəsində daha dəqiq müəyyənləşdirilmişdir. Bu kəşf fotosintezin ilkin mərhələləri haqqında mövcud elmi təsəvvürləri genişləndirmiş və prosesin kinetik modellərinin formalaşdırılmasına ciddi töhfə vermişdir.

Süleyman Allahverdiyevin rəhbərliyi altında FS-2-də oksigen ayıran kompleksin (Oxygen-Evolving Complex, OEC) tərkibi və fəaliyyət mexanizmi də əhəmiyyətli dərəcədə dəqiqləşdirilmişdir. Xüsusilə, bu kompleksin əsasını təşkil edən dörd manqan atomundan ibarət $Mn_4$-klasterin fotooksidləşmə mərhələlərində iştirakı, su molekullarının oksidləşərək oksigen ayrılmasına gətirib çıxaran ardıcıl S-dövrü reaksiyaları alim tərəfindən aparılmış araşdırmalar sayəsində molekulyar səviyyədə təsvir edilmişdir. Bu tədqiqatlar fotosintez biologiyasının ən etibarlı mənbələri olan beynəlxalq səviyyəli dərsliklər, monoqrafiyalar və ixtisaslaşmış tədris materialları tərəfindən əsas biliklər kimi qəbul olunmuşdur.

Dünya şöhrətli alim yalnız klassik fotosintez mexanizmlərinin tədqiqi ilə kifayətlənməyərək, XXI əsrin ən strateji istiqamətlərindən olan bioenergetika və süni fotosintez sahələrinə də mühüm töhfələr vermişdir. Onun rəhbərliyi altında aparılan işlərdə təbii fotosintez zülallarının, xüsusilə reaksiya mərkəzləri və işıq yığan komplekslərin struktur və funksional xüsusiyyətlərindən istifadə olunaraq süni işıq-enerji çeviricilərinin yaradılması istiqamətində fundamental nəticələr əldə olunmuşdur.

Bu araşdırmaların mühüm istiqamətlərindən biri də molekulyar hidrogenin ($H_2$) fotoinduksiya olunmuş sintezi üçün biomimetik sistemlərin işlənməsidir. Belə sistemlərdə zülal-nanohissəcik kompleksləri işıq enerjisinin hidrogenin alınmasına yönləndirilməsi üçün yüksək potensial yaradır. Bu yanaşma alternativ enerji texnologiyalarının inkişafında, xüsusilə karbon neytrallığı və davamlı inkişaf strategiyalarının həyata keçirilməsində böyük perspektivlər vəd edir.

Əminliklə demək olar ki, Süleyman Allahverdiyevin tədqiqatları həm fundamental biologiyanın dərin nəzəri məsələlərini həll etmiş, həm də gələcəyin enerji arxitekturasında mühüm rol oynayacaq texnoloji platformaların elmi əsaslarını formalaşdırmışdır.

Görkəmli bioloqun elmi fəaliyyəti yalnız Azərbaycan və Rusiya ilə məhdudlaşmır; o, dünyanın 40-dan çox ölkəsini əhatə edən geniş beynəlxalq elmi əməkdaşlıq şəbəkəsinin aparıcı simalarından biridir. Onun elmi nüfuzu fotosintez, bioenergetika və biomimetik texnologiyalar üzrə qlobal tədqiqat mərkəzləri ilə uzunmüddətli və səmərəli əməkdaşlıq əlaqələrinin qurulmasına və inkişaf etdirilməsinə imkan yaratmışdır.

Alim Kanada, Yaponiya, Koreya, Sinqapur, Türkiyə, Hindistan, Fransa, Almaniya və Avstraliya kimi elmi potensialı yüksək ölkələrdə baş tədqiqatçı və dəvətli alim kimi fəaliyyət göstərmiş, həmçinin müxtəlif beynəlxalq qrant proqramlarına rəhbərlik edərək müasir biologiya elminin inkişafına böyük töhfələr vermişdir.

Tanınmış azərbaycanlı alim Kanadanın Kvebek (Trois-Rivières) şəhərində yerləşən Kvebek Universitetinin Kimya və biologiya fakültəsində professor Robert Carpentier ilə birgə apardığı tədqiqatlarla da elmi ictimaiyyət arasında böyük nüfuz qazanmışdır. 1988-1990-cı illəri əhatə edən bu əməkdaşlıq biofiziki proseslərin kinetik təhlili, fotosistemlərin işıq-stres şəraitində davranışı və fotosintezin səmərəliliyinin molekulyar səviyyədə qiymətləndirilməsi kimi istiqamətlərdə ciddi nəticələrlə yadda qalmışdır.

Süleyman müəllimin elmi bioqrafiyasında xüsusilə Yaponiyadakı uzunmüddətli fəaliyyəti diqqət çəkir. O, 1990-2007-ci illərdə Yaponiyanın Okazaki şəhərində yerləşən Milli Fundamental Biologiya İnstitutunda (NIBB) professor Morio Murata ilə birlikdə çalışmışdır. Bu institut Asiyanın ən güclü struktur və funksional biologiya mərkəzlərindən biri olmaqla, fotosintezin molekulyar mexanizmləri üzrə aparılan tədqiqatların qlobal miqyasda koordinatoru hesab olunur.

Süleyman Allahverdiyev burada işıqtoplayan komplekslərin və fotosistem 2-nin struktur-funksional əlaqələrinin öyrənilməsi, yüksək həssas spektroskopiya metodlarının tətbiqi və yeni eksperimental yanaşmaların hazırlanması sahəsində mühüm nailiyyətlər əldə etmişdir. Alim İspaniyanın aparıcı tədqiqat mərkəzlərində də fəaliyyət göstərərək membrandaxili elektron ötürülməsi və işıqla induksiya olunan reaksiyaların dinamikası üzrə yeni elmi nəticələr əldə etmişdir. Onun Avropa və Asiyanın müxtəlif laboratoriyalarında formalaşdırdığı elmi əlaqələr fotosintez və biomimetik texnologiyalar üzrə beynəlxalq konsorsiumların yaranmasına təkan vermişdir.



Süleyman Allahverdiyev qlobal elmi ictimaiyyət tərəfindən yüksək qiymətləndirilən, beynəlxalq miqyasda tanınmış tədqiqatçılarla sıx əməkdaşlıq edən azsaylı alimlərdəndir. Onun dünya elmi mərkəzləri ilə qurduğu əməkdaşlıqlar fotosintez biofizikası, bioenergetika və süni fotosintez sahələrində bir sıra fundamental nəticələrin əldə olunmasına şərait yaratmışdır. Bu əməkdaşlıqlar təkcə birgə layihələrlə məhdudlaşmamış, həm də yeni elmi metodologiyaların formalaşmasına, problemlərin qlobal yanaşma ilə araşdırılmasına imkan vermişdir.

Süleyman Allahverdiyevin beynəlxalq elmi nüfuzunun mühüm göstəricilərindən biri də dünyanın ən qabaqcıl elmi jurnallarının redaksiya heyətlərində təmsil olunmasıdır. O, "Photosynthesis Research", "Biochimica et Biophysica Acta – Bioenergetics" (BBA-Bioenergetics), "International Journal of Hydrogen Energy", "Heliyon", "Functional Plant Biology" və digər yüksək impakt-faktorlu jurnalların redaktoru və redaksiya heyətinin üzvü kimi müasir biologiya elminin inkişafında fəal iştirak edir. Bu jurnallar fotosintez, molekulyar bioenergetika, hidrogen texnologiyaları və bitki fiziologiyası sahələrində aparıcı beynəlxalq platformalar hesab olunur.

Azərbaycan oğlu bu gün yalnız fundamental tədqiqatları ilə seçilən aparıcı alim deyil, həm də yüksək ixtisaslı elmi kadrların hazırlanmasında mühüm xidmətləri olan nüfuzlu pedaqoqdur. Onun elmi məktəbinin formalaşması, tədqiqat mədəniyyətinin inkişafı və yeni nəsil biofiziklərin yetişməsi müasir biologiya elminin vacib mərhələlərindən biri kimi dəyərləndirilir.

Yenilikçi alimin rəhbərliyi altında bir neçə elmlər doktoru və elmlər namizədi (fəlsəfə doktoru) hazırlanmış, onların bir çoxu hazırda müxtəlif ölkələrin elmi-tədqiqat institutlarında, universitetlərində və tətbiqi laboratoriyalarında fəaliyyət göstərərək fotosintez, bioenergetika, nanobiotexnologiyalar və biomimetik sistemlər üzrə tədqiqatlarını uğurla davam etdirirlər. Süleyman Allahverdiyevin yetirmələri beynəlxalq konfranslarda, yüksək impakt-faktorlu jurnallarda çıxışları ilə seçilir və müasir eksperimental biologiyanın qabaqcıl metodlarını mənimsəmiş mütəxəssislər kimi dünyada tanınırlar.

Süleyman Allahverdiyev fotosintez və bioenergetika sahələrinin qlobal elmi məkanında ən yüksək nüfuza malik tədqiqatçılardan biridir. O, 500-ə qədər elmi məqalənin, 7 ixtiranın və 12 kitabın müəllifidir. Alimin Hirş indeksi 89, i10 indeksi 351, elmi əsərlərinə istinad sayı 33880-dən yuxarıdır.

Azərbaycan elminin yetirməsi fotosintez tədqiqatları üzrə dünyanın ən nüfuzlu alimlərinin sırasına daxildir. Alim fotosintez sahəsində dünya elminin ən nüfuzlu araşdırıcıları sırasında yer aldığını bir daha təsdiqləyən möhtəşəm bir göstəriciyə imza atmışdır. O, Highly Ranked Scholars (ScholarGPS) beynəlxalq reytinqinin nəticələrinə əsasən, fotosintez üzrə fəaliyyət göstərən dünyanın ən nüfuzlu tədqiqatçılarının top 0,05 faizlik siyahısına daxil edilmişdir.

Beynəlxalq elmi ictimaiyyətdə geniş tanınan və yüksək nüfuza malik alim olaraq, Süleyman Allahverdiyev elmi fəaliyyətini dünyanın müxtəlif aparıcı tədqiqat mərkəzlərində uğurla davam etdirmişdir. O, indiyədək 40-dan çox ölkədə, o cümlədən Avstraliya, Fransa, Hollandiya, Almaniya, Sinqapur, İsveç, Çexiya, Macarıstan, Türkiyə, Hindistan və digər elmi potensialı yüksək ölkələrdə dəvətli aparıcı tədqiqatçı və ya elmi məsləhətçi kimi fəaliyyət göstərmişdir.

Bu təcrübə ona yalnız fotosintez və bioenergetika sahəsində fundamental biliklərini zənginləşdirmək imkanı verməmiş, həm də müxtəlif elmi məktəblərin metodologiyalarını birləşdirən multidissiplinar tədqiqat yanaşmasının formalaşmasına şərait yaratmışdır. Dünyanın aparıcı universitetlərində və tədqiqat institutlarında onun mühazirələri fotosintezin biofiziki əsasları, işıq-enerji çevrilməsinin kvant mexanizmləri, oksigen ayıran kompleksin strukturu, biohidrogen enerjisinin perspektivləri və bionanotexnologiyaların müasir tətbiqləri kimi elmi ictimaiyyət üçün strateji əhəmiyyət kəsb edən mövzuları əhatə etmişdir.

Hazırda Süleyman Allahverdiyev Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin Molekulyar Biologiya İnstitutu PHŞ-ində öz elmi fəaliyyətini davam etdirir. Burada onun rəhbərliyi altında fotosintezin molekulyar mexanizmləri, süni fotosintez sistemlərinin yaradılması, biohidrogen enerjisinin əldə olunması və nanomaterialların bioloji sistemlərlə qarşılıqlı təsiri kimi strateji əhəmiyyətli istiqamətlər üzrə fundamental və tətbiqi tədqiqatlar aparılır.

Görkəmli azərbaycanlı alimin çoxsaylı beynəlxalq məruzələri və geniş auditoriyalara yönəlmiş mühazirələri həm fundamental biologiya, həm də alternativ enerji sahələrində yeni elmi ideyaların yayılmasına və qlobal elmi bilik dövriyyəsinin zənginləşməsinə mühüm töhfələr vermişdir.

Bütün mənalı ömrünü vətəndən uzaqlarda – dünyanın müxtəlif elmi mərkəzlərində yalnız elmə və elmi həqiqətin axtarışına həsr etmiş Süleyman Allahverdiyev bu nəcib missiyası ilə həm Azərbaycan elminin şöhrətini yüksəltmiş, həm də beynəlxalq elmi ictimaiyyətə nümunə göstərilən nadir tədqiqatçılardan birinə çevrilmişdir.

Akademik Cəlal Əliyev məktəbinin tanınmış nümayəndəsi hansı ölkədə çalışmasından asılı olmayaraq, hər zaman Azərbaycan elmi məktəbinin mədəniyyətini, intelektual ənənələrini və məsuliyyətini yüksək səviyyədə təmsil etmiş, fotosintez və bioenergetika sahələrində qazandığı möhtəşəm nailiyyətlərlə adını dünya elminin ön sıralarına yazdırmışdır.

Əlamətdar yubiley münasibətilə hörmətli həmyerlimizi səmimi-qəlbdən təbrik edir, ona hər şeydən əvvəl, möhkəm cansağlığı, uzun və mənalı ömür, yeni elmi kəşflər və davamlı yaradıcılıq enerjisi arzulayırıq. Elmə həsr edilən bu ömür yolunun bundan sonra da daha böyük nailiyyətlərlə zəngin olacağına inamımız sonsuzdur.

***İradə HÜSEYNOVA,***
***AMEA-nın vitse-prezidenti,***
***AR ETN Molekulyar Biologiya İnstitutunun direktoru, akademik***

*Bəxtiyar Vahabzadə - 100*

# “Dar ağacı”nda “göyərən” günah

**Xalq şairi və dramaturq Bəxtiyar Vahabzadənin 100 illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 21 fevral 2025-ci il tarixli Sərəncamına uyğun olaraq Şəki Dövlət Dram Teatrı şairin “Dar ağacı” pyesinə yeni səhnə həyatı bəxş edib. Tamaşa dekabrın 2-də Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında nümayiş olundu.**



“Dar ağacı”nda baş verən əsas konflikt iki şəxs arasında davam etdirilir. Bir xətt üzrə hadisələrin cərəyanı zahirən Azərbaycanla xilafətin, yadellilərin mübarizəsində öz əksini tapır. İslamın yaşıl bayrağı altında çıxış edən Akşini doğma vətənin taleyi düşündürmür, onu yalnız ərəb xilafətinin göstərişləri, verdiyi əmrlər maraqlandırır. Ərəb xilafətinə qarşı döyüşən Sabutay isə əmisi Aqşinin əksidir. Onun Azərbaycanın azadlığı uğrunda yadelli işğalçılara qarşı apardığı mübarizə bütün əsər boyu davam edir. Hadisələr yalnız iki nəfərə aid deyil, iki ideya, məfkurə arasında gedən mübarizədir.

Pyesin gedişatında Sabutayın güclü müqaviməti ilə üzləşirik. O, Akşinin iradəsini sındırır. Aktyor Rəşid Mirizadə öz rolunu ifa edərkən səhnəyə hakim olmağı bacarır və tamaşaçının rəğbətini qazanır.

Əsərdə yadelli işğalçının, qəsbkarın bir “sağ ol”una görə vətəninə xor baxan Akşinin taleyi faciə ilə qurtarır. O, öz aldanışını hiss edir və onun daxili iztirabları, qəzəbi, hikkəsi aktyor Xəyal Salahov tərəfindən ustalıqla canlandırılır. Bu obraz əsərin əsas ideyasına xidmət edir və hadisələr də məhz Akşinin üzərində qurulur.

Vaxtilə akademik Yaşar Qarayev tamaşadakı Akşin obrazı haqqında yazırdı: “Akşinin müsibəti adi aldanışın, yaxud nəfisin insanı (sərkərdəni, hökmdarı) qəflətən düçar etdiyi şəxsi müsibət deyildir. Akşinin müsibətinin ictimai kökü sosial əsəbi xalqın taleyindən gəlib keçir, Vətənin, torpağın taleyində əks olunur. Yurdun təkcə torpağı, sərvəti yox, namusu da talanır: Karvan-karvan el malı, dəstə-dəstə qız-gəlin Bağdada xilafət səltənətinə ruhani ataya kəniz göndərilir”.

Şərtiliklə tarixilik arasında qarşılıqlı münasibətlərin şairin “Fəryad” mənzum dramında büllurlaşan məzmunu və nisbəti öz ifadəsini hələ “Dar ağacı”nda tapır.

Müəllifi tarixi mövzuya gətirib çıxaran bədii niyyətin orijinallığı və təzə-tərliyi də ilk dəfə burada özünü göstərmişdi. Belə ki, bu pyesdə Babək xatırlanır, talelərə və əməllərə onun ruhu və qəhqəhələri ilə yekun vurulur, lakin süjetin əyani gedişi prosesində onun özü yox, teyfi iştirak edirdi.

Şairin tarixi faciə janrında qələmə aldığı “Dar ağacı” pyesi məzmunca çox maraqlı və ibrətamizdir. Xalq qəhrəmanı yadelli işğalçılara qarşı 20 illik mübarizə aparan Babəkin edam edilməsindən sonra Azərbaycanda cərəyan edən azadlıq mübarizəsi əsərin ana xəttini təşkil edir. Bu pyesin vaxtilə səhnəyə qoyulması məsələsi mübahisələrə səbəb olsa da, əsər B.Vahabzadənin tarixi mövzuda yazdığı pyeslər sırasında əlahiddəliyi ilə diqqəti cəlb edir.



Tamaşanın quruluşçu rejissoru, Əməkdar incəsənət xadimi Mirbala Səlimli əsərə fərqli quruluş verib və əsas odur ki, tamaşaçı nəfəsini içinə çəkib sona qədər hadisələri izləyir, həyəcanlanır, duyğulanır, hisslər burulğanına düşür. Milli genetikanın səltənətə qurban verilməsi faciə ilə sonuclanır. Bu müdhiş həqiqətin ekzistensial kodunu açmaq üçün səhnədə dar ağacları qurulub. Amma yaxşı olardı ki, bir neçə deyil, yalnız bir dar ağacı qurulardı və o da tamaşa boyu səhnədə görünməzdi, tamaşaçı onu yalnız finalda görsəydi, təsir gücü daha da artardı. Hər halda, quruluşçu rəssam Nicat Məmmədovun bu barədə düşünməsini istərdim. Sonda taxt-tacın dar ağacına çevrilməsi uğurlu tapıntıdır. Tamaşanın emosional, eyni zamanda, gərgin qayəsi quruluşçu rəssamın zövqlü səhnə tərtibatı ilə bir-birini tamamlayır. Fikir və duyğu balansı taxt ilə dar ağacı arasında qütbləşmə yaradıb ki, bu, estetik baxımdan da son dərəcə effektiv təsir doğurur.

Akşinin dəhşətli sirrinin faş olması, qızı Çılğınla aralarındakı dialoq onu göstərir ki, bu taxt-tac hərisliyi övlad məhəbbətini valinin qəlbindən büsbütün çıxarıb atıb. Yalnız sonda, Çılğın intihar edəndən sonra Akşinin atalıq duyğuları oyanır ki, onda da artıq vali seytnot vəziyyətində idi, çox gec idi. Gənc aktrisa Gülxar İmamhüseynova bu zavallı qızcığazın acı fəryadlarını, faciəvi taleyini tamaşaçıya çatdırmağa cəhd edir və müəyyən qədər buna nail olur. Amma bu obraz daha dərin ştrixlərlə ətə-qana dolmuş olsaydı, hiss və emosiyalar daha qabarıq şəkildə təqdim edilsəydi, daha yaxşı olardı.

Fərahim Fətəliyevin canlandırdığı İbn Tahir mənə son dərəcə təbii təsir bağışladı və aktyor demək olar ki, öz rolunu peşəkarcasına canlandırır. Aktrisa Lalə Məmmədin Anası da canlı boyalarla işlənib, tamaşaçının yaddaşına hopur.

Tamaşanın bəstəkarı Aqşin Əlizadədir, proqramda mahnıların bəstəkarının adı ayrıca yazılıb. Hansı mahnılardan söhbət gedir, onu anlamadım. Tamaşanın sonunda kiçik bir muğam hissəsi səsləndirilir ki, bu da sonluq üçün uğurlu seçimdir.

Əməkdar artistlər Əbülfət Salahov (İbn Zeyd), Xanlar Həşimzadə (Ağsaqqal) yaratdıqları obrazların mənəvi-psixoloji durumunu tapa bilirlər. Bu da səhnədə atmosfer yaradan faktora çevrilir.

Ümumən, “Dar ağacı” tamaşası Şəki Dövlət Dram Teatrının ən uğurlu tamaşalarından biri kimi yadda qaldı. Bu uğurda rejissor Mirbala Səlimli başda olmaqla bütün yaradıcı heyətin payı var.

***Kənan HACI,***
***yazıçı-dramaturq***

# TURKKON heyəti ali məktəbdə

**Türk dövlətləri arasında elmi, mədəni və təhsil sahəsində əməkdaşlıq əlaqələri genişlənir. Bu sahədə uğurlu fəaliyyəti ilə seçilən qurumlardan biri də Turan Dövlətləri Birləşmiş Konfederasiyası—TURKKON-dur. Bakı Avrasiya Universitetində AMEA Nəsimi adına Dilçilik İnstitutunun elmi katibi, filologiya elmləri doktoru Aynel Məşədiyeva və TURKKON-un xarici təşkilatlanma üzrə sədr müavini Məsut Gülaçtının rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirilib.**







BAU-nun beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Sevda Rzayeva, nəzəri dilçilik və türk dilləri kafedrasının müdiri, dosent Zəminə Rüstəmbəyli, kafedranın əməkdaşı, dosent Kəmalə Ələkbərova və filologiya fakültəsinin dekanı, dosent Salman Süleymanovun iştirak etdikləri məclisdə Türk dövlətləri arasında elmi, mədəni və təhsil sahələrində əməkdaşlıq perspektivləri, mövcud əlaqələrin daha da möhkəmləndirilməsi, birgə tədbirlərin təşkili və qarşılıqlı layihələrin həyata keçirilməsi kimi mühüm məsələlər müzakirə olunub. Qonaqlara institutun əsas fəaliyyət istiqamətləri, elmi-tədqiqat işləri və bu sahədəki yeniliklərlə bağlı ətraflı məlumat təqdim edilib. Tərəfdaşlığın genişləndirilməsinin hər iki tərəf üçün əhəmiyyətli və faydalı olacağı xüsusi vurğulanıb. Bununla yanaşı, Bakı Avrasiya Universitetinin filologiya fakültəsinin tələbələrinə TURKKON-un fəaliyyəti, məqsədləri və regional əməkdaşlıqda oynadığı rol haqqında geniş məlumat verilib.

Sonda TURKKON-un mədəniyyət, təhsil və akademik əməkdaşlıq üzrə sədri Aynel Məşədiyeva, xarici mətbuat və media əlaqələri bölməsi üzrə sədr müavini Turan Ədalət, xarici təşkilatlanma və diaspora fəaliyyətləri bölməsi üzrə sədr müavini Pərvin Mehdiyev Azərbaycan – TURKKON əməkdaşlığına göstərdikləri dəstəyə görə mükafatlandırılıblar. Məsut Gülaçtı BAU rəhbərliyinə hədiyyə təqdim edib.

***XQ***

*Milli kino tariximiz*

**(əvvəli qəzetin 15, 25, 28 noyabr və 3 dekabr tarixli saylarında)**

**Bundan əvvəlki yazılarda 2025-ci ildə daha böyük yubileyləri olan “Arşın mal alan”, “Bəxtiyar”, “Görüş”, “Koroğlu”, “Aygün”, “Yenilməz batalyon, “Yeddi oğul istərəm”, “Alma almaya bənzər” və “Tütək səsi” bədii filmlərindən bəhs etmişdik.**

# Ölməz ekran əsərləri

Ötən əsrdə “Azərbaycanfilm” kinostudiyasında çəkilmiş bir çox ekran işləri məşhurluq qazanaraq, keçmiş SSRİ-nin müttəfiq respublikalarında və xarici ölkələrdə nümayiş etdirilib. Milli kino nümunələrimizin bir çoxunun festivallarda fərqlənməsi, mükafatlara layiq görülməsi 127 yaşlı ekran sənətimizin nail olduğu aşkar uğurların təcəssümüdür.









İndi isə xəyal atlarımızı yəhərləyib, xatirə cığırları ilə yolumuza davam edək və daha gənc ekran əsərlərini – 40 yaşlı “Atları yəhərləyin” və “Bağ mövsümü” filmlərini yada salaq.

## “Atları yəhərləyin”

**Dövlət mükafatına layiq görülmüş bu ekran əsəri Azərbaycan kinematoqrafiyasında yeganə filmdir ki, 3 adla tanınır. Həsənağa Turabovla Əbdül Mahmudbəyovun rejissoru olduqları film əvvəlcə Süleyman Rüstəmin eyni adlı pyesi əsasında çəkildiyi üçün “Qaçaq Nəbi” adlandırılıb. Sonrakı proseslərdə müəyyən siyasi müdaxilələr səbəbindən “Qanlı zəmi” və “Atları yəhərləyin” olub.**

Xalq hərəkatı qəhrəmanına həsr olunan kəskin süjetli filmdə onun qisasçı dəstəsinin igidliklərindən söhbət açılır. XIX əsrin sonlarında silahlı kəndlilər Zəngəzurda çar canişinlərinin amansız hakimiyyətinə, xalqı soymaqla varlanan feodal əyanlarına və tacirlərinə qarşı mübarizə aparırlar. Qaçaq Nəbinin (Həsənağa Turabov) arvadı qorxmaz Həcər (Mömünat Qurbanova) də əri ilə birgə həmin dəstədə vuruşurdu.

Ssenari müəllifi Əhmədağa Mahmudov (Muğanlı) olan ekran əsərinin quruluşçu operatoru Kənan Məmmədov, quruluşçu rəssamı Kamil Nəcəfzadə, geyim rəssamı Kazım Kazımzadə, bəstəkarı Emin Sabitoğludur. Yeri gəlmişkən, Emin Sabitoğlunun məşhur “Anama deyin” mahnısı (Niyaməddin Musayevin səsində) bu film üçün yazılıb.

Kinoda əsas rolları Həsənağa Turabov və Mömünat Qurbanova ilə bərabər, Rasim Balayev, Ənvər Həsənov, Gümrah Rəhimov, Eldəniz Quliyev, Ramiz Əzizbəyli, Şahmar Ələkbərov və başqaları ifa ediblər.

Əvvəl belə bir fikir olub ki, “Qanlı zəmi” Nəbinin öz yurdunda - Qubadlıda çəkilsin. Amma ora Bakıdan çox uzaq məsafədə olduğuna və kinostudiya ilə əlaqə çətinliyinin baş verəcəyi ehtimalına görə çəkilişlər üçün məkan seçimi Şamaxı olub. Dağlıq Şirvan ərazilərində təxminən 40 nəfərlik heyət çəkilişlərə qatılıb. Filmdə iştirak edən kaskadyorlar isə məşhur “Dartanyan və 3 muşketyor”da çəkilmiş “Lenfilm” qrupunun üzvləri idi. Bəzi döyüş səhnələri Qobustanda, dekor çəkilişləri kinostudiyada, interyer çəkilişləri isə İncəsənət Muzeyində aparılıb.

O vaxtlar “Mosfilm”də vəzifə tutan ermənilər filmin istehsalata buraxılmasına əngəl törətməyə çalışıblar və səbəb olaraq Qaçaq Nəbinin ermənilərə divan tutmasını göstəriblər. Lakin onlar Qaçaq Nəbi ilə başqa bir qəhrəman olan Qara Nəbini qarışdırırdılar. Uzun çək-çevirdən sonra ermənilər məqsədlərinə çatmayıb, yalnız filmin adının dəyişdirilməsinə nail ola biliblər. Nəhayət, 1985-ci ildə film çəkilib və böyük uğurla nümayiş etdirilib.

Bir çox filmlərimizdə olduğu kimi, “Atları yəhərləyin”də də zərb-məsələ çevrilən məşhur ifadələr var. Məsələn, “Arazın o tayı da, bu tayı da mənim doğma el-obamdır. Elin də o başı, bu başı olmaz”, “Tənha quş yuva bağlamaz, lap qartal da olsa”, “Yalın artıq düşüb, deyəsən”, “Hələ, gör, neçə il də vuruşmalıyıq ki, bu camaat bir ağ gün görsün”. Bu sitatlar Qaçaq Nəbinin elə-obaya nə qədər bağlı olduğunu əks etdirir. Yaxud Mirzənin (Eldəniz Quliyev) dediyi “Sapı özümüzdən olan balta düşməndən də qorxuludur” fikri bu gün də yeri gəldikcə işlədilir. Filmdə Səlim bəyin (Rasim Balayev) dediyi bu ifadə də məşhurlaşıb: “Kişinin qoluna qandalı gərək kişi vursun”.

Nəhayət, qeyd edək ki, “Atları yəhərləyin” bədii filmi 2013-cü ildə yeni həyat qazanıb. Azərbaycan və Rusiyanın dövlət film fondları birlikdə həmin kinolenti bərpa edərək elektron formata keçiriblər.

## “Bağ mövsümü”

**Rejissoru Tofiq Tağızadə olan bu tammetrajlı filmin də 40 yaşı var. Ssenari müəllifi özünün məşhur “Dolça” povestinin motivlərindən istifadə etmiş yazıçı Elçindir. Filmi operator Elxan Əliyevin qrupu çəkib, rəssamlıq işləri Kamil Nəcəfzadəyə, musiqisi bəstəkar Xəyyam Mirzəzadəyə məxsusdur. Kinolentdə baş rolları Həsən Məmmədov, Zemfira Sadıqova, Səməndər Rzayev, Leyla Şıxlinskaya, Hacımurad Yegizarov, Nuriyyə Əhmədova, Ramiz Əzizbəyli, Elxan Səfərov və başqaları oynayırlar. Ustalıqla seçilmiş heyət ekran əsərinin maraqlı alınmasına tam mənada nail ola bilib.**

Həsən Məmmədovun Ağababa obrazı maraqlı olduğu qədər də, yaratdığı digər obrazlardan kəskin fərqlənir. Çünki Ağababa “Bağ mövsümü”ndə baş qəhrəman olaraq çoxuşaqlı ailə başçısı, sadə bir insan kimi təqdim olunur və bunun öhdəsindən çox bacarıqla gəlir. Filmdə Ağababanın həyat yoldaşı - Ağabacı rolunda çəkilmiş Zemfira Sadıqovanın ifasını rejissor tam qəbul etməsə də, aktrisa obrazı lazımi səviyyədə, sadə, səmimi şəkildə canlandıra bilib.

Filmdə Mərdəkan bağlarında baş verən ibrətamiz əhvalatdan, namuslu ailə başçısı olan avtobus sürücüsü – Ağababanın külfətindən söhbət gedir. Halal zəhmətin hər şeydən üstün olması fikri təlqin edilir. Ssenari kəndin şəhərlə mənəvi-psixoloji ziddiyyəti üzərinə qurulub: Ağababanın avtobusu bu iki ziddiyyətli məkan əlaqəsinin aparıcı vasitəsidir. Ağababa ilə dostluğu ön plana gətirilən Toplan (Dolça) iki mühit arasındakı fərqin yeganə qurbanı kimi təqdim olunur.

Bu da maraqlıdır ki, filmdə Toplan kimi Moskvadan gətirilmiş və xüsusi təlim keçmiş Emma adlanan it çəkilib. Həmin kadrlar isə çoxsaylı dubllarla, ifrat çətinliklə başa gəlirdi. Aktrisa Zemfira xanım deyib ki, itlə olan çəkilişlərin birində hətta bütün günü oyaq qalıblar.



Halallıqla dolanan ailənin Toplanı uzun müddət evdə verilən yeməklərə qane olsa da, sonda başqa itlər kimi, nəfsini saxlaya bilməyib, kababxana tərəfə üz tutur, orada sür-sümük gəmirir və tədricən sahibindən də üz döndərir. Bu isə ailəyə pis təsir edir.

Ssenariyə görə, içki aludəçisi olan Əmirqulu rolunu “alkaş” kimi canlandırmaq Qorbaçovun o zamankı alkoqolizmə qarşı mübarizə dövrünə düşdüyü üçün mətn məcburi dəyişikliyə məruz qalıb. Həmin obrazı yaradan Ramiz Əzizbəyli şahmat aludəçisi kimi təqdim olunub, həyat yoldaşı Xeyransanı (Nuriyyə Əhmədova) da bu “azar”a düçar edib.

İnamla deyə bilərik ki, Azərbaycan kinosunun patriarxlarından sayılan Tofiq Tağızadə özünün “Görüş”, “Uzaq sahillərdə”, “Mən ki gözəl deyildim”, “Arşın mal alan” (1965), “Əsl dost”, “Yeddi oğul istərəm”, “Dədə Qorqud” kimi “Bağ mövsümü” filmi ilə də milli kinomuza fərqli, yeni nəfəs gətirib.

***(ardı var)***

***Ə.DOSTƏLİ***
***XQ***

*Kamal Abdulla – 75*

# Naxçıvanda yubiley konfransı





**Görkəmli dilçi-ədəbiyyatşünas və yazıçı-dramaturq, Azərbaycan Dillər Universitetinin rektoru, akademik Kamal Abdullanın 75 illik yubileyi münasibətilə Naxçıvan Dövlət Universitetində elmi konfrans keçirilib.**

Açılış mərasimində NDU-nun rektoru Elbrus İsayev yubilyarı Naxçıvanın elmi-mədəni və təhsil ictimaiyyəti adından səmimi təbrik edərək onun elmi-bədii yaradıcılığı, ictimai-pedaqoji fəaliyyəti barədə ətraflı məlumat verib. Bildirilib ki, Kamal Abdulla elmi tədqiqatları və bədii əsərləri ilə milli elmimizə, ədəbiyyatımıza və ali təhsilimizə önəmli töhfələr verib. Onun yaradıcılığı və mükəmməl şəxsiyyəti NDU-da da yüksək dəyərləndirilir. Rektor yubilyara ali məktəbin "Fəxri fərmanı"nı və hədiyyə olaraq rəsm əsəri təqdim edib.

AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev bildirib ki, Kamal Abdulla dərin zəkalı alim, istedadlı yazıçı və təcrübəli elm-təhsil təşkilatçısı kimi çoxillik səmərəli fəaliyyəti ilə Azərbaycanın ən yaxşı yaradıcı ziyalılarının ənənələrini uğurla davam etdirib, söz xəzinəmizi zənginləşdirib, yüksək ixtisaslı kadrlar yetişdirib.

Tarix-filologiya fakültəsinin dekanı Arif Ağalarovun moderatorluğu ilə davam edən konfransda yerli və xarici universitetlərin alimləri məruzələrlə çıxış ediblər. Azərbaycan Dillər Universitetinin professoru, akademik Muxtar İmanov "Kamal Abdullanın dilçilik və ədəbiyyat sahəsində tədqiqatları" mövzusunda məruzəsində alimin elmi irsinin milli filologiyanın inkişafına layiqli töhfə olduğunu vurğulayıb.



Rumıniyanın Yaşi Universitetinin professoru Ludmila Bejenaru isə "Kamal Abdulla dünya ədəbiyyatında" mövzusunda məruzəsində alimin beynəlxalq elmi-ədəbi mühitdə yaxşı tanındığını qeyd edib və onun elmi fəaliyyətinə kitab həsr etdiyini söyləyib. Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri Asim Yadigar Kamal Abdullanın şeirlərinin poetik dəyərini vurğulayıb, yubilyara həsr etdiyi poemanı ona təqdim edib.

Konfransda Aqşin Bağırovun "Kamal Abdullanın Azərbaycan təhsilindəki rolu", dosent İman Cəfərovun "Kamal Abdullanın yazıçı, alim, ictimai xadim kimi fəaliyyət istiqamətləri", dosent Əli Həşimovun "Kamal Abdulla yaradıcılığında Dədə Qorqud araşdırmaları", dosent Gülxarə Əhmədovanın "Kamal Abdulla dramaturiyası və teatr dili" mövzularında məruzələri də dinlənilib.

Elmi məclis teatr və mədəniyyətşünaslıq kafedrasının müəllimi, rejissor Nurbəniz Niftəliyevanın tələbələrin iştirakı ilə hazırladığı Kamal Abdullanın "Hərdən mənə mələk də deyirlər" adlı tamaşası ilə davam edib.

Sonda yubilyar göstərilən yüksək diqqət və ehtirama görə minnətdarlığını bildirib. Onun söylədiyi "Soldu nar çiçəkləri" şeiri məclisin yüksək duyğulu sonluğu olub.

***Səbuhi HƏSƏNOV,***
***XQ-nin Naxçıvan müxbiri***

# Ümummilli lider və dövlət qadın siyasəti



**Dünən AMEA-da "Ümummilli lider Heydər Əliyevin ictimai görüşlərində gender amili" mövzusunda dəyirmi masa keçirilib.**

Məclisi giriş sözü ilə açan AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli ulu öndər Heydər Əliyevin xatirəsinin həm ölkəmizdə, həm də onun hüdudlarından kənarda dərin hörmət və ehtiramla yad edildiyini bildirib. "Azərbaycanın müstəqil dövlət kimi möhkəmlənməsində və tanıdılmasında, dünyada söz sahibi olan ölkələrdən birinə çevrilməsində Ümummilli liderin misilsiz rolu olub" – söyləyən AMEA rəhbəri Heydər Əliyevin mübarizə keçdiyi yolunun, qazandığı təcrübənin, titanik xidmətlərin dünya xalqları üçün bir nümunə, insanlar üçün örnək olduğunu diqqətə çatdırıb.

Ulu öndər Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi hər iki dövrdə AMEA-nın inkişafını diqqət mərkəzində saxladığını deyən akademik qeyd edib ki, rəhbərlik etdiyi qurumun 80 illik yubiley tədbirlərinin zirvəsi Prezident İlham Əliyevin 3 noyabr 2025-ci il tarixində Akademiyanın yığıncağında iştirakı və dərin məzmunlu nitqlə çıxışı etməsi oldu. Dövlət başçısının tarixi çıxışı Azərbaycan aliminə, elminə, ziyalısına və Milli Elmlər Akademiyasına dövlət səviyyəsində diqqətin ifadəsidir.

Bildirilib ki, ulu öndər Heydər Əliyev dünyaya mükəmməl dövlətçilik təlimi təqdim edib. Dahi rəhbər ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə xalqımıza ləyaqətlə xidmət edib, zəka və bacarığını Azərbaycan xalqının rifahına, milli dövlətçilik ideyalarının gerçəkləşdirilməsinə həsr edib. Heydər Əliyevin ideyaları, dövlətçilik kursu bu gün də yaşayır, müstəqil Azərbaycan dövlətinin inkişafına, möhkəmlənməsinə xidmət edir və dünyaya müstəqil dövlət olmağın nümunələrini təqdim edir.

Ulu öndərin müstəqilliyimizin qorunub saxlanması və möhkəmləndirilməsi istiqamətində yorulmaz səylərinin hazırda onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir və müasir çağırışlara uyğun olaraq inkişaf etdirilir.

Heydər Əliyevin müəyyənləşdirdiyi uğurlu xarici siyasət nəticəsində Azərbaycan dünyada layiqli yerini tutub, beynəlxalq arenada etibarlı tərəfdaş kimi tanınıb. Böyük rəhbərin zəngin həyat yolu və siyasi fəaliyyətinin önəmi yeni nəsillərə layiqincə çatdırılmalıdır.

Sonra ulu öndər Heydər Əliyevə həsr olunmuş videoçarx nümayiş etdirilib.

Dəyirmi masada AMEA-nın vitse-prezidenti, akademik İradə Hüseynova, AMEA Qadınlar Şurasının sədri, professor Rəna Mirzəzadə, AMEA-nın vitse-prezidenti, akademik Gövhər Baxşəliyeva, İctimai Elmlər Bölməsi elmi şurasının sədr müavini, akademik Nərgiz Axundova, Fəlsəfə və Sosiologiya İnstitutunun şöbə müdiri, fəlsəfə elmləri doktoru, dosent Xatirə Quliyeva, YAP Veteranlar Şurasının üzvü, AMEA-nın Qadınlar Şurasının İdarə Heyətinin üzvü, həkim-ictimaiyyətçi Zərifə Quliyeva və Fəlsəfə və Sosiologiya İnstitutunun elmi işçisi Gülşən Allahverdiyeva çıxış edərək Ümummilli liderin Azərbaycan xalqı və dövlətçiliyi qarşısında xidmətlərindən danışıblar.

***Qabil YUSİFOĞLU***
***XQ***

*Beynəlxalq həyat*

# Hindistanda mobil cihazlara rəsmi nəzarət güclənir

*Smartfon istehsalçılarından dövlət tətbiqini yükləmələri tələb olunur*

**Kibertəhlükəsizlik təhdidləri dünya ölkələrini onlarla mübarizə yolları axtarmağa məcbur edir. Hindistanda Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi smartfon istehsalçılarına dövlət tərəfindən dəstəklənən "Sanchar Saathi" tətbiqinin cihazlarda əvvəlcədən quraşdırılması ilə bağlı göstəriş göndərib. Bu qərarın əleyhdarları hesab edirlər ki, silinməsi mümkün olmayan belə bir proqram istifadəçi hüquqlarını pozur.**

"Sanchar Saathi" tətbiqi Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin təşəbbüsü ilə 2023-cü ildə hazırlanaraq istifadəyə verilib. Bu proqram hindistanlılara oğurlanmış və ya itmiş telefonu eyni adlı internet portalı vasitəsilə bloklamağa imkan verir (telefon sahibinə geri qaytarıldıqdan sonra eyni portaldan cihazın blokunu açmaq mümkündür). Həmçinin tətbiq vasitəsilə şübhəli zənglər, spam və zərərli keçidlər barədə polisə müraciət etməklə xəbər vermək olar.




Xidmət IMEI (International Mobile Equipment Identity – mobil avadanlığın beynəlxalq identifikatoru – red.) sayəsində fəaliyyət göstərir. IMEI hər bir mobil qurğuya verilən 14–17 rəqəmli unikal nömrədir. Bu nömrə ilə telefonun mənşəyini, modelini və seriya nömrəsini müəyyən etmək olur. Dələduzluq hallarında adətən saxta və ya təkrarlanan IMEI nömrələrindən istifadə edilir. Hindistan hökuməti bildirir ki, bu məlumatlara çıxış polisə itmiş və ya oğurlanmış cihazların qara bazara düşməsinin qarşısını almağa imkan verir. Rəsmi rəqəmlərə görə, tətbiq istifadəyə verildikdən bəri 3,7 milyon cihaz bloklanıb və 30 milyonadək saxta bağlantı kəsilib.

Nazirliyin göstərişinə əsasən, Hindistana idxal edilən smartfonlarda e-poçt, brauzer, qeydlər və digər əsas tətbiqlərlə yanaşı, "Sanchar Saathi" də əvvəlcədən quraşdırılmalıdır. Bu qərar Samsung, Vivo, Oppo, Xiaomi və Apple kimi şirkətləri əhatə edir. Göstərişin icrası üçün onlara 90 gün vaxt verilib. Artıq istifadədə olan cihazlara isə proqram təminatının yenilənməsi vasitəsilə tətbiqin quraşdırılması təmin edilməlidir.

Hüquqşünaslar hesab edirlər ki, əsas problemlər Stiv Cobsun yaratdığı şirkətlə bağlı olacaq. Apple əvvəllər də müxtəlif ölkələrin oxşar tələblərini rədd edib. Bu, şirkətin korporativ siyasəti ilə bağlıdır: Apple satılmamış smartfonlara dövlət və ya üçüncü tərəf tətbiqlərinin quraşdırılmasına icazə vermir.

Bununla belə, "Apple" Hindistanda ən populyar brend deyil. Texnoloji bazarın tədqiqat şirkəti "Counterpoint"in son məlumatlarına görə, Hindistan smartfon bazarının cəmi 9 faizi "Apple"a məxsusdur. Ən populyar brend 24 faiz payla Vivo-dur; onu 16 faiz ilə Oppo izləyir. Samsung və Xiaomi isə hərəsi 13 faiz bazar payına sahibdir.

"Counterpoint"in tədqiqat direktoru Tarun Patxak ("Reuters"ə istinadla) qeyd edib ki, Apple ilə bağlı məsələni həll etmək üçün elə bir seçim variantı tapıla bilər ki, istifadəçilər tətbiqi özləri quraşdırmağa həvəslənsinlər. Ekspertlər hesab edirlər ki, tətbiqin hindistanlılara nəzarət məqsədilə istifadə olunacağı real görünmür. Qeyd olunur ki, "Sanchar Saathi"nin əvvəlcədən quraşdırılması ilk növbədə yerli istehsalçıya dəstək məsələsidir və bu, artıq uzun müddətdir ölkənin gündəmindədir. Mütəxəssislər həm də əlavə edirlər ki, hindistanlı proqramçıların dəstəklənməsi siyasətinin məqsədlərindən biri Çin IT məhsullarının bazardan sıxışdırılmasıdır, bu isə yalnız yeni proqram təminatının yaradılması ilə məhdudlaşmır. Belə ortaq fikir var ki, insanların tətbiqləri onlayn mağazalardan yükləməsinə qadağa qoymaq çətindir. Buna görə də hökumət qeyri-iqtisadi üsullarla, o cümlədən öz proqram təminatının əvvəlcədən quraşdırılması yolu ilə yerli şirkətlərə dəstək göstərməyə çalışır. Bütün bunlar gələcəkdə "Sanchar Saathi"nin də daxil olduğu bütöv rəqəmsal ekosistemin yaradılmasına səbəb olacaq.

***Səbuhi MƏMMƏDOV***
***XQ***

**AZƏRBAYCAN İDMAN AKADEMİYASI**

*AŞAĞIDAKI PROFESSOR-MÜƏLLİM VƏZİFƏLƏRİNƏ*

**MÜSABİQƏ ELAN EDİR**

***FƏRDİ İDMAN NÖVLƏRİ KAFEDRASI***

Yunan-Roma güləşi ixtisası üzrə dosent – 0.5 ştat
Boks ixtisası üzrə müəllim – 1 ştat

***KOMANDA İDMAN NÖVLƏRİ KAFEDRASI***

Güllə atıcılığı ixtisası üzrə baş müəllim – 1 ştat
Şahmat ixtisası üzrə baş müəllim – 1 ştat
Stolüstü tennis ixtisası üzrə müəllim – 1 ştat

***SAĞLAMLAŞDIRICI İDMAN VƏ REABİLİTASİYA KAFEDRASI***

Sahibkarlığın əsasları fənni üzrə dosent – 0,5 ştat
Biokimyanın əsasları fənni üzrə baş müəllim – 1 ştat
İdman təbabəti fənni üzrə baş müəllim – 1 ştat
Biomexanika fənni üzrə müəllim – 1 ştat
Anatomiya fənni üzrə müəllim – 1 ştat
İdman farmakalogiyası fənni üzrə müəllim – 0,5 ştat

***FİZİKİ HAZIRLIQ KAFEDRASI***

Orduda fiziki hazırlığın əsasları fənni üzrə baş müəllim – 2 ştat
İdman qurğuları və trenajorları fənni üzrə baş müəllim – 1 ştat

***MENECMENT VƏ ÜMUMİ FƏNLƏR KAFEDRASI***

Psixologiya fənni üzrə baş müəllim – 1 ştat
Pedaqogika fənni üzrə baş müəllim – 1 ştat
Pedaqogika fənni üzrə müəllim – 1 ştat
Ali riyaziyyat fənni üzrə baş müəllim – 0,5 ştat
Xarici dildə (ingilis dili) işgüzar və akademik kommunikasiya fənni üzrə müəllim – 5 ştat

**Sənədlər müsabiqə elan edildiyi gündən bir ay ərzində təqdim oluna bilər. Məlumat telefonu: 012-564-33-75.**

***REKTORLUQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 256 (30950) 4 dekabr 2025-ci il, cümə axşamı

## İDMAN

## Azərbaycan kubokunda növbəti oyunlar



**Futbol üzrə Azərbaycan Kubokunda 1/8 final mərhələsinə start verilib. Dünən "Şamaxı" doğma meydanda "Baku Sportinq"i qəbul edib. Oyun 1:0 hesabı ilə şamaxılıların xeyrinə başa çatıb. "İmişli" "Sabah" qarşılaşmasında əsas vaxt 1:1 hesabı ilə başa çatıb. Əlavə vaxtda paytaxt təmsilçisi daha bir qol vuraraq 1/4 finala vəsiqəni təmin edib.**

Günün son qarşılaşmasında isə "Qarabağ" öz meydanında "Karvan-Yevlax"ı qəbul edib. Ağdamlılar qonaqların qapısından 3 cavabsız top keçirərək növbəti mərhələyə adlayıb.

Bir gün əvvəl isə "SOCAR Polymer Arena"da "Şahdağ Qusar" "Turan Tovuz"a məğlub olub – 1:2, "Zirə" isə "Neftçi"yə əlavə vaxtda qalib gəlib – 1:0.

Beləliklə, "Turan Tovuz", "Zirə", "Şamaxı", "Sabah" və "Qarabağ" növbəti mərhələdə iştirak etmək hüququ qazanıblar.

1/8 final mərhələsinə bu gün yekun vurulacaq.

## Fərid Qayıbovun Busan görüşləri



**Gənclər və idman naziri Fərid Qayıbov Koreyanın Busan şəhərində Dünya Antidopinq Konfransında ("World Anti-Doping Conference 2025") iştirak edib.**

Konfransda çıxış edən Fərid Qayıbov antidopinq siyasətinin qlobal problemlərinə toxunub, həmçinin Azərbaycanın antidopinq sahəsində həyata keçirdiyi tədbirlər, beynəlxalq əməkdaşlıq fəaliyyəti və gələcək prioritetlər barədə məlumat verib.

Nazir çıxışında ölkəmizin evsahibliyi etdiyi kütləvi idman tədbirləri, sağlam həyat tərzinin təşviqi ("sport lifestyle") və digər uğurlu layihələr haqqında da danışıb.

Səfər çərçivəsində nazir Fərid Qayıbov Koreyanın mədəniyyət, idman və turizm naziri Ce Hvi-Yanq, Dünya Antidopinq Agentliyinin (WADA) prezidenti Vitold Banka və Busan Böyükşəhər Bələdiyyəsinin meri Park Heonq-cun ilə müxtəlif görüşlər keçirib.

Görüşlər zamanı ikitərəfli əməkdaşlıq məsələləri müzakirə edilib.

## Paralimpiyaçılarımız bu il 61 medal qazanıblar



**Azərbaycanda paralimpiya hərəkatı sürətli inkişaf yolu keçib və bu gün beynəlxalq aləmdə uğurlu nəticələr göstərir. Azərbaycan paralimpiyaçıları 2025-ci ildə beynəlxalq yarışlarda yaxşı nəticələr nümayiş etdiriblər.**

Milli Paralimpiya Komitəsindən verilən məlumata görə, paralimpiyaçılarımız cari ildə 22 qızıl, 18 gümüş və 21 bürünc olmaqla, ümumilikdə 61 medal qazanıblar. Bu il idmançılar arasında bir dünya və iki Avropa çempionu var.

Hazırda idmançı reyestri üzrə 100-ə yaxın paralimpiyaçı 10 idman növündə (9 yay, 1 qış idman növü) məşqlərini davam etdirir.

*Qabil YUSİFOĞLU*
*XQ*


## OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

### XALQ QƏZETİ

### Abunə yazılışını davam etdirir!

*Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda, aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:*

1. "Azərmətbuatyayımı" ASC (012)-440-16-26.
2. "Azərpoçt" MMC (012)-598-49-55, (051)-225-02-13.
3. "Qaya" firması (012)-566-77-80, (050)-214-40-53.
4. "SƏMA-M" MMC (012)-594-02-52, (050)-333-69-69.
5. "ZİYA" LTD (012)-497-76-96, (050)-306-77-44.
6. "PRESSİNFORM" MMC (012)-598-49-52, (050)-456-08-35.

1 illik – 156 (yüz əlli altı) manat.
6 aylıq – 78 (yetmiş səkkiz) manat.
3 aylıq – 39 (otuz doqquz) manat.
1 aylıq – 13 (on üç) manat.


5 il əvvəl biz hamımız Vətən dedik!
Xalq qəzeti
Prezident İlham ƏLİYEV:
Üç dövlət, üç qardaş – tək ürək

**Hörmətli abunəçilər!**
**Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız, (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.**

**Hörmətli oxucular!**
**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


## Ağdərədə mina partlayıb

**Ağdərə rayonunun Şıxarx kəndi ərazisində mina hadisəsi baş verib.**

Bu haqda Daxili İşlər Nazirliyi, Baş Prokurorluq və ANAMA-nın Mətbuat Xidmətləri məlumat yayıb.



Bildirilir ki, 1970-ci il təvəllüdlü kənd sakini Pənahəliyev Nazim Kamran oğlu minalardan təmizlənməmiş ərazidə mal-qara otararkən piyada əleyhinə mina partlayışı nəticəsində sağ ayağından xəsarət alıb. Xəsarət alan şəxs rayon xəstəxanasına təxliyə edilib.

Faktla bağlı Tərtər Rayon Prokurorluğunda araşdırma aparılır.

*XQ*

# "Omnibus"dan "BakuBus"a gələn yol

## *Çar III Aleksandr Gəncəyə nə üçün gəlmişdi?*

**III MDB Oyunları ərəfəsində Gəncəyə yüzlərlə yeni, müasir avtobuslar gətirildi və müxtəlif marşrutlara buraxıldı. "Bakubus" xətti ilə fəaliyyətə başlayan bu nəqliyyat vasitələri ilk günlər müəyyən narazılıqlar yaratsa da, vəziyyət tezliklə nizama düşdü.**

Şəhər nəqliyyatının yenilənməsi dövrün zərurəti idi. Gəncənin adına, tarixinə yaraşmayan, köhnəlmiş və sıradan çıxmış avtobusların şəhərdə görünməsi təəssüf doğururdu. İndi isə həmin mənzərə artıq keçmişdə qalıb. Yeni salınmış asfalt yollarda kart sistemi ilə işləyən rahat avtobuslar göründə insanın ürəyi açılır.

Bəs bu qədim şəhərdə illər, əsrlər öncə ilk ictimai nəqliyyat necə olub? Bu sual, yəqin ki, oxucu üçün də maraqlıdır. Elə söhbətimiz də bu barədədir.

Gəncədə ictimai nəqliyyatın ilk növü sayılan "omnibus" 1883-cü ilin 1 iyun tarixində fəaliyyətə başlayıb. Belə bir nəqliyyat vasitəsinin istifadəyə verilməsinə səbəb dəmiryol stansiyasının şəhər mərkəzindən təxminən beş kilometr uzaqda yerləşməsi idi. Şəhər sakinlərinin çoxsaylı müraciətlərini nəzərə alan Nəqliyyat Nazirliyi stansiyanı şəhərlə birləşdirən yeni yol çəkərək həmin marşrutda "omnibus" nəqliyyatını istifadəyə verib.











"Omnibus" Gəncədə iki istiqamətdə hərəkət edirdi. Hər iki marşrut dəmiryol stansiyasından başlayırdı: birinci istiqamət şəhər mərkəzinə, ikinci isə Hacıkənd qəsəbəsinə uzanırdı. Hacıkənd marşrutu Göygöl və o dövrdə "Helenendorf" adlanan alman koloniyasından keçirdi. Bu marşrut yalnız yay aylarında fəaliyyət göstərirdi.

Gedişhaqqı şəhər mərkəzinə qədər 20 qəpik, hər pud (təxminən 16 kiloqram) baqaj üçün isə 10 qəpik idi. Helenendorfa qədər bilet 20 qəpik, Hacıkənd istiqamətində isə 50 qəpik təşkil edirdi. Hər pud baqaj üçün bu istiqamətdə əlavə 20 qəpik ödənilirdi.

Atların dartdığı çoxoturacaqlı "omnibus"lar o dövr üçün Gəncədə, eləcə də ümumilikdə Azərbaycanda ictimai nəqliyyatın ilk forması hesab olunur. Bu nəqliyyat növü təkcə Gəncədə deyil, Şəki, Ağstafa, Şuşa, Zaqatala və Yevlaxda da fəaliyyət göstərib.

XX əsrin əvvəllərində "omnibus"ların fəaliyyəti dayandırılsa da, onlar Gəncənin nəqliyyat tarixində silinməz iz buraxıblar. 19-cu əsrin sonlarında Gəncə (o dövrdə Yelizavetpol) sürətlə böyüyürdü. Dəmir yolu stansiyası şəhər mərkəzindən bir neçə kilometr aralıda idi və insanlar artıq bu məsafəni piyada qət etmək istəmirdilər.

1888-ci ilin 10 oktyabrında Rus imperatoru III Aleksandr və həyat yoldaşı Mariya Fyodorovna Qafqaz səfəri çərçivəsində Yelizavetpol stansiyasında (indiki Gəncə Dəmiryol Vağzalında) 20 dəqiqəlik dayanaraq şəhərə gəlmişdilər. Onları şəhər qubernatoru knyaz Nakaşidze, şəhər başçısı və digər rəsmi şəxslər qarşıladılar. Stansiya bayraqlar və güllərlə bəzədilmiş, uşaqlar "A III" monoqramı hazırlamışdılar. Səfər zamanı imperator Aleksandr "Xan bağı"nın yeni planını təsdiqləmiş və bağ üçün ağaclarla gül kollarının gətirilməsini tapşırmışdı.

Cəmi yeddi il sonra, 1895-ci ildə, Gəncədə Qafqazın ən uzun atlı dəmir yolu – konka istifadəyə verildi. Relslər üzərində hərəkət edən bu vaqonları atlar dartırdı və onlara "dəmiryol atları" deyilirdi. Atların çəkdiyi iri taxta arabalar şəhər mərkəzi ilə dəmiryol stansiyasını birləşdirir, bəzən isə Hacıkəndə qədər uzanırdı. Arabaya minənlər təkərlərin xışıltısını, atların dırnaqlarının ritmini və arabaçının səsini lap uzaqdan eşidirdilər.

XX əsrin əvvəlləri Gəncənin nəqliyyat sisteminə yeni nəfəs gətirdi. 1923-cü ildə buxarla işləyən tramvay – camaatın "kukuşka" adlandırdığı nəqliyyat vasitəsi relslərdə görünməyə başladı. Şəhər getdikcə sənaye mərkəzinə çevrilirdi. 1933-cü il mayın 1-də isə elektrik tramvay xətti istifadəyə verildi.

Cəmi 17 il sonra, 1950-ci illərdə, bu estafeti trolleybuslar aldı. 1976-cı ildə isə tramvay xətləri artıq tarixə çevrildi.

1970-1980-ci illərdə Gəncənin trolleybus şəbəkəsi 8 marşrutdan ibarət idi və xətlərin ümumi uzunluğu 100 kilometri ötürdü. Lakin zaman dəyişdi. 2004-cü ildə trolleybuslar da səhnəni tərk etdi. Onların yerini müasir avtobuslar tutdu.

Bu gün şəhərdə hər növ nəqliyyat vasitəsi mövcuddur. Gəncə–Mingəçevir–Ağstafa istiqamətində gündəlik qatarlar hərəkət edir. Beləcə, relslərin, təkərlərin və elektron sistemlərin sintezindən ibarət müasir Gəncə nəqliyyatı formalaşıb.

..."Omnibus"un taxta təkərləri, konkaların relsləri, tramvayın zəngi, trolleybusun cızıltısı, avtobusların mühərrik səsi – hamısı bir zəncirin həlqələridir. Bu zəncir Gəncənin keçmişini bu günü ilə birləşdirir.

Gəncə bu gün də yol üstündədir, həm tarixlə gələcəyin, həm də ənənə ilə yeniliyin yolunda. Şəhərin nəqliyyatı dəyişir, amma bir şey eyni qalır: Gəncə hər zaman hərəkətdədir.

*Hamlet QASIMOV,*
*XQ-nin bölgə müxbiri*
**Gəncə**

## HAVA

## Bakıda yağmursuz, bəzi rayonlarda yağış və qar...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecə və axşam bəzi yerlərdə çiskinli olacağı ehtimalı var. Şimal-qərb küləyi gündüz şimal-şərq küləyi ilə əvəz olunacaq.**



Havanın temperaturu gecə 8-11, gündüz 12-15 dərəcə isti olacaq. Atmosfer təzyiqi 771 mm civə sütunu, nisbi rütubət isə gecə 80-85, gündüz 65-75 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında bəzi yerlərdə fasilələrlə yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə yağıntıların qısamüddətli intensivləşəcəyi, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq, mülayim qərb küləyi əsəcək.

Havanın temperaturu gecə 3-8, gündüz 12-17 dərəcə isti, dağlarda gecə 0-5 dərəcə şaxta, gündüz 5-10 dərəcə isti olacaq.

*Q.ƏLİYEV*
*XQ*

*✓ 2024-cü ildə "Şərur" MTK tərəfindən "QOBU-1" layihəsi üzrə Zeynalova Mahirə Mirzəkişi qızının adına verilmiş müqavilənin ikinci səhifəsi itdiyi üçün etibarsız sayılır. Ünvan: Qaradağ rayonu, Lökbatan qəsəbəsi, Lökbatan - Qobu yolunun sağ hissəsi,"QOBU-1" ünvanında giriş 4/2 , mənzil 46.*

*✓ Astara rayonunun Şüvi kənd sakini Məmmədov İsmayıl İsrafil oğluna məxsus veteran vəsiqəsi (N;153719)" Mitsubishi" markalı avtomobilin qeydiyyat şəhadətnaməsi (BD773019) və "VAZ 2121" markalı avtomobilin qeydiyyat şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.*

*✓ 2015-ci il iyunun 11-də Xırdalan Şəhər Bələdiyyəsi tərəfindən Ələsgərov Vüsal Həsən oğlunun adına verilmiş torpaq sahəsinin 161 5012263 nömrəli çıxarışı itdiyi üçün etibarsız sayılır.*

*✓ Xaçmaz rayon sakini Babayev İlham Məmmədağa oğlunun adına verilmiş "NAZ Lifan 320" markalı "27 BK 914" dövlət nömrə nişanlı avtomobilin texniki pasportu itdiyi üçün etibarsız sayılır.*

*✓ Lətifov Elşən Zahid oğlunun adına idarə etdiyi marka model Jetour X 70 minik avtomobilin AZ77XH327 və BB362009 seriya nömrəli Qeydiyyat şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.*

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994 (51) 280-16-44

"Xalq qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3589
SİFARİŞ 2326
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Nurlan ABDALOV
Çapa imzalanmışdır 00:00